RƏSMİ DÖVLƏT QƏZETİ



# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 272 (9151) ÇƏRŞƏNBƏ AXŞAMI, 13 dekabr 2022-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az

# Dərin ehtiramla...



## Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ümummilli Lider Heydər Əliyevin məzarını ziyarət ediblər

**Müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, dünyaşöhrətli siyasi xadim, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin vəfatından 19 il ötür.**

AZƏRTAC xəbər verir ki, dekabrın 12-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Fəxri xiyabana gələrək xalqımızın Ümummilli Lideri Heydər Əliyevin məzarını ziyarət ediblər.

Prezident İlham Əliyev Ulu Öndərin məzarı önünə əklil qoydu.

Azərbaycanın Dövlət Himni səsləndirildi.

Dövlətimizin başçısı İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ulu Öndərin ömür-gün yoldaşı, görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da məzarı üzərinə gül dəstələri qoydular.

Tanınmış dövlət xadimi Əziz Əliyevin və professor Tamerlan Əliyevin də xatirələri yad edildi, məzarları üstünə gül dəstələri düzüldü.

















## "Heydər Əliyev. Daim qəlbimizdədir"



### Birinci vitse-prezident Mehriban Əliyeva Ulu Öndərin anım günü ilə əlaqədar paylaşım edib

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva rəsmi instaqram səhifəsində Ulu Öndər Heydər Əliyevin anım günü ilə əlaqədar paylaşım edib.

AZƏRTAC xəbər verir ki, paylaşımda deyilir: "Heydər Əliyev. Daim qəlbimizdədir".

## Vladimir Putin İlham Əliyevə zəng edib



**Rusiya Federasiyasının Prezidenti Vladimir Putin dekabrın 12-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.**

Telefon söhbəti zamanı Rusiya, Azərbaycan və Ermənistan liderlərinin 2020-ci il 10 noyabr, 2021-ci il 11 yanvar və 26 noyabr, həmçinin bu il 31 oktyabr tarixli razılaşmalarının reallaşdırılmasının bəzi praktiki aspektləri, o cümlədən Cənubi Qafqazda iqtisadi və logistik əlaqələrin bərpası planları müzakirə edilib.

Dövlət başçıları gələcək təmaslar barədə də fikir mübadiləsi aparıblar.

***Prezidentin Mətbuat Xidməti***

## Strateji tərəfdaşlığın zirvəsi

### Azərbaycan və Türkmənistan qlobal miqyaslı layihələri ilə Avropanın qaz təchizatına və Türk Dövlətləri Təşkilatının daha da güclənməsinə töhfə verirlər

**Azərbaycanın xarici siyasətinin əsas prioritetlərindən biri, bəlkə də, ən mühümü türk dövlətləri ilə əlaqələrin bütün sahələrdə möhkəmləndirilməsidir.**

Məhz buna görə də Azərbaycan hər zaman türk dünyasının sıx birləşməsinə töhfəsini verib və həyata keçirdiyi siyasətlə Türk Dövlətləri Təşkilatına üzv ölkələrlə vahid birlik amalına sadiq qaldığını isbatlayıb.

→ 2

## Məramı sülh olmayanlara Azərbaycan öz yerini göstərdi

### İctimaiyyət nümayəndələrimiz Qarabağ iqtisadi rayonunda ədaləti və sülhü bərpa etmək üçün konstitusion hüquqlarından istifadə edirlər

**10 noyabr üçtərəfli Bəyanatına əsasən Azərbaycanın Qarabağ iqtisadi rayonunda yerləşdirilən Rusiyanın sülhməramlı kontingentinin ötən 2 il müddətində qarşısında dayanan vəzifələri icra etmədiyi göz önündədir.**

Bəyanata əsasən sülhməramlı kontingent erməni silahlı qüvvələrinin çıxarılması ilə paralel şəkildə yerləşməli idi. Sülhməramlılar yerləşiblər, amma erməni qanunsuz silahlı dəstələri hələ də Azərbaycan ərazilərində qalmaqdadırlar.

→ 5



## Etirazçılar Xankəndi-Gorus yolunu bağlayıblar

### Şuşada keçirilən aksiyada ərazilərimizdəki yataqların qanunsuz istismarına son qoyulması tələb olunur

Azərbaycan tərəfi Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi Azərbaycan ərazilərində təbii sərvətlərin qeyri-qanuni istismarının qarşısının alınması, eləcə də ekologiyaya mənfi təsirin nəticələrinin aradan qaldırılması məqsədilə Rusiya komandanlığına dəfələrlə müraciət etsə də, bunlara cavab verilməyib və sülhməramlı kontingent tərəfindən Azərbaycanın təbii sərvətlərinin qanunsuz istismarının qarşısının alınması üçün heç bir tədbir görülməyib.

→ 5

# Dövlət və hökumət rəsmiləri Fəxri xiyabanda Ulu Öndər Heydər Əliyevin xatirəsini yad ediblər





**Dekabrın 12-si Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin anım günüdür.**





AZƏRTAC xəbər verir ki, Baş nazir Əli Əsədov, Milli Məclisin Sədri Sahibə Qafarova, Prezident Administrasiyasının rəhbəri Samir Nuriyev, digər dövlət və hökumət rəsmiləri, hərbi qulluqçular, hüquq-mühafizə orqanlarının əməkdaşları, diplomatik korpusun nümayəndələri Fəxri xiyabanda Ümummilli Lider Heydər Əliyevin məzarını ziyarət edərək abidəsi önünə gül dəstələri qoyub, müasir müstəqil Azərbaycanın banisi və qurucusu Ulu Öndərin xatirəsinə dərin ehtiramlarını bildiriblər.

Ulu Öndərin ömür-gün yoldaşı, görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi anılıb, məzarı üzərinə gül dəstələri qoyulub.

# Ceyhun Bayramov Şərq Tərəfdaşlığı ölkələrinin XİN başçılarının görüşündə iştirak edib

Dekabrın 12-də Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Brüsselə işgüzar səfəri çərçivəsində Avropa İttifaqının (Aİ) Şərq Tərəfdaşlığı ölkələrinin xarici işlər nazirlərinin görüşündə iştirak edib.



Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, Aİ-nin Xarici İşlər və Təhlükəsizlik Siyasəti üzrə ali nümayəndəsi Cozef Borelin sədrliyi ilə keçirilən görüşdə Şərq Tərəfdaşlığı ölkələrinin xarici işlər nazirləri və Avropa Komissiyasının Qonşuluq və Genişlənmə məsələləri üzrə komissarı Oliver Varhelyi də iştirak edib. Tədbir ali nümayəndə Borelin və komissar Varhelyinin, habelə aidiyyəti struktur bölmələrin rəhbərlərinin çıxışı ilə başlayıb.

İclasda Şərq Tərəfdaşlığının hazırkı vəziyyəti və gələcək istiqamətləri, regional təhlükəsizlik, Avropa İttifaqı ilə tərəfdaş ölkələr arasında münasibətlərin perspektivləri haqqında müzakirə aparılıb. Görüşdə həmçinin Azərbaycan ilə Avropa İttifaqı arasında münasibətlərin inkişafı, Azərbaycanın Avropanın enerji təhlükəsizliyində oynadığı rol, nəqliyyat-kommunikasiya sahəsində əməkdaşlıq məsələləri müzakirə edilib, ölkəmizin regional nəqliyyat-logistika qovşağı olması vurğulanıb.

Nazir Ceyhun Bayramov çıxış edərək ölkəmizin Avropa İttifaqı ilə bərabərhüquqlu tərəfdaşlığa əsaslanan münasibətlərin inkişafında maraqlı olduğunu və Azərbaycan Şərq Tərəfdaşlığını qarşılıqlı hörmət, bərabərhüquqlu tərəfdaşlıq, ortaq maraqlar və faydalara əsaslanan ikitərəfli Aİ-Azərbaycan münasibətlərinin inkişafı üçün mühüm tamamlayıcı mexanizm kimi görməkdə davam etdiyini qeyd edib. O, Azərbaycan ilə Avropa İttifaqı arasında enerji və nəqliyyat əlaqələrinin yaradılması, ticarət əməkdaşlığının inkişaf etdirilməsi imkanlarına toxunub.

Nazir Aİ-nin Azərbaycan üçün ən böyük ticarət və investisiya tərəfdaşı olduğunu və 2022-ci il iyulun 18-də Azərbaycan və Avropa İttifaqı arasında imzalanmış anlaşma memorandumunun özündə enerji təhlükəsizliyinin bir sıra komponentlərini, o cümlədən "yaşıl enerji"nin Avropaya potensial ixracı baxımından əhəmiyyətli olacağını vurğulayıb. Həmçinin Aİ ilə Azərbaycan arasında yeni ikitərəfli saziş üzrə danışıqların uğurla davam etdiyi bildirilib.

Ceyhun Bayramov Azərbaycanın işğaldan azad edilmiş ərazilərində inkişaf etməkdə olan nəqliyyat qovşağının, o cümlədən Zəngəzur dəhlizinin regional sülh və davamlılıq üçün müsbət rol oynayacağını və regiondaxili ticarətə təkan verəcəyini vurğulayıb.

Görüş zamanı nazir Ceyhun Bayramov Ermənistan ilə Azərbaycan arasında münasibətlərin normallaşdırılması və sərhədlərin delimitasiyası, regional təhlükəsizlik və qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında geniş məlumat verib. Nazir Azərbaycan tərəfindən sülhün təmin olunması sahəsində səylərə baxmayaraq, Ermənistanın hələ də üçtərəfli Bəyanatdan irəli gələn öhdəlikləri yerinə yetirmədiyini diqqətə çatdırıb.

Nazir həmçinin azad olunmuş ərazilərdə mina təhlükəsinə diqqəti cəlb edib və Ermənistan tərəfindən mina xəritələrinin təqdim edilməsinin vacibliyini səsləndirib. Ermənistanın Azərbaycan ərazilərində kütləvi şəkildə yeni minalar yerləşdirməkdə davam etdiyi vurğulanıb.

Bu ilin avqust ayından etibarən Azərbaycanın suveren ərazilərində 2021-ci ildə Ermənistanda istehsal olubmuş 2728 piyada əleyhinə mina aşkar edildiyi, indiyə qədər 268 nəfərin mina qurbanı olduğu bildirilib. Minaların Azərbaycan ərazisinə gətirilməsinin yalnız humanitar məqsədlər üçün nəzərdə tutulan Laçın dəhlizindən sui-istifadə edilməsi olduğu diqqətə çatdırılıb. Problemin miqyasını və ciddiliyini nəzərə alaraq, onunla mübarizədə beynəlxalq həmrəylik və dəstəyin mühüm əhəmiyyət daşıdığı nazir tərəfindən qeyd olunub.

Azərbaycanın münaqişədən sonrakı genişmiqyaslı bərpa, yenidənqurma və reinteqrasiya işləri ilə yanaşı, Ermənistanla dövlətlərarası münasibətlərin normallaşdırılması prosesində də təşəbbüs göstərdiyini bildirən nazir Azərbaycanın Ermənistana dövlət sərhədləri daxilində bir-birinin suverenliyi və ərazi bütövlüyünə qarşılıqlı tanınma və hörmət əsasında sülh təklif etdiyini vurğulayıb.

Daha sonra digər Şərq Tərəfdaşlığı ölkələrinin xarici işlər nazirləri, eləcə də Avropa İttifaqı ölkələrinin xarici işlər nazirləri çıxış edərək tərəfdaşlığın perspektivləri barədə danışıblar.

❖ ❖ ❖

Dekabrın 12-də Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov Belçikaya işgüzar səfəri çərçivəsində Malta Respublikasının xarici işlər naziri Yan Borq ilə görüşüb.

Xarici İşlər Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, görüşdə iki ölkə arasında ikitərəfli və çoxtərəfli əməkdaşlıq gündəliyi, o cümlədən regional və beynəlxalq vəziyyət ətrafında fikir mübadiləsi aparılıb.

Nazir Ceyhun Bayramov Azərbaycan və Malta arasında müxtəlif sahələr, o cümlədən siyasi, iqtisadi, enerji, investisiya və s. sahələr üzrə ikitərəfli münasibətlərin inkişafını məmnunluqla qeyd edib. İki ölkə arasında münasibətlərin daha da inkişafı üçün mövcud potensialdan istifadə olunmasının vacib olduğu bildirilib. Nazir Ceyhun Bayramov həmçinin postmünaqişə dövründə regionda mövcud vəziyyət, işğaldan azad olunmuş ərazilərdə aparılan genişmiqyaslı bərpa və quruculuq işləri, Azərbaycanın regionda sülh gündəliyinin irəli aparılması istiqamətində atdığı addımlar, postmünaqişə dövründə Ermənistan tərəfindən həyata keçirilən təxribatlar, o cümlədən mina təhlükəsi barədə qarşı tərəfi ətraflı məlumatlandırıb.

Nazir Yan Borq Azərbaycan və Malta arasında ikitərəfli münasibətlərlə yanaşı, BMT və digər çoxtərəfli platformalar çərçivəsində səmərəli əməkdaşlıq gündəliyinin mövcud olduğunu qeyd edib. İki ölkə arasında siyasi dialoqun inkişafında keçirilən görüşlərin əhəmiyyəti vurğulanıb. Nazir Yan Borq dünyada baş verən hadisələr fonunda enerji təhlükəsizliyinin artan əhəmiyyətindən bəhs edərək bu xüsusda Azərbaycanın Avropanın enerji təhlükəsizliyinə əhəmiyyətli töhfəsini vurğulayıb.

Görüşdə həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Rusiya sülhməramlıları fəaliyyətində Azərbaycanın suverenliyinə və ərazi bütövlüyünə ciddi riayət etməlidirlər

Azərbaycan tərəfi Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi Azərbaycan ərazilərində təbii sərvətlərin qeyri-qanuni istismarının qarşısının alınması, eləcə də ekologiyaya mənfi təsirin nəticələrinin aradan qaldırılması məqsədilə sülhməramlı kontingentin komandanlığına dəfələrlə müraciət edib.

Bir çox hallarda Azərbaycan tərəfinin bu müraciətlərinə cavab verilməyib və sülhməramlı kontingent tərəfindən Azərbaycanın təbii sərvətlərinin qanunsuz istismarının qarşısının alınması üçün heç bir tədbir görülməyib. Azərbaycan tərəfindən əldə edilmiş məlumata əsasən, xüsusilə Qızılbulaq qızıl və Dəmirli mis-molibden yataqlarında təbii sərvətlərin qeyri-qanuni istismarı və talanmasında aktivləşmə, o cümlədən ekoloji fəsadların genişlənməsi müşahidə olunur.

Bu barədə AZƏRTAC-a Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin rəisi Ayxan Hacızadə məlumat verib.

Bildirilib ki, dekabrın 3-dən etibarən Azərbaycan mütəxəssislərinin əraziyə səfərinin və monitorinqinin üsullarını müəyyənləşdirmək məqsədilə Azərbaycan Respublikasının aidiyyəti dövlət qurumlarının nümayəndələri və Rusiya sülhməramlı kontingenti arasında danışıqlar aparılıb.

Əldə olunmuş razılığa uyğun olaraq, dekabrın 10-da faydalı qazıntıların qanunsuz istismar olunduğu bu iki əraziyə Azərbaycan nümayəndələrinin səfər etmək cəhdinə baxmayaraq, bu səfərə maneə törədilib. Rusiya sülhməramlı kontingentinin heç bir tədbir görməməsi fonunda yerli sakinlərin əvvəlcədən planlaşdırılmış aksiyası səfərə mane olub.

Bu vəziyyətlə əlaqədar Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi Rusiya tərəfinə müvafiq nota təqdim edib. Əldə olunmuş razılığa uyğun olaraq, Azərbaycan nümayəndələrinin qeyd edilən yataqlara maneəsiz girişinin təmin edilməsinə bir daha çağırış edilib. Bu səfərə maneə törədilməsinin və ya hər hansı bir şərt irəli sürülməsinin qəbuledilməz olduğu vurğulanıb. Azərbaycan ərazilərinin bir hissəsində 2020-ci il 10 noyabr tarixli üçtərəfli Bəyanata uyğun olaraq yerləşmiş Rusiya sülhməramlı kontingentinin bütün fəaliyyətində Azərbaycan Respublikasının suverenliyinə və ərazi bütövlüyünə ciddi riayət edilməsinin zəruriliyi diqqətə çatdırılıb.



# Strateji tərəfdaşlığın zirvəsi

## Azərbaycan və Türkmənistan qlobal miqyaslı layihələri ilə Avropanın qaz təchizatına və Türk Dövlətləri Təşkilatının daha da güclənməsinə töhfə verirlər

*Əvvəli 1-ci səh.*

Türk dövlətlərinin birliyini hər zaman təqdir edən və bu prosesə öz dəstəyini, töhfəsini verən Prezident İlham Əliyev vurğulayıb ki, türk dünyası təkcə müstəqil türk dövlətlərindən ibarət deyil, onun coğrafi sərhədləri daha genişdir: "Türk dünyası 200 milyondan çox insanın yaşadığı geniş bir coğrafiyanı əhatə edir və böyük iqtisadi potensiala, enerji resurslarına, nəqliyyat yollarına və müasir hərbi imkanlara malikdir. Türk dünyası böyük bir ailədir. Bir-birimizin milli maraqlarını nəzərə alaraq bundan sonra da qarşılıqlı dəstək və həmrəylik göstərməliyik. Siyasi, iqtisadi, ticari, mədəni, nəqliyyat, energetika, rəqəmsal transformasiya, kənd təsərrüfatı, turizm sahələri ilə yanaşı, təhlükəsizlik, müdafiə, müdafiə sənayesi kimi sahələrdə də əməkdaşlığımızı fəallaşdırmalıyıq".

Səmərqənddə keçirilən Türk Dövlətləri Təşkilatının IX Zirvə Görüşündə Prezident İlham Əliyevin səsləndirdiyi bu fikirlələr bir daha təsdiq etdi ki, Azərbaycan Türk Dövlətləri Təşkilatı çərçivəsində, həm də ikitərəfli əsasda quruma üzv dövlətlərlə sıx əməkdaşlıqdadır. Azərbaycanın bu əsasda əməkdaşlıq etdiyi türk dövlətlərindən biri də Türkmənistandır.

### Kökü, dili, dini və mədəniyyəti eyni olan xalqlar

Dünyanın siyasi arenasında yerini və çəkisini möhkəmləndirən Azərbaycan əksər dövlətlərlə münasibətlərini inkişaf etdirməkdədir. Tam müstəqil xarici siyasət həyata keçirən İlham Əliyevin uğurlu diplomatiyası ilə Azərbaycan əksər dövlətlərin Cənubi Qafqaz regionundakı ən etibarlı tərəfdaşı hesab olunur.

İki dövlət arasında qədim tarixə malik olan münasibətlər var. Belə ki, azərbaycanlılar və türkmənlər eyni kökə, mədəniyyətə, qədim tarixi münasibətlərə və ənənələrə malikdirlər. Bundan başqa, bu xalqları dil və din eyniliyi də birləşdirir. Orta Asiya xalqları içərisində milli mənsubiyyəti baxımından azərbaycan xalqına ən yaxın olan xalqlardan biri də məhz türkmənlər hesab olunur. Hər iki xalq türklərin oğuz boyundandır.

Öz ruhunun, tarixi inkişafının ümumiliyi, etnik və dil yaxınlığı olan dövlətlərin - Azərbaycanla Türkmənistan arasında diplomatik münasibətlərin qurulması, şübhəsiz, qardaş xalqlar arasında çoxəsrlik qarşılıqlı münasibətlərin mühüm dövrünü təcəssüm etdirir.

### 26 illik uğurlu diplomatik münasibət, 80 mühüm saziş

Azərbaycan və Türkmənistan arasında diplomatik münasibətlər 1992-ci ildə qurulub. 1999-cu il iyunun 8-də Türkmənistanın Azərbaycanda səfirliyi fəaliyyətə başlayıb. 2001-ci il iyunun 4-də Türkmənistan tərəfi maliyyə problemlərini əsas gətirərək Azərbaycandakı səfirliyinin fəaliyyətinə müvəqqəti xitam verib. 2008-ci ildə səfirlik yenidən öz fəaliyyətini bərpa edib. Son 10 il ərzində isə müxtəlif sahələri əhatə edən əməkdaşlıq hər iki ölkənin maraqlarına xidmət edib.

Hər iki ölkənin dövlət başçıları - İlham Əliyev və Qurbanqulu Berdiməhəmmədovun qarşılıqlı inam və etimada əsaslanan münasibətləri sayəsində Azərbaycan-Türkmənistan arasında iqtisadi, ticarət, nəqliyyat, humanitar və digər sahələrdəki əlaqələr keyfiyyətcə yeni səviyyəyə yüksəlib.

Elə Türkmənistan tərəfinin dəvəti ilə bu ölkəyə səfər edən İlham Əliyev də münasibətlərin yeni sürətli yüksəliş mərhələsini yaşadığını söyləyib.

Hər iki ölkənin dövlət başçıları mütəmadi olaraq qarşılıqlı səfərlər zamanı, eləcə də MDB Dövlət Başçıları Şurasının iclaslarında, həmçinin Türk Dövlətləri Təşkilatının Zirvə toplantılarında görüşlər keçirirlər.

Son səfər isə bu ilin iyun ayında gerçəkləşib. Aşqabadda Xəzəryanı Dövlətlərin Dövlət Başçılarının VI Zirvə Toplantısında iştirak edən İlham Əliyev toplantı çərçivəsində türkmənistanlı həmkarı Sərdar Berdiməhəmmədovla görüşüb.

İlk sammitin 2002-ci ildə Aşqabadda keçirildiyini xatırladan Türkmənistan Prezidenti həmin tədbirdə uzunmüddətli perspektiv üçün əməkdaşlığın əsasının qoyulduğunu vurğulayıb. Sərdar Berdiməhəmmədov 2018-ci ildə Xəzərin hüquqi statusu haqqında Konvensiyanın imzalanmasına toxunaraq Xəzər dənizində nəqliyyat, gəmiçilik, sülhün, ekoloji təhlükəsizliyin qorunması, balıqçılıq, fövqəladə hallar barədə xəbərdarlıq və onların qarşısının alınması sahələrində əməkdaşlıq barədə bir çox müqavilə üzrə işin aparıldığını deyib. Xəzər dənizinin ümumi sərvət olduğunu deyən Türkmənistanın dövlət başçısı regionda səmərəli qarşılıqlı fəaliyyətin inkişafına verdiyi şəxsi töhfəsinə görə İlham Əliyevə minnətdarlığını bildirib.

Türkmənistanın Xəzər dənizində və Xəzəryanı dövlətlər arasında əməkdaşlığa töhfəsini yüksək qiymətləndirən Azərbaycan Prezidenti isə zirvə toplantısının təhlükəsizlik, ekologiya, su ehtiyatları istiqamətləri üzrə əməkdaşlığın möhkəmlənməsi işində daha bir addım olacağına əminliyini bildirib. Xəzərin əsrlərboyu qonşu kimi yaşamış xalqlarımızı birləşdirən dəniz olduğunu deyən Prezident İlham Əliyev regionda gələcək təhlükəsiz inkişafın təmin ediləcəyinə əminliyini bildirib, bu işdə Xəzəryanı dövlətlərin böyük rolunu vurğulayıb.

Qeyd edək ki, iki ölkə arasında əlaqələri daha da möhkəmləndirən "Azərbaycan Respublikası ilə Türkmənistan arasında Strateji tərəfdaşlıq haqqında Bəyannamə"dir. İki qardaş ölkə arasında birgə layihələrin təşkilində növbəti yeni mərhələ olan Türkmənistan Hökuməti ilə Azərbaycan Hökuməti arasında Xəzər dənizində "Dostluq" yatağının karbohidrogen resurslarının birgə kəşfiyyatı, işlənilməsi və mənimsənilməsi haqqında qarşılıqlı anlaşma memorandumunun imzalanması da mühüm sənədlərdən biridir. Onu da vurğulamaq yerinə düşər ki, indiyədək iki ölkə arasında 80 sənəd imzalanıb.

Yeni sazişlərə əsasən hökumətlər arasında 2019-2021-ci illər üzrə iqtisadi-ticari, nəqliyyat tranzit və logistika, dəniz portu, elm, təhsil, mədəniyyət və incəsənət, eləcə də uzunmüddətli iqtisadi-ticari sahələr üzrə əməkdaşlıq daha da genişləndirilib.

Əminliklə söyləyə bilərik ki, liderlərin hər görüşü, imzalanan yeni sazişlər Azərbaycan-Türkmənistan əməkdaşlığının daha da genişlənməsinə mühüm töhfə verir. Çünki ölkələrimizin energetika, nəqliyyat və digər sahələrdə reallaşdırdığı iri layihələr nəinki region, həm də dünya üçün xüsusi önəm daşıyır. Azərbaycan və Türkmənistan çoxtərəfli formatda da səmərəli əməkdaşlıq edirlər. Beynəlxalq təşkilatlar çərçivəsində irəli sürülən təşəbbüslərin qarşılıqlı şəkildə dəstəklənməsi bunun sübutudur.

Azərbaycan və Türkmənistan arasında quru, dəniz və dəmir yolu nəqliyyat daşımaları sahəsində əlaqələrin inkişaf etdirilməsi regionda və bütöv Avrasiya boyunca "Şərq-Qərb" Beynəlxalq Nəqliyyat Dəhlizinin hərtərəfli inkişafına xidmət edir.

***Rəşad BAXŞƏLİYEV, "Azərbaycan"***

# Azərbaycanın özü qədər əbədi

# Ümummilli Liderə ümumxalq sevgisi

**Müasir Azərbaycanın qurucusu Ulu Öndər Heydər Əliyev Azərbaycanın dövlətçilik tarixində müstəsna xidməti olan tarixi şəxsiyyətdir. Onun müdrik siyasəti, mətin iradəsi, dönməz əqidəsi və tarixi uzaqgörənliyi sayəsində milli dövlətçilik ideyasının gerçəkləşdirilməsinə, müasir Azərbaycan dövlətinin qurulmasına və qorunub saxlanmasına, xalqımızın illərlə arzusunda olduğu müstəqilliyə nail olmuşuq.**







Təməli Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan və Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilən siyasətin məntiqi nəticəsi olaraq bu gün Azərbaycan özünün iqtisadi potensialından məharətlə istifadə edərək Şərqlə Qərb arasında etibarlı körpü rolunu oynamağa başlamış və dünyanın ən dinamik inkişaf edən ölkələrindən birinə çevrilmişdir. Azərbaycanda müasir demokratik, hüquqi və dünyəvi dövlət quruculuğu, vətəndaş cəmiyyətinin təşəkkülü, milli-mənəvi dəyərlərə qayıdış və elmin, təhsilin, mədəniyyətin inkişafı Heydər Əliyevin adı ilə bağlıdır. Cismani yoxluğundan bizi 19 illik bir məsafə ayırsa da, xalqın qəlbində əbədi məskən salmış Ulu Öndərə olan sevgi və minnətdarlıq hissi ölkəmiz inkişaf edib qüdrətləndikcə daha da artaraq öz dəqiq qiymətini alır. Xalqın sevgisini qazanmaq hər kəsə nəsib olan xoşbəxtlik deyil. Heydər Əliyev o tarixi şəxsiyyətlərdəndir ki, ona olan ümumxalq məhəbbəti durmadan artır.

Havanın soyuq və yağmurlu olmasına baxmayaraq, dekabrın 12-də səhər tezdən əllərində tər çiçək tutmuş insanlar dəstə-dəstə öz liderinə olan ehtiramını, sevgisini və minnətdarlıq hissini bildirmək, Ulu Öndərin məzarını ziyarət etmək üçün Fəxri xiyabanın qarşısında növbəyə durmuşdular. Ziyarətçilər arasında respublikanın ən ucqar kəndindən gəlmiş ağsaqqal, ağbirçək də var idi, canını vətənə qurban vermiş qazi də, şəhid valdeyni də... Bir sözlə, yurdunu, torpağını sevən hər bir kəs vətənin böyük oğlunun ziyarətinə tələsirdi. Ziyarətçilərə yaxınlaşıb onlarla söhbət edirik.

Georgi Proxorov bizimlə söhbətində dedi:

- Bu soyuq, yağmurlu havada, böyük siyasətçi, xalqlarımız arasında daim dostluq körpüsü yaradan müdrük dövlət xadimi Heydər Əliyevin məzarını ziyarət etməyi özümə borc bildim. Onun ruhu qarşısında ehtiramla baş əyirəm. Heydər Əliyev Tanrının Azərbaycan xalqına lütfüdür. Belə insanlar min ildə bir dəfə dünyaya gəlirlər. Azərbaycanlılar bununla fəxr etməlidirlər ki, Tanrı bu xalqa dünyada öz sözü, siyasi fəaliyyəti, işıqlı zəkası ilə seçilən və onlara doğru yol göstərən tarixi bir şəxsiyyət bəxş edib. İftixarla deyə bilərik ki, bugünkü qüdrətli Azərbaycan Heydər Əliyevin əsəridir. Bu əsərin yeni, uğurlu səhifələrini Ulu Öndərin siyasətinin layiqli davamçısı İlham Əliyev böyük ustalıqla yazır. Mən qüdrətli Azərbaycanın vətəndaşı olduğum üçün qürur duyuram. Hesab edirəm ki, bugünkü gözəl gün üçün hamımız Ulu Öndərə borcluyuq.

Xaləddin Qafarov, Ucar sakini: "Mən Ulu Öndərin məzarını ziyarət etmək üçün Ucardan gəlmişəm. Hər zaman ölkəmlə, onun qüdrəti ilə fəxr etmişəm. Bu gün Azərbaycan regionda yalnız iqtisadi gücü, təbii sərvətləri ilə zəngin olan ölkə kimi seçilmir. Azərbaycan həm də dünya siyasi həyatına Heydər Əliyev kimi tarixi şəxsiyyət verdiyi üçün tanınır. Ulu Öndərin Azərbaycan xalqı qarşısında tarixi xidmətləri haqqında cild-cild kitablar yazılsa yenə də azdır. Amma mən hesab edirəm ki, Ümummilli Liderin xalqımız, dövlətimiz qarşısında xidmətindən danışarkən bir məsələyə daha çox diqqət yetirməliyik. Bu gün Azərbaycanı zəfərdən-zəfərə aparan Prezident İlham Əliyev Heydər Əliyevin dövlətimizə və xalqımıza bəxş etdiyi çox dəyərli liderdir. Tarixi irsə sədaqət, inkişafa hədəflənmiş siyasət, düşmən üzərində çalınan ədalətli qələbə, Azərbaycanın dünyada söz və nüfuz sahibi olması bu ölkənin vətəndaşı kimi bizi çox sevindirir. Yaxşı başa düşürük ki, bu siyasətin uğurlu, möhkəm təməli Heydər Əliyev tərəfindən qoyulub və İlham Əliyev tərəfindən davam etdirilir".

Vahid Novruzov, Respublika Ağsaqqallar Şurasının sədr müavini:

- Heydər Əliyev xalqımızın tarixi adət-ənənələrinin, milli-mənəvi dəyərlərinin qorunub saxlanılmasında, eləcə də gələcək nəsillərə ötürülməsində müstəsna xidməti olan tarixi şəxsiyyətdir. Bu gün ölkəmizin adı öz hərbi qüdrəti, iqtisadi gücü, siyasi nüfuzu ilə dünyanın nəhəng dövlətləri ilə qoşa çəkilir. İllərlə torpaqlarımızı işğal edib, bir milyona yaxın vətəndaşımıza əzablar yaşadan mənfur bir dövlətə qalib gəlmişik. Bütün bu uğurların təməlini Ulu Öndər qoyub, cənab İlham Əliyev də bu siyasəti uğurla davam etdirir.

Bir fikir verin, Heydər Əliyev bu dünyadan köçəndə oğluna nə vəsiyyət edib. Şuşanın azad olunmasını, Vətənin xilasını, üstümüzdə olan ləkənin təmizlənməsini, utancın götürülməsini... Bu, onun müdrükliyini, vətənə bağlılığını, hər zaman dövlətin və xalqın taleyini hər şeydən uca tutmasını göstərir. Gördüyünüz kimi, insan seli səhər tezdən onun uyuduğu Fəxri xiyabana axışır. Heydər Əliyev ömrü, əsrlər keçsə də, örnək götürülməli, qürur duyulmalı bir ömürdür. Bu, əbədiyaşarlıq qazanmış, xalqının qəlbində məskən salmış bir ömürdür. Onun məzarı daim qədirbilən xalqımızın müqəddəs ziyarətgahı olacaq.

Sevinc Əliyeva, professor:

- Heydər Əliyev xalqımızın dilinin, milli-mənəvi dəyərlərinin qoruyucusu, onun inkişafı yolunda misilsiz xidmətləri olan tarixi şəxsiyyətdir. Heydər Əliyev elə bir zirvədir ki, ona qiymət vermək bizim gücümüzdən kənardır. Biz yalnız müstəqilliyimizin, dövlətimizin, vətənimizin, milli-mənəvi dəyərlərimizin xilaskarı olan, ömrünü bütövlükdə vətəninin tərəqqisinə xidmətdə keçirmiş bu dahi şəxsiyyətə vətəndaş olaraq üzərimizə düşən vəzifəni layiqincə icra etməklə borcumuzu vermək haqqında düşünməli və çalışmalıyıq.

Mən Azərbaycan dövləti ilə qürur duyuram. Bu gün cənab İlham Əliyev Heydər Əliyevin uğrunda canını fəda etdiyi dövrünün qüdrətli Azərbaycanını qurub. Hesab edirəm ki, vətənimizin bu gününü, dövlətimizin iqtisadi, hərbi, siyasi gücünü görsəydi, Ulu Öndər yenə də qürurla "Mən fəxr edirəm ki, Azərbaycanlıyam", - deyərdi. Bizə bu hissləri yaşatdıqları üçün, dövləti qüdrətləndirib, xalqımızı dünyada qəhrəman xalq kimi tanıdıb, layiqincə təqdim edə bildiyi üçün mən Heydər Əliyevin davamçısı Prezident İlham Əliyevə bir ömür minnətdaram.

Əlsahib Hüseynov, Milli Həmrəylik Partiyasının sədri:

- Ulu Öndər Heydər Əliyev ölkəmizdə milli barışı təmin edən, həmrəyliyə nail olan tarixi şəxsiyyətdir. Tarixə nəzər salsaq görərik ki, Ulu Öndərin Azərbaycana rəhbərliyi respublikamızın ən çətin vaxtlarına düşüb. Bu, təsadüfi deyil. Bu, Tanrının onun üzərinə qoyduğu tarixi missiyadır. Heydər Əliyev də həmişə tarixi sınaqlardan üzüağ çıxıb. 1993-cü ilə nəzər salsaq görərik ki, ölkə siyasi-hərbi təlatümlər içində idi. Xarici missionerlərlə daxili düşmənlər birləşib ölkəni, müstəqilliyimizi, dövlətimizi fəlakətə sürükləyirdilər. Belə bir məqamda rəhbərliyə gələn Heydər Əliyev sabitliyə nail oldu, ölkəmizi inkişaf yoluna çıxara bildi. Heydər Əliyev siyasi sükanı etibarlı ələ - İlham Əliyevə etibar etməklə uzaqgörənliyini, müdrikliyini bir daha təsdiq etdi. Biz bugünkü uğurlarımıza görə Ulu Öndərə olan borcumuzu heç vaxt unutmamalıyıq. Azərbaycanı nura, işığa qərq edən liderin məzarı nurlu olsun!

Əhmədova Sevda, Bakı sakini:

- Heydər Əliyev görkəmli dövlət xadimi, xalqımızı bəlalardan qurtaran, müasir Azərbaycan dövlətini quran Ümummilli Lider kimi qəlbimizdə yeri olan böyük şəxsiyyətdir. Mən mütəmadi olaraq bu tarixi şəxsiyyətin məzarını ziyarət edir, ruhuna dualar oxuyuram. Heydər Əliyev əbədiyaşarlıq qazanmış, xalqın ürəyinə köçmüş dahi bir insandır. Ona olan mənəvi borcumuzu yalnız məzarını ziyarət etməklə deyil, vətənimizi sevməklə, dövlətimizin daha da qüdrətlənməsi, qarşıya qoyduğu ideyaları gerçəkləşdirmək uğrunda bütün gücümüzlə çalışıb cavab verməliyik. Bu, bizim vətəndaş olaraq mənəvi borcumuzdur.

Bir xalqın taleyinə xoş günlər, fərəhli tarix yazmaq, bir dövlətin dünəni, bugünü, gələcəyi olmaq yalnız tarixi şəxsiyyətlərə Tanrının bəxş etdiyi xoşbəxtlikdir. Heydər Əliyev bu xoşbəxtliyi öz təkrarolunmaz fəaliyyəti ilə qazanmış böyük şəxsiyyətdir.

Gün bitsə də, hava qaralsa da, onun məzarını ziyarətə gələnlər bitib tükənmirdi...

***Elşən QƏNİYEV,***
***İlham BABAYEV (foto),***
***"Azərbaycan"***

# Ulu Öndər Heydər Əliyevin məzarını ziyarət ediblər

Dekabrın 12-də Yeni Azərbaycan Partiyasının (YAP) nümayəndələri müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin vəfatının 19-cu ildönümü ilə əlaqədar Fəxri xiyabanda Ulu Öndərin xatirəsini yad edib, məzarı önünə əklil və gül dəstələri qoyublar.

Görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi anılıb, məzarı üzərinə tər güllər düzülüb. Azərbaycanın müstəqil dövlət kimi inkişafı və tarixi uğurlar qazanması Ümummilli Lider Heydər Əliyevin titanik fəaliyyəti, məqsədyönlü siyasəti və əbədiyaşar ideyaları ilə bağlıdır. Xalqımız qarşısında misilsiz xidmətlər göstərən Ulu Öndər ölkəmizin müstəqillik yolunda inkişafına nail olaraq yeni Azərbaycan reallığını yaratmışdır. Bu gün qüdrətli və qalib Azərbaycan Prezident, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin rəhbərliyi ilə Heydər Əliyevin zəngin siyasi irsi əsasında tərəqqi və Zəfər yolunda inamla irəliləyir, yeni-yeni nailiyyətlərə imza atır.

❖ ❖ ❖

Dekabrın 12-də Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin anım günü ilə əlaqədar Müdafiə Nazirliyinin rəhbər heyəti Fəxri xiyabanı ziyarət edib. Ziyarət zamanı Ulu Öndərin məzarı önünə əklil və gül dəstələri qoyulub, xatirəsi hörmət və ehtiramla anılıb. Sonra Müdafiə Nazirliyinin rəhbərliyi görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da məzarı üzərinə gül dəstələri qoyub.

❖ ❖ ❖

Müasir Azərbaycanın banisi və qurucusu, Azərbaycan təhlükəsizlik orqanlarının fəxri rəhbəri, Ümummilli Lider Heydər Əliyevin vəfatının 19-cu ildönümü ilə əlaqədar Dövlət Təhlükəsizliyi Xidmətinin (DTX) rəisi general-polkovnik Əli Nağıyev və xidmətin şəxsi heyəti Fəxri xiyabana gələrək dahi şəxsiyyətin məzarını ziyarət etmiş, əziz xatirəsini dərin ehtiramla anaraq məzarı önünə əklil qoyublar. Görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi yad edilmiş, məzarı üzərinə gül dəstələri düzülmüşdür.

***AZƏRTAC***

# Moskvada Ümummilli Lider Heydər Əliyevin xatirəsi anılıb

Azərbaycanın Rusiyadakı səfirliyində Ümummilli Lider Heydər Əliyevin xatirəsinə həsr olunmuş tədbir keçirilib.

AZƏRTAC xəbər verir ki, tədbirdə Rusiya Prezidentinin beynəlxalq mədəni əməkdaşlıq üzrə xüsusi nümayəndəsi Mixail Şvıdkoy, Dövlət Dumasının Beynəlxalq əlaqələr komitəsinin rəhbəri, Liberal-Demokratik Partiyasının sədri Leonid Slutski, TASS İnformasiya Agentliyinin baş direktorunun birinci müavini Mixail Qusman, Rusiya XİN-in rəsmiləri, Moskvadakı diplomatik korpusun, Rusiya ictimaiyyətinin nümayəndələri, Heydər Əliyev Fondunun Rusiya nümayəndəliyinin əməkdaşları, Rusiya Azərbaycanlı Gənclər Birliyinin fəalları, diaspor təşkilatlarının üzvləri və Moskvada Heydər Əliyevlə birgə işləmiş sabiq silahdaşları iştirak ediblər.

Foyedə Ulu Öndərin həyatından bəhs edən fotosərgi təşkil olunub, kitablar nümayiş etdirilib.

Tədbiri açan səfir Polad Bülbüloğlu qeyd edib ki, Heydər Əliyev hələ sovet dövründə respublikaya rəhbərliyi zamanı öz prinsipiallığı, səriştəsi və dərin biliyi sayəsində qısa müddət ərzində Azərbaycanı Sovet İttifaqının ən qabaqcıl respublikaları sıralarına çıxarmışdır. Səfir Heydər Əliyevin zəngin həyat yolu, Ümummilli Liderin SSRİ Nazirlər Soveti sədrinin birinci müavini kimi 30-dan çox nazirliyə rəhbərlik etməsi, ölkə üçün gördüyü böyük işlər barədə tədbir iştirakçılarına ətraflı məlumat verərək vurğulayıb ki, Baykal-Amur magistral xəttinin tikintisi məhz Heydər Əliyev tərəfindən nəzarətə götürüldükdən sonra geniş vüsət almışdı.

Heydər Əliyev çoxlu sayda insan ölümü ilə nəticələnmiş "Admiral Naximov" gəmisindəki qəzanın səbəblərini araşdıran komissiyanın rəhbəri kimi faciə yaşamış hər bir ailənin üzvünü şəxsən qəbul etmiş, onların problemlərinin həllinə xüsusi diqqət yetirmişdi.

Polad Bülbüloğlu qonaqların diqqətinə çatdırıb ki, Ümummilli Lider 1993-cü ildə xalqın dəvəti ilə Naxçıvandan Bakıya qayıdıb, tamamilə dağılmaq təhlükəsi ilə üz-üzə olan müstəqil Azərbaycana rəhbərlik etməyə başlayıb. Bu çətin vəziyyətdə o, böyük nüfuzu, bacarığı və təcrübəsi sayəsində çox qısa müddətdə respublikada stabilliyi bərpa edə bilib, ölkəmiz beynəlxalq aləmdə öz layiqli yerini tutub.

"Heydər Əliyev memarlıq təhsili alsa da, memar olmamışdı. O, sözün daha geniş mənasında, doğma Azərbaycanın memarı oldu. Bugünkü Azərbaycan Ümummilli Liderin əsəridir. Həm də o mənada ki, bu gün respublikaya uğurla rəhbərlik edən belə bir oğul böyüdüb", - deyə diplomat bildirib. Səfir vurğulayıb ki, Prezident İlham Əliyev torpaqlarımızı işğaldan azad edərək Qarabağı, Vətənimizin mirvarisi olan Şuşa şəhərini Azərbaycana qaytarıb, Heydər Əliyevin və bütün dünya azərbaycanlılarının arzusunu reallaşdırıb, bununla da adını ölkə tarixinə qızıl hərflərlə həkk edib.

Polad Bülbüloğlu Zərifə xanım Əliyeva ilə bağlı xoş xatirələrini də bölüşüb.

Səfir deyib: "Bu gün Ümummilli Liderin ruhu şaddır. Belə ki, Azərbaycan 44 günlük Vətən müharibəsində inamlı Qələbə qazandı. Bu Qələbə öz ölkəsinin azadlığı uğrunda canından keçmiş Azərbaycan övladlarının xidmətidir. Allah onlara rəhmət eləsin!"

Polad Bülbüloğlu Heydər Əliyevin mədəniyyət sahəsinə qayğısından danışıb, Ulu Öndərin xatirəsinin kitablarda, rəsmlərdə, filmlərdə, onu tanıyan hər bir insanın qəlbində əbədi yaşayacağını vurğulayıb.

Tədbir çərçivəsində Azərbaycanın Xalq yazıçısı Elmira Axundovanın "Zərifə və Heydər Əliyevlər. Əbədi sevgi" kitabının təqdimatı keçirilib. Heydər Əliyev Fondunun Rusiya nümayəndəliyinin humanitar proqramlar şöbəsinin müdiri, fəlsəfə elmləri doktoru Tamilla Əhmədova çıxışında sözügedən kitabdan sitatlar gətirərək, qonaqlara nəşrin müəllifi və onun ərsəyə gəlmə tarixçəsi barədə ətraflı məlumat verib.

Tədbirdə Ümummilli Lider Heydər Əliyevə həsr olunmuş sənədli film nümayiş etdirilib.

Daha sonra qonaqlar ehsan süfrəsinə dəvət olunublar.

# *Mixail ŞVIDKOY:* "Heydər Əliyev Azərbaycan xalqı qarşısında öz missiyasını yaxşı bilirdi"

Heydər Əlirza oğlu Əliyevin anım günündə müasir Azərbaycanın bütün tarixi gözlərimiz önündə canlanır. Başa düşürük ki, o, Naxçıvandan Bakıya qayıdarkən öz üzərinə nə qədər ağır bir yük götürüb.



AZƏRTAC xəbər verir ki, bu sözləri Rusiya Prezidentinin beynəlxalq mədəni əməkdaşlıq üzrə xüsusi nümayəndəsi Mixail Şvıdkoy söyləyib.

O deyib: "O vaxt, SSRİ dağılandan sonra Azərbaycan daxili münaqişələr girdabına düşmüşdü. Azərbaycan dövlətçiliyi üçün təhlükə yaranmışdı. Həmin dövrdə vəziyyətin nə dərəcədə dramatik, nə dərəcədə mürəkkəb olmasını indi biz tam təsəvvür edə bilmirik. Xalq Cəbhəsi aləmi qarışdırmışdı, ölkə parçalanmaq həddində idi, hərbçilər qiyam edirdilər. Bu gün bütün bunlar az qala mifoloji təsir bağışlayır, əslində isə bunlar acı reallıq idi. Ölkə parçalanmaq təhlükəsi qarşısında idi. Bu vəziyyəti nizamlamaq üçün müdriklik, uzaqgörənlik və təcrübə ilə yanaşı, qeyri-adi inanılmaz energetikaya, daxili inama malik olmaq lazım idi. Bu onun öz həyatı üçün risk idi. Onun həyatı üçün hər gün, hər an real təhlükə vardı. Öz missiyasını anlamaq, çox güclü enerjiyə malik olmaq lazım idi. Sözün bu mənasında Heydər Əliyev öz missiyasını, Azərbaycan xalqı və Azərbaycan dövlətçiliyi qarşısında borcunu yaxşı başa düşürdü".

M.Şvıdkoy vurğulayıb ki, Heydər Əliyevin xatirəsinə nəinki postsovet məkanında, bütün dünyada dərin hörmət bəsləyirlər. O deyib: "Heydər Əliyev dünyasını dəyişəndən sonra görülmüş işlərə, İlham Heydər oğlunun fəaliyyətinə, onun beynəlxalq həyatda Azərbaycanın rolunu başa düşməsinə böyük hörmət bəsləyirəm. Lakin Heydər Əliyevin gördüyü işlər demək olar ki, mifoloji xarakterli hadisədir. Biz onun xatirəsini ehtiramla yad edirik, çünki Heydər Əliyevə hörmət bəsləyirik. Onun xatirəsinə nəinki postsovet məkanında, bütün dünyada dərin hörmət bəsləyirlər. Onun xatirəsi daim qəlbimizdə yaşayacaq".

Heydər Əliyevin parlaq zəkalı insan olduğunu xatırladan Mixail Şvıdkoy deyib: "Heydər Əliyevdə fitri qəhrəmanlıq var idi. Bu, yalnız öz tarixi missiyasını hiss edən şəxsiyyətlərə xas olan cəhətdir. Vladimir Vladimiroviç Putin Rusiyanın Prezidenti olanda o, Heydər Əliyevlə görüşdü. Onların arasında çox vacib, qiymətli dostluq münasibəti yarandı və xoşbəxtlikdən, bu ünsiyyət İlham Heydər oğlu ilə münasibətlərə də sirayət etdi. Bu, Rusiya üçün çox vacibdir. Mən Heydər Əlirza oğlu Əliyevin xatirəsi qarşısında baş əyirəm".

# Ulu Öndər dövlət-din münasibətlərinə yüksək dəyər verib

Azərbaycan İlahiyyat İnstitutunda (Aİİ) Ulu Öndər Heydər Əliyevin anım günü ilə əlaqədar tədbir keçirilib. Öncə Aİİ kollektivi Fəxri xiyabanda Ümummilli Lider Heydər Əliyevin məzarını ziyarət edib.



Daha sonra tədbirdə Ulu Öndər Heydər Əliyevin və ölkəmizin ərazi bütövlüyü uğrunda gedən döyüşlərdə şəhid olanların xatirəsi birdəqiqəlik ehtiram sükutu ilə yad edilib.

Aİİ rektoru Aqil Şirinov tədbir iştirakçılarını salamladıqdan sonra Heydər Əliyevin Azərbaycan tarixində əvəzsiz rolundan bəhs edib. Ulu Öndərin xidmətlərinin nəticəsi olaraq sütunları möhkəm bir dövlət miras qoyub getdiyini və Prezident İlham Əliyevin uğurlu siyasətinin nəticəsi olaraq dövlətimizin daha da inkişaf etdiyini vurğulayıb.

Din sahəsində Ulu Öndərin xüsusi xidmətlərini diqqətə çatdıran rektor dövlət-din münasibətlərinin yüksək səviyyədə olmasının məhz Ümummilli Liderin xidmətləri sayəsində baş verdiyini vurğulayıb.

Aİİ rektoru tələbələrə tövsiyələrini söyləyərkən bildirib ki, gənclər radikal qüvvələrə qarşı elmlə, biliklə mübarizə aparmalı, milli-mənəvi dəyərlərimizin keşiyində durmalıdırlar.

Daha sonra Aİİ İslamşünaslıq kafedrasının dosenti Rəşad Mustafa "Azərbaycan tarixində şəxsiyyət faktoru" mövzusunda çıxış edib. Məruzəçi Ulu Öndər Heydər Əliyevin şəxsiyyətinə Azərbaycan dövlətçilik tarixi fonunda nəzər salıb. Heydər Əliyevin və onun uğurlu davamçısı Prezident İlham Əliyevin zəngin dövlətçilik təcrübəsi, möhkəm iradəsi, məqsədyönlü və uzaqgörən siyasəti nəticəsində respublikamızın hərtərəfli və dinamik inkişaf yoluna qədəm qoyduğunu vurğulayıb.

***"Azərbaycan"***

## Azərbaycanın özü qədər əbədi

# Heydər Əliyev və təhsil siyasəti

**Ulu Öndər Heydər Əliyevin Azərbaycan tarixində və dövlətçiliyin inkişafında misilsiz xidmətləri olmuşdur. Ümummilli Liderin çoxşaxəli fəaliyyətində təhsil xüsusi yer almışdır. Ulu Öndərin təhsil siyasəti dərin milli mənafelər üzərindən quruluraq ölkəmizin davamlı və dayanıqlı inkişafına xidmət etmişdir.**

Yüksək inkişaf etmiş ali təhsil sistemi cəmiyyətin, dövlətçiliyin, iqtisadiyyatın və sosial-rifahın inkişafını təmin edir, ölkənin siyasi, hüquqi, beynəlxalq və hərbi qüdrətini gücləndirir. Heydər Əliyevin istər Sovet İttifaqı dövründə, istərsə də müstəqilliyin bərpasından sonrakı dönəmdə ölkəmizə rəhbərlik etdiyi zamanlarda həyata keçirdiyi təhsil siyasəti mühüm fundamental və tarixi əhəmiyyətli məqsədləri hədəfləmişdir. Ulu Öndərin təhsil strategiyasının kökündə Azərbaycan iqtisadiyyatının, sənayesinin, savadlı əhalinin inkişafına yönəlmiş strateji addımlar, ən əsası isə milli-mənəvi dəyərlərin qorunması, yaşadılması, xalqın tarixi, mədəniyyəti, ədəbiyyatı, dili, folkloru və bütövlükdə milli yaddaşının mühafizəsi və ölkənin qüdrətli gələcəyinə xidmət etməsi dururdu.

Hələ XX əsrin 70-80-ci illərində Azərbaycanda təhsilin inkişafına ayrılan diqqət, ana dilinin inkişafına yönəlmiş siyasət, sənayenin müxtəlif sahələri üzrə gənc kadrların SSRİ-nin müxtəlif ali təhsil müəssisələrində oxumağa göndərilməsi, ali məktəblərin sayının artırılması kimi uğurlu işlərin nəticələri müstəqilliyin bərpasından sonrakı dövrdə özünün əhəmiyyətini xüsusi olaraq göstərdi. 1978-ci ildə Azərbaycanın Konstitusiya layihəsinin hazırlanması zamanı Heydər Əliyevin Azərbaycan dilini ana dili kimi bu layihəyə əlavə etməsi həm milli identikliyin qorunması baxımından mühüm addım, həm də 1970-ci illərdə yüksəliş dövrünü yaşayan Sovet İttifaqında milli-mənəvi dəyərlərin qorunması istiqamətində atıla biləcək cəsarətli addım kimi əhəmiyyətli idi. Heydər Əliyev çox gözəl bilirdi ki, millətin dilinin qorunması onun milli kimliyinin (mənliyinin) mühafizəsi demək idi. 2003-cü ildə "Azərbaycan Respublikasında dövlət dili haqqında" qanunun tətbiq edilməsi barədə" Sərəncamı bu istiqamətdə illərlə aparılan siyasətin məntiqi davamı idi. Ulu Öndər tərəfindən Azərbaycan dilinin qorunması, tədrisi, tədqiqi və inkişafı baxımından görülən tədbirlər milli-mənəvi yaddaşımızın mühüm hadisələri sırasındadır. Heydər Əliyevin Azərbaycan dilinə, onun qorunmasına və inkişafına olan həssaslığı böyük rəhbərin özü tərəfindən aydın şəkildə ifadə edilmişdir: "Millətin milliliyini saxlayan onun dilidir. Şübhəsiz ki, musiqi də, ədəbiyyat da, ayrı-ayrı tarixi abidələr də millətin milliliyini təsdiq edir. Amma millətin milliliyini ən birinci təsdiq edən onun dilidir. Əgər Azərbaycan dili olmasa Azərbaycan dilində mahnılar olmaz, musiqi olmaz. Bunların hamısı biri-birinə bağlıdır. Azərbaycan dilinin dövlət dili kimi yaşaması, möhkəmlənməsi, inkişaf etməsi də bizim ən böyük nailiyyətlərimizdən biridir. Bu, təkcə dil məsələsi deyil, həm də azərbaycançılıq məsələsidir". Bir millətin yaşamasında, milli kimliyinin və dövlətçiliyinin qorunmasında ana dilinin əhəmiyyəti haqqında deyilən fikirlərdən gözəl tərif ola bilməz.

Azərbaycan dilinin qorunması həm də təhsilin inkişafı məsələsi idi. Bu istiqamətdə Ulu Öndərin atdığı addımlar sırasında ölkəmizdə yüksəkixtisaslı kadrların hazırlanması, təhsilin əlçatanlığı və coğrafiyasının genişlənməsi əsas prioritetlərdən olmuşdur. Hələ 1970-ci illərdə ümumi təhsil sahəsində işin təşkilinin təkmilləşdirilməsi məqsədi ilə "Gənclərin ümumi orta təhsilə keçidini başa çatdırmaq və ümumtəhsil məktəbini daha da inkişaf etdirmək haqqında", "Kənd ümumtəhsil məktəblərinin iş şəraitini daha da yaxşılaşdırmaq haqqında" qərarlar qəbul edilmişdir. Heydər Əliyevin inkişaf strategiyasının davamlılıq və dayanıqlılıq prinsipinə uyğun olaraq qısa bir zamanda ölkə üzrə ümumtəhsil məktəblərinin sayında inanılmaz artım baş vermiş, 1979-cu ildə ümumtəhsil məktəblərinin sayı 2100-ü, 1982-ci ildə isə 4200-ü, eləcə də bu müddət ərzində şagirdlərin sayı 700 min nəfəri keçmişdir. Təhsil müəssisələrinin sayının artırılması ölkənin bütün ərazisində, ucqar kənd yerlərində təhsilə çıxış imkanlarını asanlaşdırmış, keyfiyyətli təhsil və öyrənmə imkanlarını artırmışdır.

Ulu Öndərin hakimiyyəti illərində ali təhsilin inkişafı hər zaman diqqətdə saxlanılmış, kadrların xüsusi çəkisində əhəmiyyətli artım müşahidə olunmuşdur. Heydər Əliyevin Azərbaycana rəhbərliyi dövrlərində ali məktəblərin sayı da çoxalmış, yeni ali təhsil müəssisələri yaradılmışdır. Artıq 1982-ci ildə ali təhsil müəssisələrində təhsil alan insanların sayı 100 min nəfərə çatmışdır. Azərbaycanda təhsil alanlarla yanaşı, SSRİ-nin digər ali təhsil müəssisələrində də soydaşlarımızın oxuması məqsədi ilə yüzlərlə həmyerlimiz keçmiş ittifaqın ən aparıcı universitetlərinə göndərilmişdir. Qeyd olunmalıdır ki, hazırkı Bakı Slavyan Universitetinin də inkişafı Ulu Öndər Heydər Əliyevin adı ilə sıx bağlı olmuş, onun diqqət və qayğısını daim hiss etmişdir. Məhz Ulu Öndərin təşəbbüsü ilə 1972-ci ildə M.F.Axundov adına Azərbaycan Pedaqoji Dillər İnstitutunun bazasında Pedaqoji Rus Dili və Ədəbiyyatı İnstitutu yaradılmışdır. İnstitutun işinin yeni formatda təşkili onun elmi-pedaqoji potensialının sürətli inkişafına, regionda öz sahəsi üzrə mükəmməllik mərkəzinə çevrilməsinə xidmət etmişdir. Ulu Öndərin 13 iyun 2000-ci ildə imzaladığı və ölkənin təhsil sisteminin təkmilləşdirilməsinə xidmət edən Sərəncamı ilə M.F.Axundov adına Azərbaycan Pedaqoji Rus Dili və Ədəbiyyatı İnstitutunun bazasında Bakı Slavyan Universitetinin yaradılması isə ölkəmizin yeni inkişaf dönəmində atılmış mühüm addımlardan idi. Məhz Ulu Öndərin müəyyən etdiyi inkişaf istiqamətlərinə uyğun olaraq Bakı Slavyan Universiteti slavyan dilləri, ədəbiyyatı, mədəniyyəti üzrə tədrisin və tədqiqatın təşkili sahəsində regionda yeni aparıcı bir təhsil məkanının yaranması ilə nəticələndi.

Təəssüf ki, ölkəmizin tarixinin müəyyən dövrlərində baş vermiş hadisələr milli dövlətçiliyimiz, ərazi bütövlüyümüz, müstəqilliyimiz və gələcəyimiz üçün ciddi təhdidlər yaratmışdır. Belə ki, 1988-ci ildən etibarən Ermənistan tərəfindən ölkəmizə qarşı başlanmış təcavüz Azərbaycan torpaqlarının işğalı ilə nəticələndi. Baş verən proseslər iqtisadiyyatın digər sahələrində olduğu kimi, təhsil ekosisteminə, xüsusilə onun infrastrukturuna, o cümlədən coğrafiyasının daralmasına və mahiyyətinin dəyişməsinə təsir etdi. 30 ilə yaxın işğal müddətində digər infrastruktur və tarixi, mədəni, mənəvi abidələr kimi təhsil müəssisələri də məhv edilmişdir. 1991-1992-ci illərdə ölkədə baş almış hərc-mərcilik, siyasi hakimiyyətin milli maraqları təmin edə bilməməsinin nəticəsi olaraq iqtisadi inkişafa nəinki nail olunmuş, əksinə, əvvəlki dövrlərdə mövcud iqtisadi potensial da tükənmiş və tənəzzülə uğramışdır. Bu hadisələrə paralel olaraq ölkə ərazilərinin işğalı sosial böhran şəraiti yaratmış, yüz minlərlə məktəblinin ölkənin müxtəlif təhsil ocaqlarına cəlb olunması kimi aktual məsələlər yaratmışdır.

Azərbaycan üçün belə məsuliyyətli dövrdə onu bu xaosdan və böhrandan çıxara biləcək yeganə tarixi şəxsiyyət olan Heydər Əliyevin 1993-cü ildən etibarən həyata keçirdiyi uzaqgörən iqtisadi və sosial strategiyası qaçqın və məcburi köçkün gənclərin yeni təhsil mühitinə inteqrasiyasını təmin etmiş, işğal edilmiş rayonlardan məcburən köçmüş pedaqoji heyətin işlə təmin olunması ilə nəticələnmişdir. Təhsil siyasətinin qarşısında duran bu mühüm çağırış Heydər Əliyevin rəhbərliyi altında uğurla həll edilmiş, təhsilin təşkili həyata keçirilmişdir. Bu dövrdə məcburi köçkün həyatı yaşamış on minlərlə şagird olaraq hər birimiz Ulu Öndərin rəhbərliyi altında inkişaf edən təhsil sistemindən bəhrələnmiş və ali təhsil almışıq.

Beləliklə, Ulu Öndərin 1993-cü ildə xalqın təkidli tələbi ilə Azərbaycanda hakimiyyətə qayıtmasından sonrakı dövrdə bu sahənin inkişafında yeni bir mərhələ başladı. Müstəqil dövlətin iqtisadi inkişafının təmin olunması, daxili və xarici siyasətdə uğurlu nəticələrin əldə olunması üçün təhsilin inkişafına xüsusi önəm verildi, kadr hazırlığı məsələləri diqqət mərkəzində saxlanıldı.

Prezident İlham Əliyevin uğurlu təhsil siyasətinin mühüm şərtlərindən biri bu siyasətin əsasında Ulu Öndər Heydər Əliyevin təhsil strategiyasının dayanmasıdır. Məhz 2003-cü ildən etibarən Azərbaycan gənclərinin təhsil imkanlarının artırılması, bütün pillə və səviyyələr üzrə təhsilə əlçatanlığın təmin olunması, onun coğrafiyasının genişləndirilməsi bu siyasətin əsasında duran mühüm hədəflərdəndir. Prezident İlham Əliyevin siyasəti təhsilə əlçatanlığı təmin etmək məqsədi ilə müxtəlif dövlət proqramlarını həyata keçirməyi özündə ehtiva edir, müəyyən layihələr vasitəsi ilə gənclərin istər yerli, istərsə də xarici ali məktəblərdə təhsil imkanlarını genişləndirir. Prezident İlham Əliyevin rəhbərliyi altında azərbaycanlı



mütəxəssislərin beynəlxalq rəqabətə davamlılığı istiqamətində mühüm addımlar atılmış, ali təhsil müəssisələrinin inkişafı, onların beynəlmiləşməsi və keyfiyyətin artırılması istiqamətində mühüm işlər görülməkdədir. Bu sahədə ölkəmizin Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın fəaliyyəti xüsusi əhəmiyyət kəsb edir. Heydər Əliyev Fondunun həyata keçirdiyi layihələr istər ümumi təhsil, istərsə də daha yuxarı təhsil pillələri və səviyyələri üzrə həm təhsilin, həm də bütövlükdə gəncliyin inkişafına yönəlmişdir.

Əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulmuş uzaqgörən inkişaf strategiyasının Prezident İlham Əliyev tərəfindən uğurla inkişaf etdirilməsi ölkəmizin tarixinin yeni dönəmində qarşıda mühüm prioritetlər formalaşdırır. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında Azərbaycanın ərazi bütövlüyünün təmin olunması xüsusilə uğurlu iqtisadi, siyasi, hərbi-müdafiə quruculuğu, eləcə də təhsil və gənclər siyasətinin nəticəsində mümkün olmuşdur. Bu gün Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında aparılan quruculuq işləri gələcək inkişafımızın istiqamətlərini və prioritetlərini qarşımızda aydın şəkildə müəyyən edir, ali təhsil müəssisəsi olaraq kadr hazırlığı prosesində qarşımızda duran vəzifələri uğurla yerinə yetirmək üçün məsuliyyətləri müəyyən edir.

Əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulmuş Azərbaycan təhsilinin uğurlu inkişafı müasir qlobal çağırışlar, dinamik elmi və elmi-texnoloji inkişaf fonunda Prezident İlham Əliyevin rəhbərliyi altında bundan sonra da dövlətimizin, iqtisadiyyatımızın və cəmiyyətimizin uğurlu gələcəyi naminə sürətlə davam edəcək.

***Anar NAĞIYEV,***
***Bakı Slavyan Universitetinin rektoru***

# Müasir Azərbaycanın qurucusu

## Ulu Öndər Heydər Əliyevin siyasi kursu ölkəmizi tarixinin ən qüdrətli dövrünə çatdırıb

**Zaman ötdükcə Ulu Öndər Heydər Əliyevin yaratdığı irsin, onun ideyalarının dəyərini, bəhrəsini daha yaxından görürük.**

1969-cu ilin yayından Azərbaycana rəhbərlik etməyə başlayan Heydər Əliyev hakimiyyətə gəlişinin ilk günlərindən respublikanın və xalqın inkişafı naminə bütün sahələrdə neqativ hallara son qoyulması, ölkənin iqtisadi potensialının hərəkətə gətirilməsi, səriştəli kadrların irəli çəkilməsi kimi vəzifələri müəyyən edərək Azərbaycanda böyük iqtisadi inkişafa yol açdı. Ulu Öndərin yenilikçi təşəbbüsləri ilə həyata keçirilən genişmiqyaslı islahatlar yeni iqtisadi potensialın formalaşdırılmasına, o cümlədən sosial-mədəni həyatın canlanmasına, milli-mənəvi dəyərlərin dirçəldilməsinə təkan verdi.

Bu mənada 1969-1982-ci illərdə həyatın bütün sahələrində baş vermiş köklü dəyişikliklər Azərbaycanın inkişaf və quruculuq salnaməsinin ən şərəfli səhifələrini təşkil etməklə ölkəmizin gələcək dövlət müstəqilliyinə zəmin formalaşdırdı.

Lakin xalqımız öz tarixi müstəqilliyini bərpa etdikdən sonra ölkədə hakimiyyətə gələn iqtidar nümayəndələri bu potensialdan səmərəli istifadə etmək əvəzinə Azərbaycanı parçalanmaq təhlükəsi qarşısında qoydular. Onların bir-birilə apardıqları hakimiyyət uğrunda mübarizə hətta ərazi bütövlüyü uğrunda ölüm-dirim savaşını da arxa plana keçirdi. Bunun nəticəsində Ermənistan öz işğalçılıq planlarını gücləndirdi, ərazilərimiz işğala məruz qaldı.

1991-ci ildə yenidən müstəqillik əldə etdikdən sonra müxtəlif sosial-iqtisadi, siyasi problemlərlə üzləşən, vətəndaş müharibəsinin astanasında olan Azərbaycan hətta öz müstəqilliyini itirmək təhlükəsi ilə qarşılaşmışdı, ölkədə ictimai-siyasi gərginlik daha da dərinləşərək anarxiya həddinə çatmışdı. Bu vəziyyət 1993-cü ilə qədər davam etdi. Həmin böhranlı günlərdə xalqımız düzgün qərar qəbul edərək yaranmış vəziyyətdən çıxış yolu tapmaq üçün zəngin dövləti idarəetmə təcrübəsinə malik olan Heydər Əliyevə müraciət etdi. 1993-cü ilin iyununda Ulu Öndər Heydər Əliyevin xalqın təkidli tələbi ilə ikinci dəfə hakimiyyətə gəlişindən sonra ölkəmizdə xaotik proseslərin qarşısı alındı - ictimai-siyasi sabitlik təmin edildi. Ötən günlərə nəzər salanda bu reallıqla razılaşmalı olursan ki, Azərbaycan xalqının və dövlətinin tarixin səhnəsində özünəməxsus yer tutmasını, milli müstəqilliyinin qorunub saxlanılmasını təmin edən dünyaşöhrətli siyasətçi Ulu Öndər Heydər Əliyev olmuşdur.

### Azərbaycan o dövrdə ən geridə qalmış sıradan ən qabaqcıl yerlərə çıxmışdır

Ölkəmizdə ictimai-siyasi sabitliyin qorunmasının, mövcud iqtisadi inkişafın, hərtərəfli tərəqqinin təməlində Ümummilli Lider Heydər Əliyevin inkişaf strategiyası, onun müəyyənləşdirdiyi uğurlu daxili və xarici siyasət dayanır. Xatırladaq ki, Ulu Öndər Heydər Əliyevin həm SSRİ dönəmində, həm də müstəqillik illərində ölkəmizə rəhbərliyi dövründə xalqın rifah halının daha da yaxşılaşdırılması, respublikamızın tərəqqisinin təmin olunması və digər istiqamətlərdə tarixi əhəmiyyətə malik olan misilsiz işlər görülüb. Odur ki, Heydər Əliyevə Azərbaycan xalqının rəğbəti, dəstəyi həmişə çox böyük olub. Bunun əsas səbəblərindən biri də odur ki, Ulu Öndər Azərbaycana sovet dövründə rəhbərlik edən zaman respublikamızın uğurlu inkişafına nail olub. O vaxt Azərbaycan sovet məkanında 15 respublikadan fərqlənirdi. Heydər Əliyevin uzaqgörən siyasəti nəticəsində Azərbaycan o dövrdə ən geridə qalmış yerdən 1980-ci illərin əvvəllərində ən qabaqcıl yerlərə çıxmışdır və insanların rifahı nəzərəçarpacaq dərəcədə yaxşılaşmışdı.

### Ulu Öndər Heydər Əliyev müasir Azərbaycanın xilaskarı və qurucusudur

Hamıya yaxşı məlumdur ki, müstəqilliyin ilk illərində respublikamızda xaos, anarxiya yaranmış və daxili çəkişmələr özünün pik nöqtəsinə çatmışdı. Azərbaycan vətəndaş müharibəsi və parçalanmaq təhlükəsinin astanasında olarkən xalqımız 1993-cü ildə Azərbaycan dövlətini xilas etmək üçün Ümummilli Lider Heydər Əliyevə üz tutdu. O zaman ölkəyə "rəhbərlik" edən qüvvələr də Azərbaycanı məruz qoyduqları təhlükədən xilas etmək üçün Ulu Öndər Heydər Əliyevin Bakıya gəlməsini yeganə çıxış yolu kimi dəyərləndirdilər. Beləliklə, iyunun 9-da Ulu Öndər Heydər Əliyevin Naxçıvandan Bakıya gəlişi Azərbaycanın taleyi ilə bağlı narahatlıqlara son qoydu.

Ümummilli Liderin Bakıya gəlməsi xəbəri xalq tərəfindən sevinclə qarşılandı. 1993-cü il iyunun 15-də Ümummilli Lider Heydər Əliyev Azərbaycan Respublikası Ali Sovetinin Sədri seçildi. Tariximizə Milli Qurtuluş Günü kimi daxil olan 1993-cü il iyunun 15-də Ümummilli Lider Heydər Əliyevin Azərbaycan Respublikası Ali Sovetinin Sədri seçilməsi ölkəmizin siyasi tarixində keyfiyyətcə yeni bir mərhələnin başlanğıcı oldu. Azərbaycanın mürəkkəb kataklizmlərlə müşayiət edilən daxili siyasi böhrandan qurtulması məhz bundan sonra mümkün oldu. Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlı olan Milli Qurtuluş Günü Azərbaycan tarixinin şanlı qürur səhifəsinə çevrildi. Xatırladaq ki, müasir tariximizdə bu, dönüş nöqtəsi idi. Ondan sonra vəziyyət sabitləşməyə doğru getməyə başladı, vətəndaş müharibəsinə son qoyuldu, qanunsuz silahlı birləşmələr tərk-silah edildi, nizami ordu quruculuğu istiqamətində önəmli addımlar atıldı. Azərbaycan beynəlxalq təcriddən çıxa bildi. Çünki o vaxta qədər dünyadakı erməni lobbisi belə bir təsəvvür yaratmışdı ki, guya, Azərbaycan təcavüzkar dövlətdir. Halbuki bizim torpaqlarımız işğal altına düşmüşdü.

1993-cü il oktyabrın 3-də ölkəmizdə keçirilən prezident seçkilərində Ümummilli Lider Heydər Əliyev xalqımızın böyük əksəriyyətinin etimadını qazanaraq 98,84 faiz səslə Azərbaycan Respublikasının Prezidenti seçildi. Bundan sonra Ulu Öndər Heydər Əliyevin gərgin fəaliyyəti sayəsində ölkəmizdə ictimai-siyasi sabitlik təmin edildi və sosial-iqtisadi vəziyyət yaxşılaşdı. 1994-cü il mayın 12-də cəbhədə atəşkəsin əldə edilməsindən sonra isə dövlətçiliyin möhkəmləndirilməsi, nizami ordu quruculuğu, eləcə də ölkə həyatının bütün sahələrində dinamik inkişafın təmin edilməsi baxımından zəruri addımlar atıldı. Reallaşdırılan ardıcıl və sistemli tədbirlərin nəticəsi kimi, ölkədə əmin-amanlıq yarandı, sabitlik bərqərar oldu, azad bazar iqtisadiyyatına keçidlə bağlı özəlləşdirməyə geniş meydan verildi, islahatlara başlandı. 1994-cü il sentyabrın 20-də Azərbaycanın ən yeni tarixində dönüş nöqtəsi olan neft müqaviləsi imzalandı. "Əsrin müqaviləsi" adlandırılan bu saziş ölkəmizin gələcək inkişafına və təhlükəsizliyinə etibarlı zəmin yaratmaqla yanaşı, Azərbaycanın dünya xəritəsindəki mövqeyini möhkəmləndirdi.

Ulu Öndərin xalqımız və dövlətimiz qarşısındakı misilsiz xidmətlərindən biri də uğurlu dövlət quruculuğu prosesinin əsasının qoyulmasıdır. Bu, Azərbaycanın müstəqil dövlət kimi inkişafı baxımından çox mühüm əhəmiyyətə malikdir. Hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğu prosesinin, davamlı siyasi-hüquqi islahatların həyata keçirilməsi, eyni zamanda milli həmrəylik və bütövlüyü təmin edən ideologiyanın yaradılması zərurətə çevrildi. Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə ölkənin siyasi-hüquqi sistemində əsaslı dəyişikliklər oldu. Müstəqil Azərbaycan Respublikasının Konstitusiyası qəbul edildi, kütləvi informasiya vasitələri üzərində senzura aradan qaldırıldı, insan və vətəndaş hüquq və azadlıqları yüksək səviyyədə təmin edildi.

Məhkəmə islahatlarının həyata keçirilməsi, Konstitusiya Məhkəməsinin və digər mühüm təsisatların yaradılması ölkədə demokratikləşmə prosesinin irəliyə aparılmasında mühüm rol oynadı. Azərbaycanda hüquqi, demokratik və dünyəvi dövlət quruldu, vətəndaş cəmiyyətinin bərqərar edilməsi istiqamətində ciddi addımlar atıldı. Bu kontekstdə ombudsman təsisatının yaradılması, ölüm hökmünün ləğv edilməsi kimi islahat xarakterli addımlar da xüsusi önəm kəsb etdi.

Milli ideologiyanın yaradılması da Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə həyata keçirilən dövlət quruculuğu siyasətinin mühüm tərkib hissəsi idi. Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin müəllifi olduğu azərbaycançılıq ideologiyası təkcə bu dövlətin ərazisində yaşayan soydaşlarımızı yox, eyni zamanda bütün dünyada məskunlaşan azərbaycanlıları əhatə edən, dünya azərbaycanlılarını vahid mərkəzdə birləşdirən milli məfkurəyə çevrildi. Şübhəsiz, Ümummilli Lider Heydər Əliyevin müəllifi olduğu dövlət quruculuğu siyasətinin fonunda görülən işlərin və əldə edilən nailiyyətlərin sayını istənilən qədər artırmaq olar. Amma təkcə sadalananlar da onu deməyə əsas verir ki, Ulu Öndər Heydər Əliyev Azərbaycanı, sözün əsl mənasında, inkişaf etdirmiş, müstəqilliyimizi daimi və dönməz etmişdir.

### Müasir Azərbaycan Ulu Öndər Heydər Əliyevin ideyaları əsasında inkişaf edir

100 illik yubileyini böyük təntənə ilə qeyd etməyə hazırlaşdığımız Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu siyasət Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Son 19 ildə Azərbaycanda Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən uğurlu siyasət nəticəsində bütün sahələrdə möhtəşəm nailiyyətlər əldə edilib. Təsadüfi deyil ki, ölkəmizin iqtisadi nailiyyətləri beynəlxalq miqyasda da təqdir olunur - yüksək qiymətləndirilir. Nüfuzlu beynəlxalq reytinq agentliklərinin hesabatlarında yer alan məqamlar ölkəmizdə həyata keçirilən sosial-iqtisadi siyasətin müsbət nəticələrini əks etdirir.

Çoxvektorlu, tarazlaşdırılmış və milli maraqlara əsaslanan müstəqil xarici siyasət kursunun qanunauyğun nəticəsi kimi, Azərbaycanın beynəlxalq mövqeyi mütəmadi olaraq möhkəmlənib. Ən əsası isə iki il bundan öncə Azərbaycan öz tarixi dədə-baba torpaqlarını erməni işğalından azad edib. Təsadüfi deyil ki, Cənubi Qafqaz regionunun lider dövləti olan Azərbaycan müasir beynəlxalq münasibətlər sistemində etibarlı tərəfdaş kimi tanınır. Respublikamızın moderatorluğu və təşəbbüsü ilə strateji əhəmiyyətli layihələr reallaşdırılır, Azərbaycan Avrasiyanın enerji və nəqliyyat xəritəsini yaradır. Yəni ölkəmiz regional və beynəlxalq təhlükəsizliyə, əməkdaşlığa çox mühüm töhfələr verir. Azərbaycanı fərqləndirən ən mühüm və səciyyəvi keyfiyyətlərdən biri müstəqil siyasətin həyata keçirilməsidir. Azərbaycanın xarici siyasəti həm müstəqil xarakter daşıyır, həm də beynəlxalq hüquq normalarına və prinsiplərinə söykənir, ikitərəfli, çoxtərəfli münasibətlərin ruhuna - mahiyyətinə əsaslanır. Azərbaycanın dinamik inkişafı təmin edilmişdir.

Görünən budur ki, ölkəmiz dayanıqlı inkişafa, möhkəm ictimai-siyasi sabitliyə malikdir və Azərbaycan dünya dövlətləri düzənində güclü ölkə hesab edilir. Odur ki, xalqımız Heydər Əliyevi daim yüksək ehtiramla xatırlayır, Ulu Öndər qəlblərdə yaşayır və yaşayacaqdır.

***Rəhman SALMANLI,***
***"Azərbaycan"***

# Məramı sülh olmayanlara Azərbaycan öz yerini göstərdi

## İctimaiyyət nümayəndələrimiz Qarabağ iqtisadi rayonunda ədaləti və sülhü bərpa etmək üçün konstitusion hüquqlarından istifadə edirlər

*Əvvəli 1-ci səh.*

### Sülhə deyil, erməni təxribatlarına xidmət edənlər

Bu dövrdə qanunsuz erməni silahlı dəstələri nəinki Azərbaycan ərazilərindən çıxarılmayıb, üstəlik, Qarabağ iqtisadi rayonuna silah-sursat daşınması hələ də davam etməkdədir. Azərbaycanın beynəlxalq səviyyədə tanınmış əraziləri sülhməramlıların gözü önündə hərbiləşdirilir. Xatırladaq ki, bu yaxınlarda Azərbaycan Ordusunun mühəndis-istehkam bölmələri qeyri-qanuni erməni silahlı dəstələri tərəfindən Sarıbaba yüksəkliyinin şimal istiqamətində basdırılmış piyada əleyhinə mina sahəsini aşkar ediblər. 2021-ci ildə istehsal olunan minaların Azərbaycan ərazilərinə daşınması isə yalnız Laçın dəhlizi vasitəsilə həyata keçirilir. Bu da üçtərəfli Bəyanata əsasən, Laçın dəhlizinin istifadə qaydalarına ziddir.

Rusiya sülhməramlılarının müvəqqəti yerləşdiyi Azərbaycan ərazisindəki qeyri-qanuni erməni silahlı dəstəsi tərəfindən isə ordumuzun mövqeləri mütəmadi olaraq atəşə tutulur. Düzdür, Azərbaycan Ordusu onlara layiqli cavab verir. Elə avqustun əvvəllərində ermənilərin terror-təxribat əməllərinə qarşı keçirilən "Qisas" əməliyyatı da bunu təsdiqlədi. Amma belə hadisələrin baş verməsi göstərir ki, sülhməramlılar nəinki öz sülh missiyalarını həyata keçirir, hətta Ermənistan tərəfindən Azərbaycana qarşı təxribatçılıq fəaliyyətinin həyata keçirilməsinə dəstək göstərirlər.

Bir neçə gün öncə isə Qarabağ iqtisadi rayonuna rus sülhməramlılarının postlarından keçməklə İran vətəndaşlarından ibarət və diversant olduqları şübhə doğurmayan bir qrup şəxsin gəldiyi aydın olub. Bu bir daha sülhməramlıların məramı sülh olmayan fəaliyyətini ortaya qoyur.

Rusiya sülhməramlı kontingentinin rəsmi məlumatlarında Azərbaycan ərazilərinin adlarının uydurma erməni toponimləri ilə qeyd olunması da ölkəmizə qarşı təxribatların



tərkib hissəsidir. Azərbaycan tərəfi onları ölkəmizin ərazisindəki yaşayış məntəqələrinin adlarını düzgün toponimlərlə ifadə etməyə və qanunsuz erməni hərbi birləşmələrinin ərazilərin minalanması daxil olmaqla, bütün təxribatçı fəaliyyətlərinin ciddi surətdə qarşısının alınmasına çağırsa da, görünən odur ki, Rusiyanın sülhməramlı kontingenti hələ də erməni təxribatına açıq şəkildə dəstək verir.

### Qızıl və mis-molibden yataqlarında qeyri-qanuni istismar halları davam edir

Ermənistan və Qarabağ iqtisadi rayonundakı separatçı rejim elə sülhməramlıların gözü önündə Azərbaycanın təbii sərvətlərini talayır, ekologiyanı məhv edirlər. Azərbaycan Qarabağ iqtisadi rayonunda təbii sərvətlərin qeyri-qanuni istismarının qarşısının alınması, o cümlədən ekologiyamıza vurulan zərərin mənfi təsirlərinin nəticələrinin aradan qaldırılması məqsədilə sülhməramlı kontingentin komandanlığına dəfələrlə müraciət edib. Bir çox hallarda bu müraciətlərə cavab verilməyib və Azərbaycanın təbii sərvətlərinin qanunsuz istismarının qarşısının alınması üçün heç bir tədbir görülməyib. Əldə edilmiş məlumata əsasən, xüsusilə Qızılbulaq qızıl və Dəmirli mis-molibden yataqlarında separatçı rejim tərəfindən təbii sərvətlərin qeyri-qanuni istismarı və talanmasında aktivləşmə, o cümlədən ekoloji fəsadların genişlənməsi müşahidə olunur. 2020-ci ildə Azərbaycan ərazilərinin Ermənistanın işğalından azad edilməsindən sonra uzun illər qanunsuz istismar və talan olunan yataqların bir çoxunda ekoloji vəziyyət nəzarət altına alınsa da, sülhməramlı kontingentin müvəqqəti yerləşdirildiyi Azərbaycan ərazilərində olan Qızılbulaq qızıl və Dəmirli mis-molibden yataqlarında qeyri-qanuni istismar halları hələ də davam etməkdədir.

Bununla əlaqədar olaraq Azərbaycanın Rusiya sülhməramlılarının yerləşdiyi ərazilərdə faydalı qazıntı yataqlarının qanunsuz istismarı və onun törətdiyi fəsadlarla bağlı ilkin monitorinq isə təxribat nəticəsində baş tutmayıb. Xatırladaq ki, sülhməramlılarla aparılmış müzakirələrin nəticəsi olaraq İqtisadiyyat Nazirliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi, İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti və "AzerGold" Qapalı Səhmdar Cəmiyyətinin mütəxəssislərindən ibarət heyət Rusiya kontingentinin müvəqqəti yerləşdiyi Azərbaycan ərazilərində faydalı qazıntı yataqlarının qanunsuz istismarı, bundan irəli gələn ekoloji və digər fəsadlarla bağlı dekabrın 10-da ilkin monitorinq aparmalı idi. Müzakirələr nəticəsində monitorinqə şəraitin yaradılması ilə bağlı verdikləri sözlərə baxmayaraq, Rusiya sülhməramlı qüvvələri tərəfindən buna əməl edilmədi. Başqa cür desək, rusiyalılar təxribat törədən ermənilərə qarşı tədbirlər görmədilər və monitorinqin keçirilməsinə şərait yaratmadılar. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin rəisi Ayxan Hacızadənin məlumatına əsasən, əldə olunmuş razılığa uyğun olaraq dekabrın 10-da faydalı qazıntıların qanunsuz istismar olunduğu bu iki əraziyə Azərbaycan nümayəndələrinin səfər etmək cəhdinə baxmayaraq, bu səfərə maneə törədilib. "Rusiya sülhməramlı kontingentinin heç bir tədbir görməməsi fonunda, yerli sakinlərin əvvəlcədən planlaşdırılmış aksiyası səfərə mane olub. Bu vəziyyətlə əlaqədar Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi Rusiya tərəfinə müvafiq nota təqdim edib", - deyə Ayxan Hacızadə bildirib.

### Sülhməramlılar məqsədyönlü şəkildə vəziyyəti gərginləşdirirlər

Monitorinqə qarşı olan təxribatlara etiraz olaraq qeyri-hökumət təşkilatlarını təmsil edən bir qrup Azərbaycan ekoloqu Laçın-Şuşa yolunda etiraz aksiyasına başlayıblar. Onlar Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdirildiyi Azərbaycan ərazilərində təbii ehtiyatların qanunsuz istismarına etirazlarını bildirirlər. Ekoloji fəallar çadırlar qurublar və onları təbii ehtiyatların qanunsuz istismarının və talan edilməsinin geniş vüsət aldığı, o cümlədən ekoloji nəticələrin pisləşdiyi Qızılbulaq qızıl yatağına və Dəmirli mis-molibden yatağına buraxmayınca oradan getmək fikrində olmadıqlarını bəyan edirlər.

Bir daha xatırladaq ki, rusiyalı sülhəramlılar öz fəaliyyətlərini məramlarına uyğun formada həyata keçirməyə borcludurlar. Onların missiyası Azərbaycanın Qarabağ iqtisadi rayonunda, ölkəmizin beynəlxalq hüquqla tanınmış ərazilərində sülhün təmin olunmasına xidmət etməkdir. Lakin görünən odur ki, ruslar sülhə deyil, erməni təxribatlarına xidmət edir, bölgədə gərginliyin artmasına çalışırlar.

Yeri gəlmişkən, Laçın-Şuşa yolunda etiraz aksiyası keçirən ekoloqlarımız rusiyalı sülhməramlıların arasında sülhməramlı hərbi geyimində olan bir ermənini də aşkar ediblər…

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# Etirazçılar Xankəndi-Gorus yolunu bağlayıblar

## Şuşada keçirilən aksiyada ərazilərimizdəki yataqların qanunsuz istismarına son qoyulması tələb olunur

*Əvvəli 1-ci səh.*






Son zamanlar xüsusilə Qızılbulaq qızıl və Dəmirli mis-molibden yataqlarında təbii sərvətlərin qeyri-qanuni istismarı və talanmasında fəallaşma, o cümlədən ekoloji fəsadların genişlənməsi müşahidə olunurdu. Bununla bağlı dekabrın 3-dən etibarən Ekologiya və Təbii Sərvətlər Nazirliyi, İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti və "AzerGold" Qapalı Səhmdar Cəmiyyətinin əməkdaşları əraziyə keçid üçün Xankəndi ilə Şuşa şəhəri arasında yerləşən Rusiya sülhməramlı kontingenti ilə danışıqlar aparıblar. Həmin ərazilərdə faydalı qazıntıların qanunsuz istismarı və bundan əmələ gələn ekoloji fəsadların araşdırılması və ekspertlərdən ibarət qrupun monitorinqlər aparması sülhməramlı qüvvələrin komandanlığı ilə müzakirə olunub. Faydalı qazıntıların qanunsuz istismarının aparıldığı yataqlarda və müvafiq digər məntəqələrdə monitorinq, əmlakın inventarizasiyası və ekoloji araşdırma işlərinin aparılmasının vacibliyi vurğulanıb.

Xocalıda, sülhməramlı qüvvələrin qərargahında keçirilmiş müzakirələrin nəticəsi olaraq qeyd olunan fəaliyyət istiqamətləri üzrə ərazidə işlərin aparılması üçün Ekologiya və Təbii Sərvətlər Nazirliyi və digər aidiyyəti qurumların iştirakı ilə yol xəritəsinin hazırlanmasına başlanılıb.

Əldə olunmuş razılığa əsasən, dekabrın 10-da faydalı qazıntıların qanunsuz istismar olunduğu Qızılbulaq və Dəmirli yataqlarına Azərbaycan nümayəndələrinin səfər etmək cəhdinə baxmayaraq, erməni separatçıları tərəfindən bu səfərə maneçilik törədilib. Rusiya sülhməramlı kontingentinin heç bir tədbir görməməsi fonunda yerli sakinlərin əvvəlcədən planlaşdırılmış aksiyası səfərə mane olub.

Bununla bağlı Azərbaycan Xarici İşlər Nazirliyi Rusiya tərəfinə müvafiq nota təqdim edib. Əldə olunmuş razılığa uyğun olaraq, Azərbaycan nümayəndələrinin qeyd edilən yataqlara maneəsiz girişinin təmin edilməsinə bir daha çağırış edilib. Bu səfərə maneçilik törədilməsinin və ya hər hansı bir şərt irəli sürülməsinin qəbuledilməz olduğu vurğulanıb, Azərbaycan ərazilərinin bir hissəsində 10 noyabr 2020-ci il üçtərəfli Bəyanatına uyğun olaraq yerləşmiş Rusiya sülhməramlı kontingentinin bütün fəaliyyətində Azərbaycan Respublikasının suverenliyinə və ərazi bütövlüyünə ciddi riayət edilməsinin zəruriliyi diqqətə çatdırılıb.

Faydalı qazıntı yataqlarının qeyri-qanuni istismarı və daşınması qeyri-hökumət təşkilatı nümayəndələrinin, ictimai fəalların Şuşada etiraz aksiyasına səbəb olub. Dekabrın 12-si səhər saatlarından başlayan aksiyada iştirakçılar faydalı qazıntı yataqları, xüsusilə Qızılbulaq qızıl və Dəmirli mis-molibden yataqlarının qanunsuz istismarına etirazlarını bildiriblər. Azərbaycan mütəxəssislərindən ibarət heyətin həmin yataqlarda monitorinq aparılmasına Rusiya sülhməramlıları tərəfindən şərait yaradılmasını, eyni zamanda bununla bağlı lazımi tədbir görmədiyinə görə Rusiya sülhməramlılarının komandanı Andrey Volkovla görüş tələb ediblər.

### "Əgər yataqlarda monitorinqə şərait yaradılmasa, aksiya fasiləsiz davam etdiriləcək"

Dünən Ortaq Dəyərlər İctimai Birliyinin sədri, ictimai fəal Aqil Camal qəzetimizə açıqlamasında bildirib ki, bir neçə saatdır ictimaiyyət fəalları, QHT təmsilçiləri Xankəndi və İrəvan arasında yeganə kommunikasiya xətti olan Laçın yolu üzərində aksiya keçirirlər. Onun sözlərinə görə, aksiyanın keçirilməsində məqsəd Rusiya hərbçilərinin müvəqqəti nəzarətində olan Azərbaycan ərazilərində təbii sərvətlərimizin qanunsuz istismar olunmasının dayandırılması, eyni zamanda həmin mədənlərdə müvafiq dövlət qurumlarının monitorinq keçirməsinə şərait yaradılmasıdır. O bildirib ki, etirazçılar Rusiya hərbçilərinin komandanı Andrey Volkovun əraziyə gəlməsini tələb ediblər: "Əgər sülhməramlı kontingentin rəhbəri gəlib etirazçılarla görüşməsə və həmin yataqlarda monitorinqə şərait yaratmasa, yol açılmayacaq. Aksiya fasiləsiz olaraq davam etdiriləcək. Hazırda yolda çadırlar qurulub. Aksiya uzun müddət davam edə bilər".

Aqil Camal onu da əlavə edib ki, Rusiya sülhməramlı kontingentinin komandanı Volkovun müavini əraziyə gələrək etirazçıların tələbini komandanlığa çatdıracağını deyib.

### "Sülhməramlılar yalnız təhlükəsizliyi həyata keçirə bilərlər"

Aksiyada iştirak edən QHT rəhbəri Elşad Məmmədli deyib ki, məqsəd Rusiya sülhməramlılarının müvəqqəti nəzarətində olan ərazilərimizdə qanunsuz erməni birləşmələrinin və onların xaricdən gətirib işlətdiyi şirkətlərin birlikdə Azərbaycanın faydalı qızıl və filiz yataqlarını qanunsuz istismar etmələrinin qarşısının alınmasıdır.

Onun sözlərinə görə, aidiyyəti qurumlar həmin ərazilərdə qanunsuz qazıntı və ekologiyaya vurulan ziyanın öyrənilməsi məqsədilə monitorinqlərin aparılmasını həyata keçirmək istəsələr də, sülhməramlılar və onların məqsədli şəkildə bu prosesə cəlb etdiyi erməni silahlı birləşmələri iki həftədən çoxdur ki, buna mane olurlar: "Əngəllərin aradan qaldırılmasını, Azərbaycanın öz ərazilərində aparılan qanunsuz qazıntılar, ekologiyaya vurulan ziyanın dayandırılmasını, monitorinqlərin keçirilməsinə şərait yaradılmasını tələb edirik. Ümumiyyətlə, Azərbaycan öz ərazilərində konstitusion və digər beynəlxalq normalarla bütün nəzarəti həyata keçirməkdə haqlıdır. Sülhməramlılar orada yalnız təhlükəsizliyi həyata keçirə bilərlər. Amma onlar monitorinqlərin keçirilməsinə imkan vermirlər".

Elşad Məmmədli bildirib ki, vətəndaş cəmiyyəti fəalları media təmsilçiləri ilə birlikdə Xankəndi-Gorus yolunu bağlayıblar. Tələblər yerinə yetirilməyənə qədər aksiyanı davam etdirəcəklərini, yolu açmayacaqlarını qərara alıblar. Çadırlar qurulub, lazım gələrsə, günlərlə orada qalacaqlarını deyən aksiya iştirakçısı vurğulayıb ki, Andrey Volkovun əraziyə gəlməsini, qanuni və hüquqi tələblərinin yerinə yetirilməsini gözləyirlər.

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

# Sülhü əngəlləyən "sülhməramlılar"

İşğaldan azad olunmuş ərazilərimizdəki Rusiya sülhməramlıları əsas missiyasını unudur, tərəflər arasında etimad mühiti yaratmayan və sülhün bərpasına töhfə verməyən fəaliyyətlə məşğul olurlar. Razılığa əsasən isə, sülhməramlı kontingent tərəfsiz davranaraq öz öhdəliklərini yerinə yetirməli, qanunsuz erməni silahlı qüvvələrinin Qarabağ bölgəsindən çıxarılmasını təmin etməli idi. Lakin iki il ərzində edilən xəbərdarlıqlara baxmayaraq, Qarabağ bölgəsindəki Rusiya hərbçiləri hələ də daha çox sülhü əngəlləyən addımlarla diqqət çəkirlər.

Rusiya sülhməramlıları Azərbaycanın tarixi yaşayış məntəqələrini qondarma erməni adları ilə təqdim edir, müvəqqəti nəzarətlərində olan dəhliz və yollarla Ermənistandan silah-sursatın daşınmasına icazə verir, onların bizim ərazilərimizdə təxribat törətmələrinə göz yumurlar. Həm ermənilər, həm də sülhməramlı kontingent belə davranışlarla bölgədə dayanıqlı sülhə deyil, de-fakto vəziyyətin saxlanılmasına xidmət edirlər. Azərbaycanın Müdafiə Nazirliyi və Xarici İşlər Nazirliyi bu məsələlərlə bağlı dəfələrlə rəsmi açıqlama yayaraq qarşı tərəfi diqqətli olmağa çağırsalar da, ərazimizdə müvəqqəti yerləşdirilən Rusiya hərbçiləri öz məramlarını mütəmadi unudurlar.

Dekabrın 10-da Azərbaycan mütəxəssisləri faydalı qazıntıların qanunsuz istismar olunduğu Qızılbulaq qızıl və Dəmirli mis-molibden yataqlarına səfər etmək istəsələr də, buna sülhməramlılar tərəfindən süni əngəl törədilib. Rusiya sülhməramlı kontingentinin heç bir tədbir görməməsi fonunda, yerli sakinlərin əvvəlcədən planlaşdırılmış aksiyası səfərə mane olub. Rusiyaya bu hadisə ilə bağlı təqdim edilən notada Azərbaycan nümayəndələrinin səfərinə maneçilik törədilməsinin və ya hər hansı bir şərt irəli sürülməsinin qəbuledilməz olduğu vurğulanıb.

Məramını unudan, missiyasından kənar təxribat xarakterli işlərlə məşğul olan və ya belə davranışların reallaşdırılmasına şərait yaradan Rusiya sülhməramlı kontingenti Azərbaycanın etimadını hər keçən gün daha da itirir. Belə bir vəziyyətdə Rusiyanın Azərbaycanla Ermənistan arasındakı normallaşma prosesinə töhfə verməsi də mümkün deyil.

### Rusiyalı kontingent gözləntiləri doğrultmadı

Milli Məclisin deputatı Ceyhun Məmmədov deyib ki, Azərbaycan nümayəndələrinin faydalı qazıntıların qanunsuz istismar olunduğu ərazilərə səfər etmək cəhdinə sülhməramlıların mane olması qanunsuz hərəkətdir: "Bu addım növbəti təxribat əməli kimi qiymətləndirilməlidir. Qızılbulaq qızıl və Dəmirli mis-molibden yataqlarının yerləşdiyi ərazilər Azərbaycanın olduğu üçün, həssaslığımız mütləq nəzərə alınmalı idi. 10 noyabr üçtərəfli Bəyanatına əsasən, müvəqqəti yerləşdirilmiş Rusiya sülhməramlı kontingentinin bütün fəaliyyətində Azərbaycanın suverenliyinə və ərazi bütövlüyünə ciddi riayət edilməlidir. Yəni onların missiyası sülh prosesinə əngəl olmaq yox, sülh yaratmaq və barışığı təmin etməkdir. Əgər bacarmırlarsa, onda bunu biz özümüz də edə bilərik".

Deputat bildirib ki, Rusiya sülhməramlıları unudurlar ki, onlar öz ordusunun gücü ilə torpaqlarını işğaldan azad etmiş Azərbaycan ərazisində müvəqqəti xidmət göstərirlər: "Sülhməramlılara dəfələrlə xəbərdarlıq olunmasına baxmayaraq, yenə də pozuculuq fəaliyyəti ilə məşğuldurlar. Azərbaycana qarşı davamlı səhv davranışlara yol verir və gözləntiləri doğrultmurlar. Onlar Vardanyanla iş birliyinə gedərək Qarabağda hətta mitinq keçirilməsinə belə şərait yaradırlar. Bu, birmənalı olaraq qəbuledilməzdir. Görünür, Rusiya Vardanyana çox böyük ümidlər bəsləyir, onun vasitəsilə Qarabağda hansısa niyyətlərini reallaşdıra biləcəyini düşünür. Sülhməramlılar nəzərə almalıdırlar ki, Azərbaycan öz suveren ərazilərimizdən sui-istifadə hallarına heç vaxt imkan verməyib, verməyəcək. Təxribatlara həm də ona görə tez bir zamanda son qoyulmalıdır ki, sülhməramlıların bu addımları Rusiya və Azərbaycan arasında imzalanmış sənədlərin ruhuna da ziddir".

### "Bu cür aksiyalar davamlı olarsa, sülhməramlılara yerlərini göstərə bilərik"

Milli Məclisin deputatı Razi Nurullayev deyib ki, Rusiya sülhməramlılarının Qarabağdakı davranışları təxribat xarakteri daşıyır: "Sülhməramlı kontingentin davranışları



onu deməyə əsas verir ki, onlar ermənipərəstdir, neytral mövqe sərgiləmirlər. Sülhməramlılar və onların komandiri Andrey Volkov özünü Qarabağın sahibi və "böyük qardaş" kimi aparır. Görünən odur ki, sülhməramlı kontingent separatçılara yeni zəmin hazırlayır. Nəzərə almaq lazımdır ki, general-mayor Volkov erməniəsilli rusiyalı milyarder, separatçılığı üzərinə götürmüş Ruben Vardanyanla əlbirdir. Vardanyan Rusiyanın layihəsidir. Ona görə də sülhməramlılara göstəriş verilib ki, bütün vasitələrlə Vardanyanın leqallaşmasına kömək etsinlər".

Deputatın sözlərinə görə, Azərbaycan bu təxribatlara adekvat cavab olaraq Laçın dəhlizini bağlaya bilər: "Bu dəhliz silah daşımaq, separatçıların sayını artırmaq və onlara yardımçı olmaq üçün yox, humanist məqsədlər üçün nəzərdə tutulub. Amma Rusiya bu razılığı pozur. Ona görə də Azərbaycan razılaşmaya düzəliş tələb etməli, dəhlizi birtərəfli qaydada bağlamalı, həmçinin dəhlizdə sərhədçilərimizin yerləşdirilməsini və gömrük postunun qurulmasını həyata keçirməlidir".

R.Nurullayev qeyd edib ki, ötən 30 ildə olduğu kimi, Qarabağda ekoloji terror davam etdirilir: "Rusiya sülhməramlıları ermənilərlə əlbir olub bizim nümayəndələrin monitorinq keçirmələrinə, azərbaycanlı jurnalistlərin öz torpaqlarımıza girişinə mane olurlar. Azərbaycan jurnalistlərinin və vətəndaş cəmiyyəti nümayəndələrinin etiraz aksiyasını dəstəkləyir və sülhməramlıların onlara qarşı zorakılığını qətiyyətlə pisləyirəm. Bu cür aksiyalar davamlı olarsa, sülhməramlılara yerlərini və statuslarını göstərməliyik. Onlar missiyalarını yerinə yetirə bilmirsə və neytral, şəffaf və həqiqi sülhməramlı olmaq istəmirlərsə, torpaqlarımızdan çıxıb getməlidirlər. Ruslar hazırda sülhməramlı adı ilə Qarabağa separatçı daşımaqla məşğuldurlar. Görünür, Rusiya sülhməramlıları bölgədə gərginliyin davam etməsində maraqlıdırlar. Unutmaq olmaz ki, dövlətimiz hər cür təxribatın qarşısını almağa qadirdir"

***Nəzrin QARDAŞXANOVA,***
***"Azərbaycan"***

# Riyakar siyasət, sistemli təxribatlar, antiazərbaycançı mövqe və islami dəyərlərə hörmətsizlik - İranın əsl mahiyyəti



## İrandakı qətllər etirazları daha da artırıb

### Avropa İttifaqı bu ölkəyə qarşı çox sərt sanksiyalar tətbiq edəcək

Sentyabrın 17-dən bəri İranda davam edən etiraz aksiyalarında 488 nəfər həlak olub. Bu barədə ABŞ-dəki İran Hüquq Müdafiəçiləri Təşkilatı məlumat yayıb. Bildirilir ki, ölənlərin 64-nün yaşı 18-dən az olan şəxslərdir.

Aparılan hesablamalara görə, sentyabrın 17-dən dekabrın 12-dək olan müddətdə 18259 nümayişçi həbs olunub. Onlardan 3784 nəfərin kimliyi və saxlanılma yeri bəlli deyil. Eyni zamanda həbs olunanlardan 625 nəfəri tələbədir. Nümayişlərə 143 universitetin tələbələri qatılıb. Məlumata görə, ölkənin 161 şəhərini əhatə edən aksiyalarda güc strukturlarının 62 nümayəndəsi öldürülüb.

Ötən gün Məşhəd şəhərində Məcid Rza Rahnəvərd ictimaiyyətin qarşısında dar ağacından asılıb. "Tasnim" agentliyi xəbər verir ki, bu barədə İranın Xorasan-Rezevi əyalətinin ədliyyə idarəsinin başçısı Qulaməli Sadeqi bildirib. Onun sözlərinə görə, edam hökmü "əmin-amanlığın, təhlükəsizliyin bərpa olunması uğrunda qiyamçılara və qanunu pozanlara qarşı mübarizə" çərçivəsində icra olunub.

Bildirilib ki, İran İnqilab Məhkəməsinin Məşhəddəki bölməsi Məcid Rza Rahnəvərd barəsində 23 gün əvvəl ölüm hökmü çıxarıb. Hökm dekabrın 12-də səhər saatlarında icra olunub.

Qeyd edək ki, İran Hüquq Müdafiəçiləri Təşkilatı (HRAI) və ölkədə insan haqlarını müdafiə edən vəkillərdən ibarət qeyri-siyasi və qeyri-hökumət təşkilatıdır. Qərargahı ABŞ-nin Virciniya ştatının Ferfaks şəhərində yerləşən HRAI 2006-cı ildən fəaliyyət göstərir.

#### Ölkəni tərk edənlərin sayı 2 dəfə artıb

İranda yaranmış acınacaqlı vəziyyətlə bağlı xaricdə sığınacaq axtaran vətəndaşların sayı xeyli artıb. Bunu Almaniya Miqrasiya və Qaçqınlarla iş üzrə Federal İdarədən (BAMF) təsdiqləyiblər. Belə ki, bu ilin yanvar-noyabr ayları arasında BAMF-a İran sakinləri tərəfindən 6392 sığınacaq ərizəsi daxil olub. Onlardan 5447-si ilk dəfə, 945-i isə təkrarən müraciət edib.

Federal İdarədən verilən məlumatda qeyd olunur ki, İranda sentyabr ayında başlayan kütləvi nümayişlərdən sonra Almaniyaya gələrək sığınacaq istəyən İran vətəndaşlarının sayı əvvəlki ilin eyni ayı ilə müqayisədə iki dəfə çoxdur.

İran vətəndaşları tərəfindən federal idarəyə qaçqın statusu əldə etmək üçün bu ilin sentyabrında 613, oktyabrda 892, noyabrda isə 1039 müraciət daxil olub.

#### İran parlamentinin sədrindən etiraf

Dünən İran parlamentinin sədri Məhəmməd Bağır Qalibaf bildirib ki, ölkədəki problemləri həll etməyə gücləri çatmır: "Biz bu gün etiraf etməliyik ki, bir sıra sahələrdə problemi həll etmək qüdrətinə malik deyilik. Yenilik cəsarət tələb edir".



Yerli "Mehr" agentliyi xəbər verir ki, bunu İran parlamentinin spikeri dekabrın 12-də İslam Şurasının Araşdırma Mərkəzində keçirilən tədqiqat həftəsində çıxışı zamanı deyib. Qalibaf hesab edir ki, islahat və yenilik riskli işdir: "Cəsarətli və yaradıcı qüvvələrə ehtiyacımız var. İdarəetmə sistemi bu cəsarəti dəstəkləməlidir. Transformasiyaya və yeniliyə sahib olmaq bunu tamamlayır".





İran parlamentinin sədri həmçinin qeyd edib ki, problemi həll etmək gücündədirlər, lakin bunu vaxtında etməyiblər, sonradan atılan addımlar isə öz dəyərini itirir.

Bu arada, İranda növbəti parlament seçkilərinin vaxtı açıqlanıb. İRİ-nin Daxili İşlər Nazirliyindən bildirilib ki, 12-ci çağırış parlament seçkiləri 2024-cü il mart ayının ikisində keçiriləcək.



İranda İslam Şurası Məclisinə (parlament) seçkilər 4 ildən bir keçirilir.

Xatırladaq ki, 290 yerlik parlamentə sonuncu seçkilər 2020-ci ilin fevral ayında keçirilmişdi.

Digər tərəfdən, TASS agentliyinin xəbərinə görə, Avropa İttifaqı İrana qarşı çox sərt sanksiyalar tətbiq edəcək. Bunu Avropa İttifaqının (Aİ) xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi Jozep Borrell bildirib.

O qeyd edib ki, sanksiyalar İranda etiraz aksiyaları ilə bağlı mövcud vəziyyət və bu ölkənin Rusiyaya hərbi məhsullar tədarük etməsi ilə əlaqədardır.

#### "Azadlıq, Ədalət, Milli Hökumət"

Dekabrın 12-si 77 il öncə - 1945-ci ildə (21 Azər) Güney Azərbaycanın Təbriz şəhərində Azərbaycan Milli Hökumətinin yaradıldığı tarixi gündür.

"Günaz.tv" telekanalının xəbərinə görə, İkinci Dünya müharibəsi Böyük Britaniya və SSRİ-nin İran adlanan ərazidə əlini gücləndirmişdi. Sözügedən tarixdə Rza şah Pəhləvinin süquta uğrayan istibdad rejimi İranda fərqli-fərqli epizodlarla yadda qalıb. Elə həmin anlarda Azərbaycanın güneyində başlayan milli azadlıq hərəkatı 1945-ci il dekabrın 12-də Seyid Cəfər Pişəvərinin başçılıq etdiyi Milli Hökumətin qurulması ilə sonuclanıb. Bu hadisə tarixə 21 Azər hərəkatı olaraq da həkk olunub.

Ömrü bir ilə sığan bu hökumət, hələ 20 il öncə İranda 1000 il sürən türk hökmranlığına son qoyaraq hakimiyyəti ələ keçirən Pəhləvi rejiminin etmədiklərini reallaşdırdı. Yeni yaranan Milli Hökumət İranda Azərbaycan türklərinin milli muxtariyyət hüququnu tanıyan bir quruluş kimi fəaliyyətə başlasa da, daha sonra hədəflərini genişləndirərək müstəqillik siyasəti yürütdü. Azərbaycan türkcəsinin dövlət dili olaraq qəbul edilməsi, ana dilində kitabların çapı, Təbriz Dövlət Universiteti və çox sayda orta məktəblərin açılması, milli teatr və milli filarmoniyanın qurulması, milli kitabxanaların istifadəyə verilməsi, yolların çəkilməsi, torpaq islahatı, iri bankların milliləşdirilməsi, səyyar xəstəxana və klinikaların açılması, sosial proqramların icrası, Güney Azərbaycan Milli Ordusunun yaradılması, qadınlara kişilərlə yanaşı bərabər hüquqların verilməsi, bütün xalqların nümayəndələrinin eyni hüquqlara malik olması və digər bu kimi qərarlarla güneyli soydaşlarımızda ümid işığı yaratdı. Bunlarla yanaşı, 1945-1946-cı illərdə Azərbaycanın güneyində müxtəlif mətbuat orqanları, o cümlədən "Vətən yolunda", "Azərbaycan", "Fəryad", "Azad millət", "Qələbə", "Yeni Şərq", "Maarif", "Demokrat", "Fəlahət", "Cövdət", "Urmiyyə", "Qızıl əsgər", "Vətən" qəzet, jurnal və məcmuələr nəşr olundu, bu mətbuatın səhifələrində ölkənin ictimai-siyasi və ədəbi-kulturoloji həyatı əks olundu.

Lakin xalqın dəstəyinə arxalanan 21 Azər hərəkatı 1946-cı il dekabrın 12-də İran rejiminin xain planı ilə iflasa uğradı. Süquta uğradılmamışdan öncə İran mərkəzi hökuməti Azərbaycan Milli Hökuməti ilə imzaladığı anlaşmalarla bu muxtar dövləti rəsmən tanımış olsa belə, eyni il içərisində Pəhləvi rejiminin ordusu Azərbaycana hücum edərək Milli Hökumətin mövcudluğuna son qoydu.

ABŞ Ali Məhkəməsinin hüquqşünası və siyasətçi Uilyam O. Duqlas ABŞ Ali Məhkəməsinə hesabatında bildirib ki, Tehran ordusu buraya gəldikdən sonra əhali ilə əsl işğalçı kimi davranıb: "Bu ordu arxasında ölüm və dağıntı izləri qoyub".

Təbrizin işğalının ardından Azərbaycan türkünə qarşı qətliam həyata keçirilib, minlərlə soydaşımız sürgünə göndərilib.

*Rizvan CƏFƏROV,*
*"Azərbaycan"*





## Azərbaycanın Zəfəri İranın əsl simasını üzə çıxardı

### Müsəlman qılığına bürünmüş "molla" rejimi ifşa olundu



Qarabağ münaqişəsinin bitməsindən sonra İranın ölkəmizə qarşı sərgilədiyi aqressiya hər ötən gün artaraq isterika səviyyəsinə çatıb. Artıq İran rejimi o dərəcədə özünü itirib ki, hirs-hikkəsini çıxarmaq üçün gah Azərbaycana, gah da öz vətəndaşlarına qarşı açıq düşmənçilik nümayiş etdirir.

Bu ölkə Azərbaycanı terrorla hədələyir, sərhəddə hərbi təlim keçirir, Ermənistana pulsuz silahlar hədiyyə edir, Qafanda konsulluq açır...

O da reallıqdır ki, İran bütün bu fitnə və riyakar əməlləri ilə Azərbaycan kimi qüdrətli dövlətə nə isə etmək iqtidarında olmadığını görüb daha da azğınlaşır.

Öz vətəndaşlarının fars rejiminə qarşı haqlı etirazlarını boğmaq üçün onlara divan tutur, uşaqlara, qadınlara, qocalara atəş açaraq öldürür, gəncləri edam edir...

Molla rejimindən canını qurtarmaq üçün İrandan baş götürüb qaçan və xarici ölkələrdən sığınacaq istəyən insanların sayı durmadan artır.

Müsəlmana yaraşmayan, insanlığa sığmayan cinayətlərlə məşğul olan "molla"ların bu qəddar əməllərini isə nə göydə Allah, nə də yerdə bəndə götürməz və götürməyəcək də...

#### Bəyaz libasa bürünüb qanlı əməllərlə məşğul olurlar

Gözünü qan tutmuş fars rejimi İranda yaşayan soydaşlarımıza qarşı xüsusi amansızlıq və qəddarlıq nümayiş etdirir. Rejim qalib Azərbaycanın timsalında özlərini arxa-dayaq hesab edən və tapdanan hüquqları uğrunda ayağa qalxan cənubi azərbaycanlıların azadlıq səsini boğmağa çalışır.

Bir sözlə, bəyaz libasa bürünüb qanlı əməllərlə məşğul olan "molla"lar Azərbaycanın parlaq Zəfərini heç cür həzm edə bilmirlər və qələbəmiz sayəsində ifşa olunan riyakarlıqlarının ağrı-acısını sadə xalqdan, Cənubi Azərbaycanda yaşayan soydaşlarımızdan çıxmaq istəyirlər.

Amma Prezident İlham Əliyevin bəyan etdiyi kimi, biz heç bir zaman Cənubi Azərbaycanda yaşayan soydaşlarımızın taleyinə biganə qalmayacağıq: "Biz öz həyat tərzimizi, dünyəvi inkişafımızı, Azərbaycanın və azərbaycanlıların, o cümlədən İrandakı azərbaycanlıların müdafiəsini təmin etmək üçün hər şeyi edəcəyik. Onlar bizim millətin bir parçasıdır".

#### Bölgədə sülhün düşməni

Bu reallığı kinli və qəddar fars rejimi də yaxşı bilir və buna görədir ki, Qarabağ münaqişəsinin bitməsi ilə heç cür razılaşmaq istəmir. İran Ermənistan və Azərbaycan arasında sülhün əldə edilməsini açıq-aşkar əngəlləyir, Zəngəzur dəhlizinin gerçəkləşdirilməsinə əngəl olmaq üçün əlindən gələni edir. İran sərgilədiyi bu davranışlarla həm də bölgədə sülhü təhdid edən başlıca düşmən olduğunu ortaya qoyur.

Azərbaycan torpaqlarının Ermənistanın işğalı altında olduğu 30 il ərzində də İran ölkəmizə qarşı bu cür riyakarlıq nümayiş etdirmiş, təcavüzkar Ermənistana dəstək vermişdi. Sözügedən illər ərzində İran bir dəfə də olsun Ermənistanın Azərbaycan torpaqlarını işğal etməsi, yurdlarını viran qoyması, talaması, yüz minlərlə əhalisini didərgin salması, vətəndaşlarını əsir götürməsi, xalqımıza qarşı soyqırımları törətməsi barədə danışmayıb.

Özünün islam respublikası olduğunu iddia edən İran Ermənistanın Qarabağ və Şərqi Zəngəzurda islam irsinə qarşı həyata keçirdiyi vandallıq aktları barədə heç bir mövqe ortaya qoymayıb. Erməni vəhşiləri tərəfindən tarixi torpaqlarımızda 60-dan çox məscidimiz dağıdılıb, xalqımıza məxsus bu müqəddəs məkanlar təhqir olunaraq onlardan donuz tövləsi kimi istifadə edilib. Amma İran Ermənistanın bu islamofob davranışı ilə bağlı heç bir söz deməyib.

Göründüyü kimi, hər zaman özünü dünya müsəlmanlarının bir nömrəli təəssübkeşi kimi qələmə verən İranın sözləri ilə əməlləri qətiyyən üst-üstə düşmür.

Bu, təsdiqlənmiş faktdır ki, işğal dövründə Ermənistanla İran arasında geniş miqyasda iqtisadi əlaqələr olub, birgə iqtisadi layihələr icra edilib. İranla Ermənistan arasında uzunluğu 140 kilometr olan qaz kəməri çəkilib. Ermənistan Azərbaycanın işğal edilmiş Qarabağ ərazilərinə İran İslam İnqilabı Keşikçiləri Korpusunun (SEPAH) dəstəklədiyi yük maşınları ilə yanacaq və silah daşıyıb.

Azərbaycanın işğal altında olan əraziləri həm narkotik plantasiyalarının yaradılması, narkotik maddələrin istehsalı, həm də Şərqdən Qərbə doğru gedən narkotrafik marşrutu kimi istifadə olunub. Bu ərazilərdən narkotrafik marşrutu kimi istifadə məsələsində İran xüsusi fəallığı ilə seçilib. Azərbaycanın işğal altındakı torpaqlarında onilliklər boyu İran ifşa olunmuş və təsdiqini tapmış çoxsaylı cinayətlər törətmişdir.

#### "Dəmir yumruq" iki düşmənin başını birdən əzdi

Düzdür, İran Vətən müharibəsinə qədər Azərbaycana qarşı törətdiyi bu riyakar əməllərini ört-basdır edir, üzdə Azərbaycanı dost adlandırırdı. Ölkəmiz torpaqlarını işğaldan azad etdikdən sonra xain maskasını çıxarmağa məcbur oldu. Xüsusilə də Zəngəzur dəhlizi məsələsi aktuallaşandan dərhal sonra İran Azərbaycana qarşı açıq-aşkar düşmənçiliyə başladı. Çünki, İranın şimal-qərb bölgəsi ilə həmsərhəd olan Azərbaycan torpaqlarına Ermənistanın nəzarət etməsi siyasi baxımdan Tehran üçün əlverişli idi. Bu, Azərbaycanla İranın azərbaycanlılar yaşayan şimal-qərb bölgələri arasında "bufer zona"sı demək idi.

İranın illərdir cidd-cəhdlə Ermənistanın işğalçılıq siyasətinə dəstək verməsinin arxasında da bu məkrli planı dayanırdı. Və hər iki xain qonşunu - Ermənistan və İranı da Azərbaycana qarşı birləşdirib "dost" edən bu mənfurluqları idi ki, Vətən müharibəsində "dəmir yumruq" hər ikisinin başını əzdi.

İranın hakimiyyətdə olan istibdadçı, molla rejimi öz xalqına, dinc əhalisinə də qarşı eyni çirkin əməlləri həyata keçirir və onların üzərinə tərəddüdsüz silah işlədir.

Dini siyasi alətə çevirən molla rejimi hər zaman Cənubi Azərbaycanda yaşayan soydaşlarımıza qarşı ikiqat qəddarlıq göstərib. Bir fakta diqqət yetirək: İranın azərbaycanlı əhalisi hətta ən elementar hüquqlardan belə amansızcasına məhrum edilib. Cənubi Azərbaycanda yaşayan 40 milyon azərbaycanlının əksəriyyəti öz ana dilində təhsil almaq imkanlardan məhrumdurlar.

Lakin əzilən, tapdanan, əllərindən alınan hüquqlarının bərpası üçün ayağa qalxan cənubi azərbaycanlılarının arxasında qüdrətli Azərbaycan dövləti var və onlar yalnız deyillər.

Səmərqənddə Türk Dövlətləri Təşkilatının IX Zirvə Görüşündə Azərbaycan dövlətinin xarici ölkələrdə yaşayan azərbaycanlıların hüquq və azadlığının, təhlükəsizliyinin təmin edilməsinə xüsusi diqqət yetirdiyini vurğulayan Prezident İlham Əliyev də qətiyyətlə bildirmişdi ki, biz acı taleyin hökmü ilə Azərbaycan dövlətindən ayrı düşmüş soydaşlarımızın dilimizi, ənənələrimizi, mədəniyyətimizi qoruyub saxlamaları, azərbaycançılıq ideyalarına sadiq olmaları, öz tarixi vətənləri ilə əlaqələrin heç vaxt kəsilməməsi üçün səylərimizi davam etdirəcəyik.

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

# Milliliyin beynəlmiləl missiyası

**Filologiya elmləri doktoru, professor, Azərbaycan MEA-nın həqiqi üzvü Nərgiz Paşayevanın həyatının (və taleyinin!) ən əlamətdar cəhəti, heç şübhəsiz, mənsub olduğu ailənin, nəslin yaradıcılıq "tərcümeyi-halı"nın yalnız davamçısı deyil, həm də inkişaf etdiricisi olmasıdır. Adətən, tarixi şəxsiyyətlər öz övladlarının timsalında, əgər belə demək mümkünsə, "dincəlməli" olurlar, ancaq Nərgiz xanım ədəbi-elmi şöhrəti Mir Cəlaldan başlayan ailənin elə intellektual nümayəndələrindən biridir ki, genişmiqyaslı fəaliyyətilə təkcə mənsub olduğu nəslə yox, eyni zamanda xalqına, dövlətinə böyük hörmət, nüfuz gətirmişdir. Atası akademik Arif Paşayevin, anası professor Aida İmanquliyevanın elmə xidmət ənənəsini Nərgiz xanım yeni tarixi şəraitdə (və yeni keyfiyyətdə!) davam etdirir.**



Ədəbiyyatşünas-alim, təhsil qurucusu - müəllim, beynəlxalq səviyyəli ictimai xadim... Bütün bu özünəməxsus (və təkrarsız) məziyyətlərilə yanaşı, son dərəcə təvazökar, səmimi və qayğıkeş insan olan Nərgiz Paşayeva təsəvvürümüzdəki Azərbaycan ziyalısı obrazını zənginləşdirən şəxsiyyətdir.

O, Azərbaycan (indiki Bakı) Dövlət Universitetinin Filologiya fakültəsini fərqlənmə diplomu ilə bitirdikdən sonra təhsilini Azərbaycan ədəbiyyatı tarixi ixtisası üzrə aspiranturada davam etdirmiş və 1987-ci ildə müdafiə elədiyi "Sabir novatorluğu" mövzusundakı namizədlik dissertasiyası ilə göstərmişdir ki, Azərbaycan ədəbiyyatşünaslığının klassiklərindən olan babası professor Mir Cəlalın ən istedadlı varislərindən biridir.

Əlbəttə, Sabirin dühası yaradıcılığa başladığı illərdən həmişə böyük maraq doğurmuş, şairin vəfatından (və "Hophopnamə"nin 1912-ci ildə ilk nəşrindən) sonra milli ədəbi-ictimai həyatda onun şəxsiyyətinə xüsusi münasibət olmuşdur. Ona görə də ilk baxışda belə bir təsəvvür yarana bilərdi ki, Sabirdən yazmaq ya indiyə qədərkiləri bu və ya digər dərəcədə təkrar etmək, ya da sabirşünaslığa meydan oxumaqdır... Ancaq bunların heç biri, hər nə qədər elmdə ilk addımlarını atsa da, məhz ailədən, nəsildən gələn təcrübənin nəticəsi idi ki, Nərgiz xanımın istəklərinə uyğun gələ bilməzdi. Onun Sabir haqqında deməyə öz sözü vardı ki, bu həm də gənc ədəbiyyatşünasın ədəbiyyat barədəki sözü olmalı idi.

"Sabirin novatorluğu" namizədlik dissertasiyası olaraq sovet dövründə müdafiə olunduğuna görə, təbii ki, sosializm realizmi ədəbiyyatşünaslığının tələblərindən çox da kənara çıxa bilməzdi. Ancaq istedadın hər hansı siyasi-ideoloji qadağalar hüdudunda da öz həqiqətini ifadə etməsi kimi hər hansı dövr üçün keçərli olan prinsip burada da özünü göstərdi. Tədqiqatda a) ideya-məzmun və b) üslub-forma olmaqla ədəbi novatorluğun iki müşahidə nöqtəsi əsas alınmışdır ki, hər ikisindən Sabirin dühası aydın görünürdü... İdeya-məzmun görüş dairəsinə 1) ənənəvi mövzu, yeni ictimai məzmun, yeni ideya; 2) vətəndaşlıq cəsarəti, inqilabi nikbinlik; 3) Sabir və klassik poeziya; formaya isə 1) dil, üslub və poetik vasitələrdə novatorluq; 2) klassik şeir şəkillərində yeniliklər; 3) Sabir şeirində ifşa üsulları daxil idi ki, hər iki istiqamət həm "Hophopnamə"nin verdiyi bilavasitə materialın, həm də Abbas Səhhət, Abdulla Şaiq, Əziz Şərif, Mir Cəlal, Cəfər Xəndan, Əkrəm Cəfər, Əziz Mirəhmədov, Abbas Zamanov, Məmməd Məmmədov, Tofiq Hacıyev, Xeyrulla Məmmədov, Tərlan Novruzov, Alxan Bayramoğlu kimi sabirşünasların ayrı-ayrı mülahizələrinin təhlili (və ümumiləşdirilməsi) əsasında mükəmməl interpretasiyasını tapmışdır.

Nərgiz Paşayeva namizədlik dissertasiyası kimi qələmə aldığı "Sabir novatorluğu"nu on ildən sonra (!) monoqrafiya kimi nəşr etdirərkən, əslində, mövzuya ideya-metodoloji baxımdan bir də qayıdaraq alim məsuliyyəti (və səmimiyyəti!) ilə etiraf etdi ki, sovet siyasi-ideoloji konyukturu ona da təsirsiz qalmamışdır. Bu etiraf nə qədər fərdi səciyyə daşısa da, əslində, bütün sovet sabirşünaslığı adından söylənən mülahizə olaraq da, görünür, az əhəmiyyət kəsb etmir... Müəllif monoqrafiyanın ön sözündə yazır: "Hophopnamə"nin elmi şəkildə öyrənilməsinin zəngin və əlvan salnaməsi, onun artıq sabitləşmiş uğur və kəsirləri, klassik mərhələ və təmayülləri mövcuddur. Bu salnamədə son səhifələr "sosialist realizmi" ədəbiyyatşünaslığı ilə və onun adı ilə bağlı metodoloji stereotiplərlə səciyyələnir". Və əlavə edir ki, həmin "stereotip baxışın mahiyyəti xüsusilə qabarıq, ümumiləşmiş şəkildə şairin estetik idealı, cəmiyyət görüşləri, qəhrəman tipajı ilə bağlı mülahizələrdə meydana çıxır, yetmiş illik hakim və sürəkli tənqidi estetik ənənədə, Sabirdən mütləq "proletar şairi", "inqilabçı-demokrat" kimi danışmağa çalışan əksər müəlliflərin əsərlərində özünü göstərir".

Bu isə o deməkdir ki, Nərgiz Paşayeva artıq ilk ciddi tədqiqat işinin də aid olduğu sabirşünaslığa tamamilə yeni tənqidi mövqedən baxmağa ehtiyac duyur. Və prinsip etibarilə, sadəcə tənqidlə kifayətlənməyib yeni sabirşünaslığın kifayət qədər əsaslı müddəalarını da formulə edir. Onlardan biri budur ki, "şairin "xalq" anlayışında "Fəhlə" və "Əkinçi" obrazları mühüm yer tutur. Lakin həmin anlayış yalnız bu iki elementdən ibarət deyil. Bu anlamda ziyalının, xanın, bəyin, hətta ruhaninin də hərəsinin öz yeri, öz mövqeyi var. Bu vaxtaqədərki "sosialist realizmi ədəbiyyatşünaslığı"nda isə Sabirin bədii tipajına daha çox məhdud və vulqar siyasi-sinfi meyar tətbiq olunmuş, hakim sosial təbəqəyə, həmçinin ziyalıya, ruhaniyə münasibətdə "Hophopnamə" amansız bir "ittihamnamə" kimi əkinçiyə, fəhləyə (proletara!) münasibətdə isə "mədhnamə" və "tərənnümnamə" kimi təqdim edilmişdir. Müəllif Sabirə konyuktur baxışın əksinə olaraq öz yeni (və konseptual!) münasibətini ifadə edərək yazır: "... Ümumiyyətlə, böyük poeziyanın, o cümlədən Sabirin "millət" obrazı millətin bütün ünsürlərindən ibarətdir. Şair heç zaman tam halda onlardan birini inkar, digərini təqdir etmir, əksinə, millətin bütövlükdə səciyyəsini açır və məhz vahid sosial orqanizmin - millətin bir parçası kimi onlara vulqar - sosioloji, məhdud - sinfi baxımdan yox, ümummilli, ümumbəşəri dəyər və meyarlar baxımından təhlil və qiymət verir". Və sabirşünaslıqda yeni konsepsiyanın müəllifi tamamilə haqlıdır ki, yalnız "üsyançı kəndli"dən və yalnız "proletar fəhlə"dən ibarət xalq və cəmiyyət timsalı şairin möhtəşəm "Millət" (hətta "islam" və "Turan") ideologiyasını kasıblaşdırardı, onu ifadə və təmsil eləməkdən çox uzaq olardı".

Heç şübhəsiz, Nərgiz Paşayeva bu cür metodoloji (və strateji) dəyər daşıyan mülahizələri ilə, bir tərəfdən, sabirşünaslığı keyfiyyətcə zənginləşdirirsə, digər tərəfdən, Sabirin ədəbi (və ideoloji!) şəxsiyyətini sinfi mübarizə və ya proletar şairi hüdudlarından çıxararaq layiq olduğu ümummilli (və ümumbəşəri) səviyyəyə yüksəldir:

"...Bədii "fövqəl-ideya" nı və fəlsəfi leytmotivi bu poeziyada da qədim kökdən, ənənədən gələn humanist-bəşəri və milli-maarifçi ideal təşkil edir. Şair həmişə və hər yerdə millətin (çox halda isə həm də türklüyün!) mövcud halını, tarixini və taleyini tam halda düşünmüş, ruhaninin də, bəyin də, əkinçinin də, "ziyalı"nın da və əsnafın da nadanını, simasızını, milli şüurdan, əxlaqdan və şərəfdən məhrumunu lənətləyir, ifşa və ittiham edir, düzü, halalı, qeyrəti və ittihadı təmsil edən hər kəsi isə (silkindən və sinfindən asılı olmayaraq) tərənnüm edir və alqışlayır"... Tədqiqatçı belə bir doğru nəticəyə gəlir ki, "şairin bizim üçün bu gün də müqəddəs səslənən poeziyasının mərkəzində ən möhtəşəm obraz kimi fağır "fəhlə"nin, yoxsul "əkinçi"nın yox... milli ziyalının - Sabirin özünün daxili obrazı, mənəvi "mən"i canlanır"...

Əlbəttə, Sabiri bu cür yenidən kəşf etmək üçün "sosialist realizmi" kabusunun aradan qalxması, cəmiyyətdə demokratik (və milli!) əhvali-ruhiyyənin bərqərar olması ilə yanaşı, "Sabir novatorluğu" müəllifi kimi ciddi mütəxəssis-ədəbiyyatşünasın, ümumən fəlsəfi düşüncə sahibinin yetişməsi də lazım gəlirdi. Və Sabirin novatorluğunun miqyasını duymaq, təsəvvür etmək üçün, ilk növbədə, gərək tədqiqatçının öz təfəkkürü, ruhu, ədəbi hadisəyə baxış üsulu novator olsun.

Nərgiz Paşayeva Bakı Dövlət Universitetinin Azərbaycan ədəbiyyatı tarixi kafedrasında - Mir Cəlal müəllimin kafedrasında bir müddət müəllim, baş müəllim, dosent vəzifələrində çalışdıqdan sonra Bakı Musiqi Akademiyasında Dil və ədəbiyyat kafedrasına rəhbərlik etdi. Və həmin illərdə "Müasir Azərbaycan ədəbiyyatında insanın bədii-estetik dərki (Xalq yazıçısı Elçinin yaradıcılığı əsasında)" mövzusundakı doktorluq dissertasiyasını yazıb 2004-cü ildə müdafiə etdi. Həmin müdafiənin iştirakçıları bu günə qədər xatırlayırlar ki, Nərgiz xanımın çıxışı, opponentlərin və şura üzvlərinin suallarına verdiyi cavablar xüsusilə o baxımdan son dərəcə mükəmməl idi ki, dissertantın, demək olar ki, hər bir mülahizəsi ədəbi faktlara, hadisələrə hərtərəfli nüfuzu ilə yanaşı, fəlsəfi siqləti ilə də seçilirdi... Elmi kluarlarda belə bir fikir çox tez-tez səslənir ki, mövzunun düzgün seçimi dissertasiya işinin uğurunun yarısıdır. Və bu seçimin düzgünlüyünü isə, görünür, mövzunun həqiqətən aktuallığı - müasir elmi-metodoloji problemlər səviyəsində olması ilə bərabər, dissertantın bilik, bacarıq (və təbii ki, istedad) imkanlarına uyğun gəlməsi müəyyən edir.

Mövzu, hər şeydən əvvəl, məhz nəzəri aspektdən aktual idi, belə ki, müqayisəli-tarixi və sistem-struktur araşdırmalardan sonra, XX əsrin ortalarından etibarən, demək olar ki, bütün humanitar elmlərə antroposentrik metod sürətlə sirayət etməyə başlamış, digər metodları arxa plana keçirərək öz yeni təhlil üsullarını irəli sürmüşdü. Nərgiz Paşayevanın mövzusu Azərbaycan ədəbiyyatşünaslığında bu istiqamətdə ilk işlərdən biri, keyfiyyət tərəfini nəzərə alsaq, hətta birincisi idi.

Müdafiədən bir il əvvəl akademik Kamal Talıbzadənin elmi redaktorluğu ilə nəşr olunmuş monoqrafiya "İnsan bədii tədqiq obyekti kimi (Xalq yazıçısı Elçinin yaradıcılığı əsasında)" adlanırdı. Əsərin ön sözündə müəllif yenə də özünəməxsus bir erudisiya, panoramlı bir təhkiyə tərzi ilə göstərir ki, "XX əsr Azərbaycan ədəbiyyatının başlıca mövzusunu müəyyənləşdirərkən biz, ilk növbədə, iki məfhum üzərində daha çox israr etməliyik: Xalq və İnsan. Bu iki məfhum bədii ədəbiyyat üçün heç bir zaman mücərrəd səslənməmişdir... XX əsrin bütün böyük sənətkarlarından söz açarkən, ilk növbədə, həmin sənətkarların öz əsərlərində nə dərəcədə, hansı səviyyədə Xalq və İnsan amilinə bağlı olduqları ön plana çəkilir". Lakin tədqiqatçı onu da nəzərə alır ki, burada söhbət hələ ki, məsələnin ümumi qoyuluşundan, əgər belə demək mümkünsə, fundamental və ya kardinal təsəvvürdən gedir. Və məlumdur ki, Xalq və İnsan məfhum-amillərinin, yaxud obrazlarının istər ədəbiyyatda, istərsə də ümumən milli ictimai şüurda təzahürü hər dövrün, epoxanın tələblərindən irəli gələn olduqca rəngarəng sosial-mənəvi (və ideoloji) şərtlərə əsaslanır. Məsələn, deyək ki, XX əsrin əvvəllərində - Sabirin, Mirzə Cəlilin, Üzeyir bəy Hacıbəylinin... dövründə Xalq, yaxud Millət amili aparıcıdır, həmin əsrin ortalarında - 60-cı, 70-ci illərdə İnsan önə çıxır, sonlarında isə Xalq (Millət) təəssübkeşliyi yenidən öz şərtlərini diktə etməyə başlayır... Ancaq bu da problemə lazımi analitik münasibət deyil. Çünki yenə də xeyli dərəcədə ümumi təsəvvürlər əsasında mühakimə yürüdülür.

Nərgiz Paşayeva müasir Azərbaycan ədəbiyyatında insanın bədii-estetik dərki barədəki mülahizələrinə, tamamilə yerində olaraq, "müasir Azərbaycan ədəbiyyatı" anlayışının özünün dərki problemindən başlayır: "Ədəbiyyatda humanist konsepsiya bədii-estetik fikrin inkişafı kontekstində izlənildikdə, araşdırıldıqda, təbii ki, yeni meyil və tendensiyaları görməmək mümkün deyil. Bu yeni meyil və tendensiyalar isə zamanın, gerçəkliyin, real həyatın özündən doğur"... Və hər cəhətdən təqdirə layiqdir ki, müəllif sözügedən anlayışı hansısa mexaniki-xronoloji göstəricilərlə yox, məhz ideya-estetik meyarlarla təyin etməyə çalışaraq yazır ki, sovet hakimiyyəti illərində "İnsan adı, şərəfi, İnsan ucalığı kommunist ideologiyası çərçivəsində öz həqiqi məna və mahiyyətini itirmişdi. Bu ideologiya İnsanı mənəvi varlıqdan daha çox maddi varlıq kimi, döyüşən, vuruşan, kollektiv təsərrüfat uğrunda mübarizə aparan, tikintilər ucaldan... ürəyinin döyüntülərindən (öz psixoloji aləmindən) deyil, çəkicinin zərbəsindən, sürdüyü traktorun səsindən bəlli olan fərd kimi tanınırdı. Fərd idi, amma kütlələrin içindən seçilməyən, ümumiyə qarışan bir fərd".

"İnsan bədii tədqiq obyekti kimi" monoqrafiyasının müəllifi "yeni ədəbiyyat"ın atributlarını müəyyənləşdirdikdən, "yeni ədəbi nəsl"in əsas nümayəndələri haqqında məlumat verdikdən sonra həmin nəslin (və ədəbiyyatın) səciyyəvi simalarından olan Elçinin yaradıcılığını fərqləndirərək göstərir ki, "biz nasir, dramaturq və tənqidçi Elçinin yaradıcılığı timsalında insan konsepsiyasının bədii və elmi həllini, yəni bu problemin Elçinin əsərlərində necə əks olunmasına aydınlıq gətirməyi əsas məqsəd kimi götürmüşük".

Monoqrafiyanın həmin əsas məqsədə çatmağa imkan verən çox mütəhərrik (və informativ!) quruluşu var. Əvvəlcə Azərbaycan bədii-estetik fikrində (və onun üzvi tərkib hissəsi olan Elçin yaradıcılığında) insan konsepsiyası araşdırılır ki, bu zaman məsələyə elmi-nəzəri proqram səviyyəsində yanaşmaqla həm dövrün ideoloji-estetik xarakteristikası, həm də yazıçının yaradıcılıq yolunu müəyyənləşdirəcək obyektiv və subyektiv amillər öyrənilir. Sonra Azərbaycan sovet ədəbiyyatının estetik-inzibati normaları və ya tələblərinə münasibətdə Elçinin ədəbi qəhrəman konsepsiyasının mahiyyəti ortaya çıxarılır... Və nəhayət, üç fəsildə, müvafiq olaraq, yazıçının nəsri, dramaturgiyası və ədəbi-tənqidi görüşləri əsasında onun - mövzunun detallarına varılmaqla istər diferensiasiya, istərsə də inteqrasiya planında mühüm nəticələrə gəlinir.

Bu nəticələrdən biri odur ki, keçən əsrdə sovet ideologiyasının təsiri altında Azərbaycan ədəbiyyatı - nəsri, dramaturgiyası "bir sıra özəl xüsusiyyətlərini itirməyə başlamış, əvvəlki ənənələrə laqeyd yanaşmış"dır... "Ən faciəlisi o idi ki, sənətdə İnsan konsepsiyası da metamorfozaya uğrayır, ədəbiyyatda insan obrazı da məhz kommunist ideologiyasının prinsiplərinə uyğunlaşdırılırdı"... İkinci nəticəyə görə, "sənətdə humanist konsepsiya əllinci illərin axırlarında yenidən güclənməyə başladı və bu "əhya" prosesində 60-cı illər ədəbi nəslinin ən görkəmli nümayəndələrindən olan yazıçı, dramaturq Elçinin rolu xüsusi qeyd edilməlidir"... Üçüncüsü, Elçinin ədəbi qəhrəmanlarını "həm ictimai-sosial planda, həm də mənəvi-əxlaqi aspektdə qiymətləndirmək lazımdır. Çünki onların yaşadığı mühit, həyat şəraiti, ictimai aləmdə yeri və mövqeyi olduğu kimi, həm də özünəməxsus fərdi dünyası, psixologiyası, həyata, dünyaya öz baxışı var. Lakin bu iki aspekt - obraza bu iki yanaşma onların bütövlüyünü pozmur"... Dördüncüsü, "Elçinin qəhrəmanları işıqlı idealdan güc alır, mənəvi-əxlaqi prinsiplərə sadiq qalır, ən çətin məqamlarda da bu prinsiplərdən dönmürlər. Hətta zamanın şikəst etdiyi, dövrün eybəcər hala saldığı insanlar da o işığı, o mənəvi saflığı qoruya bilirlər"... Və nəhayət, daha bir nəticə də maraq doğurmaya bilməz ki, təkcə nəsri, dramaturgiyası ilə deyil, ədəbiyyatşünaslıq əsərləri ilə də Elçin İnsanın bədii-estetik dərki probleminin həllinə əvəzsiz töhfələr vermişdir. "Elçin nəsrində və dramaturgiyasında İnsan bütün mənəvi aləmi, bu aləmə məxsus dramatizmi ilə seçildiyi kimi, Elçin tənqidində İnsana münasibət də həmin prinsipdən gəlir. İnsan zəngin bir dünyadır. Bu fərdi, özünəməxsus dünyanı təsvir edərkən sənətkar əsl həqiqəti qələmə almalı, İnsanı canlı, təbii, real və inandırıcı təsvir etməlidir - bütün müsbət keyfiyyətləri və bütün mənfi cəhətləri ilə".

"İnsan bədii tədqiq obyekti kimi" monoqrafiyası, heç şübhəsiz, yeni müstəqil Azərbaycan ədəbiyyatşünaslığının (və ədəbi-fəlsəfi fikrinin!) ilk fundamental əsərlərindən biridir ki, müasir ədəbiyyat (və cəmiyyət, humanizm!..) probleminə həsr olunmuşdur. Əsər hər nə qədər ayrıca bir yazıçının - Elçinin yaradıcılığından bəhs etsə də, məzmun-mündəricə baxımından 1960-cı illərdən başlayan "yeni ədəbi nəsl"in, demək olar ki, bütün yaradıcılıq miqyasını əhatə etməkdədir.

Görkəmli tədqiqatçının daha bir neçə kitabı - "İnsan - obraz - ədəbiyyat", "Antik ədəbiyyat tarixi", "Dünya deyilən sənmişsən", "Səməd Vurğunun həyatı məktublarda" və s., eləcə də məqalələri yayımlanmış, elmi konfranslarda aktual mövzularda maraqlı məruzələr etmişdir. "Molla Nəsrəddin" jurnalının yenidən nəşri, "Səməd Vurğunun xatirələri", "Azərbaycan xalq çalğı alətləri" kataloqu kimi bir sıra çox mühüm layihələr də onun təşəbbüsü ilə həyata keçirilmişdir. Bu siyahıya Azərbaycan mədəniyyətində həmişə orijinal (və dəyərli) hadisə olaraq qiymətləndirilən, böyük şöhrət qazanmış bir təcrübəni - "Üns" bədii yaradıcılıq səhnəsini də əlavə etməliyik.

Nərgiz Paşayeva doktorluq dissertasiyasını müdafiə etdikdən az sonra yenidən doğma universitetə qayıtdı. Və Mir Cəlal müəllimin kafedrasına rəhbərlik etməyə başladı... Əslində, bu onun istedadının yeni imkanlarının üzə çıxması, gerçəkləşməsi demək idi... Yüksək intellekt, mədəniyyət, münasibətlərdə kübarlıq, işgüzarlıq, demokratik (və məhsuldar!) idarəçilik... Bütün bunlar tezliklə ona hörmət, ehtiram gətirdi. Azərbaycan Milli Elmlər Akademiyasının əvvəl müxbir, sonra isə həqiqi üzvü seçildi. Əməkdar elm xadimi fəxri adına layiq görüldü, "Şöhrət" ordeni ilə təltif olundu.

Mən bir neçə il Bakı Dövlət Universitetində Nərgiz xanımın sədrlik etdiyi Dissertasiya Müdafiəsi Şurasının üzvü olmuşam. Və görmüşəm ki, ümumi intellektual səviyyə, məşğul olduğun (əslində, həyatını həsr etdiyin) ixtisasın dərinliklərinə bələd olmaq, yüksək idarəçilik mədəniyyəti nə deməkdir... Bunun üçün şura sədrinə nə səsini qaldırması, nə şura üzvlərinə, nə də dissertanta öz yerlərini başa salması lazım gəlmirdi. Nərgiz xanım təkzibolunmaz məntiqi, harmonik səsi ilə öz mövqeyini, adətən, özünəməxsus təbəssümlə deyirdi, həm də sonda və ya xüsusi ehtiyac olduqda... Bu mövqe, bir tərəfdən, əsaslılığına, digər tərəfdən, ümumi fikri əks etdirdiyinə görə, əlbəttə, hər hansı mübahisəni həll etmək iqtidarında idi.

Ən maraqlı məqamlardan biri o olmuşdu ki, Nərgiz xanımın apardığı iclasda vaxtilə universitetdə ona dərs demiş müəllimlərdən biri doktorluq dissertasiyası müdafiə edirdi. Və həmin müdafiədə müəllimə hörmət, tələbə ehtiramı nə qədər idisə, dissertasiya işinə (və dissertanta) qoyulan tələblər də o qədər idi. Ümumiyyətlə, sədr Dissertasiya Şurasını mahir dirijorun böyük bir orkestri idarə elədiyi kimi idarə edir, hər bir iclasdan şura üzvləri nəinki elmi məlumatlarını, hətta bütövlükdə elmi təfəkkürlərini yeniləşdirərək, əqli-zehni enerji alaraq çıxırdılar.

Nərgiz Paşayevanın elm, təhsil, mədəniyyət sahələrindəki səmərəli fəaliyyətinin bir mühüm sferası da, heç şübhəsiz, beynəlxalq əlaqələrdir. M.V.Lomonosov adına Moskva Dövlət Universiteti Bakı filialının yaradılması, eləcə də AMEA, BDU kimi mötəbər elm, təhsil müəssisələrində beynəlxalq əlaqələrə rəhbərlik etməsi onun xidmətləri sırasındadır... Ancaq bir xidməti barədə ona görə bir az təfsilatı ilə bəhs etməyə ehtiyac var ki, sözün həqiqi mənasında, tarixi səciyyə daşıyır. Bu, Böyük Britaniyada - Oksford Universitetində Nizami Gəncəvi adına Azərbaycan və Qafqazşünaslıq Mərkəzinin yaradılmasıdır.

Mərkəzin rəsmi saytında deyildiyi kimi, Nizami Gəncəvi Mərkəzi Oksford Universitetinin rəsmən qəbul edilmiş və tanınmış struktur bölməsidir və həmin universitetin tək Şərqşünaslıq fakültəsi ilə bağlı məsələləri deyil, ümumiyyətlə, Oksford Universitetində digər sahələrdə, elm və təhsillə bağlı olan bütün məsələlərdə Azərbaycan üzrə koordinator səlahiyyətinə malikdir. Və Oksford Universitetinin tərtib və təsdiq etdiyi beşillik elmi-tədqiqat proqramı ilə işləyən mərkəz kitabların yüksək akademik səviyyədə tərcüməsi, Bərdə şəhərində arxeoloji tədqiqatların aparılması, beynəlxalq konfransların keçirilməsi, əlyazmaların öyrənilməsi, aspirant və magistrantların hazırlığı istiqamətində fəaliyyət göstərməklə yanaşı, Oksford Universitetinin qaydaları çərçivəsində mədəni-akademik layihələri də həyata keçirərək dünya elmi-intellektual birliyi ilə əlaqələr yaratmağa çalışır.

Əlbəttə, son yüz ildə Azərbaycanda həm Azərbaycan, həm də dünya elminin, mədəniyyətinin müxtəlif sahələri, xüsusilə humanitariyanı kifayət qədər dərindən öyrənən müəssisələr, qurumlar təşəkkül tapmışdır ki, xalqımız dövlət müstəqilliyi əldə etdikdən sonra həmin müəssisələrin, qurumların fəaliyyəti xeyli dərəcədə yeni məzmun-mündəricə kəsb etməkdədir. Demokratiya, milli dəyərlərlə ümumbəşəri dəyərlərin dialektik vəhdətdə alınması, qloballaşan dünyanın çağırışlarına həssas yanaşılmaqla multikultural düşüncə prinsiplərinin rəhbər tutulması elmi-ictimai təfəkkürümüzün yüksəlişi üçün əsaslı metodoloji zəmin hazırlamışdır. Bununla belə, dünyanın böyük təcrübəyə malik universitetləri ilə yaxından əməkdaşlıq etmək, sözdə deyil, məhz işdə qabaqcıl, modern texnologiyaları mənimsəyib tətbiq etmək, Azərbaycan həqiqətlərini bütün miqyası ilə dünyaya çatdırmaq bu gün dünənkindən daha çox tələb olunur. Ona görə də akademik Nərgiz Paşayevanın Oksford Universiteti kimi ali səviyyəli bir elm-tədris müəssisəsində Nizami Gəncəvi Mərkəzinin yaradılmasına, eləcə də ilk günlərdən başlayaraq uğurla, məhsuldar, öz fəaliyyət meydanını daha da genişləndirərək fəaliyyət göstərməsinə nail olması elmimiz, mədəniyyətimiz üçün həm fəxrdir, həm də böyük qürur duyacağımız ciddi nailiyyətlərin mənbəyidir. Dahi Nizaminin adını daşıyan (və bu adı özünün azərbaycanşünaslıq - qafqazşünaslıq araşdırmaları fonunda, yəni bizim zəmanəmiz üçün heç də az səciyyəvi olmayan populist mülahizələr, iddialarla deyil, elmin, intellektin, sözün geniş mənasında mədəniyyətin bilavasitə təzahürünün nəticəsi olaraq dünyaya yeni müstəvidə təqdim edən!) mərkəz bəzi bədxahların mənasız təzyiqləri, dedi-qoduları ilə üzləşsə də, öz humanist missiyasını, heç şübhəsiz, layihə gücündə həyata keçirməklə şair-mütəfəkkirin yüz illərdir ki, yaşayan, şüurlara, hisslərə get-gedə daha çox qida verən ümumbəşəri ideallarına layiq işlər görür.

Mən Nərgiz xanımın mərkəzin açılması barədə danışarkən dediyi bir fikri xatırlatmaq istəyirəm: "Dünyanın ən nüfuzlu Universitetində - Oksfordda belə bir mərkəzin yaranmasında bizə Nizami Gəncəvinin ruhu da kömək oldu!.. Əlbəttə, bu bir mistika deyil, ürəkdən, milli (və insani) təəssübkeşliklə, xoş məram və məqsədlə görülən hər işin arxasında mütləq müqəddəs qüvvələr dayanır. Və onlar hər cür maneələri usanmadan, pessimizmə qapılmadan, cəsarətlə dəf etməyə ruhlandırır".

Əlbəttə, akademik Nərgiz Paşayevanın şəxsində Azərbaycan elmi ictimaiyyəti Oksford Universitetində belə bir mərkəzin açılmasında nə qədər maraqlı idisə, həmin universitetin elmin, mədəniyyətin qədir-qiymətini dərindən bilən, yüksək qiymətləndirən intellektual mühiti, xüsusən görkəmli şərqşünasları da o qədər maraqlı olmuş, atılan addımın uğuruna, perspektivliliyinə inanmışlar. Və bu məqamda professor Edmund Hersiqin, professor Robert Hoylandın adlarını hörmətlə çəkmək lazım gəlir.

Azərbaycan, Qafqaz qədim (və zəngin) etnik, sosial, dil, din, ədəbiyyat, incəsənət və s. tarixinə görə dünyanın ən unikal məkanlarından biri olmaqla, görünür, Oksford Universitetinin maraq (və tədqiqat) dairəsindən kənarda qala bilməzdi. Odur ki, mərkəz yarandıqdan dərhal sonra müxtəlif istiqamətlərdə araşdırmalara başlanıldı ki, onların nəticələri barədə ictimaiyyətə artıq müəyyən məlumat verilmişdir.

Akademik Nərgiz Paşayeva tərcümeyi-halının (və taleyinin) missiyasını uğurla davam etdirir. Və bu missiyanın mahiyyəti Azərbaycan xalqına - onun dilinə, ədəbiyyatına, mədəniyyətinə sözün böyük mənasında xidmətdən ibarətdir.

***Nizami CƏFƏROV,***
***akademik***

## «AZƏRBAYCAN» qəzetinin 1918-ci il 11 noyabr (Bazar ertəsi günü) tarixli XXXVI nömrəsinin ADA Universitetinin dəstəyi ilə transliterasiyası



# AZƏRBAYCAN

Düşənbə, 4 səfərülmüzəffər sənə 1337.
11 təşrini-sani sənə 1918.

Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir

Məhəlli-idarə:
Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə "Azərbaycan" idarəsi.

Telefon nömrə: 39-60.

Tək nüsxəsi 50 qəpik.

Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır.

Dərc olunmayan övraq iadə edilməz.

Dərc edilən məqalatın mükafatını idarə təyin edir.

Abunə şəraiti:
Yanvarın birinədək Bakı üçün 24, başqa şəhərlərə 35 rublədir.
Bir aylığı Bakıda 12, başqa şəhərlərdə 19 rublədir.

Elan fiatı: sətri 2 rublə. Kərratla gedən elanlar üçün güzəşt edilir.

## ELANİ-RƏSMİ
## [RƏSMİ ELAN]

Acil ehtiyacat [ehtiyaclar] və istimdad [kömək istəmək] üçün telefonla gündüzləri 25-80, gecələri 6-23 nömrəli Polis Müfəttişi-Ümumiliyinə [Baş Polis Müfəttişliyinə] müraciət ediniz.

## AZƏRBAYCAN ŞURAYİ-MİLLİ RƏYASƏTİNDƏN

Azərbaycan Cümhuriyyəti Hökumətinin qərarına və Heyəti-Vükəla Rəisi Fətəli xan Xoyski müraciətinə binaən [əsasən], Azərbaycan Şurayi-Millisinin noyabrın 16-sında iniqad edəcəyi [təşkil ediləcəyi, qurulacağı] bütün Azərbaycan vətəndaşlarına elan ilə bərabər, Şurayi-Milli əzasının [üzvlərinin] yövmiməzkurda [deyilən gündə] Bakıda bulunmalarını rica edirəm. Hər nə səbəbdənsə xüsusi dəvətnamə alammamış olan əzanın işbu elannamə ilə iktifa etmələri [kifayətlənmələri] müstədadır [xahiş olunur].

*Azərbaycan Şurayi-Millisi Rəisi Rəsulzadə Məhəmməd Əmin*

## BAKI, GƏNCƏ VƏ BİLÜMUM [ÜMUMİYYƏTLƏ] AZƏRBAYCAN TACİRLƏRİ İLƏ ƏHALİYƏ ELANİ-RƏSMİ

Talan və ya oğurluq əşyası ilə alış-veriş edən saxtakar xırsızların bir an əvvəl yaxalanmalarını təmin və xalqı saxtakar xırsızların şərlərindən vəqayə [qorumaq] zimnində [yolunda] bərvəchiati [aşağıdakı] təsəvvürat ittixaz olunmuşdur [tədbirlər qəbul edilmişdir]:

1. Heç bir tacirin "şot" təbir olunan rəsmi fatura almadıqca, axər [özgə] tacirdən hər hangi bir vəsilə ilə hər hangi bir şey alması şiddətlə məmnu [qadağan] olduğu kimi, əhalidən də hər kəsin nə tüccarandan [tacirlərdən], nə də qeyri-kimsələrdən rəsmi fatura (şot) almadıqca çit, qumaş, möblə [mebel], xalı, səccadə, mücəvhərat və gümüş əşya, hübubat [dənli bitkilər] və heyvanat, hasili hər növ əşyadan bir şey almaları surəti-qətiyyədə [qəti surətdə] məmnudur [yasaqdır].
2. Şotsuz tutulacaq hər növ əşya və əmtəə miqdarı nə qədər az və ya nə qədər çox olursa olsun, müsadirə olunaraq əlaqədaranı [əlaqədar şəxslər] haqqında şiddətli təqibati-qanuniyyəyə [qanunla nəzərdə tutulan icraatlara] təvəssül olunacağı [başlanacağı] əhəmiyyətlə elan olunur.
3. İşbu elan 10 gün müddətlə nəşr olunacaqdır.

*Azərbaycan Polis*
*müfəttişi-ümumisi Bəhaəddin*

## ELAN

Tüccarın [tacirlərin], mütəahhidlərin [podratçıların] və sənətkarların [istehsalçıların] dəvairi-əsgəriyyə [hərbi qurumlar] tərəfindən, əmtəə yaxud əmələ [işçi] vermələri xüsusunda müraciət edildikdə, sıra bəklənmədən və pək əcələ olaraq işbu tələbi icra etməyə məcbur olduqlarını kəndilərinə elam ilə [bildirməklə], əks təqdirdə müttəhimlər məhkəməyə verilmədən Hökumət tərəfindən şiddətlə cəzaya düçar olacaqlarını elan eylərim.

*Daxiliyyə naziri:*
*Behbud xan Cavanşir*

## ELANİ-RƏSMİ
## [RƏSMİ ELAN]

Saxta polis və zabit uniforması ilə kəndi-kəndilərinə yalandan təhərri [axtarış] məmuru (poiskovı) süsünü [görünüşü] verən İran əhli və bəzi yerli gənc müsəlmanlardan mütəşəkkil bir saxtakar kompaniyası daha təhərri komissarlığı tərəfindən dərdəst edilmişlərdir [tutulmuşdur]. Bunların isticvabatından [sorğu-sual edilməsindən] anlaşıldığına görə, cəbr [zor işlətmək] və təhdid surətilə safdilan [sadəlövh] əhalidən hələ para və sairə alınmaqda və ya qəsb olunmaqdadır. Əhali tamamilə bilməlidir ki, heç bir məmura heç bir surətlə para və sair əşya verilmək haqqı və səlahiyyəti verilməmişdir. Məhbusin [məhbuslar] və mövqufin [saxlanılanlar] və ya hər hangi bir işdən dolayı rüşvət verməklə hər kəs əqrəbasının məhbusiyyət və mövqufiyyətinə [həbsinə və saxlanılmasına] fayda əldə etməyə bədəl [əvəzində; qarşılığında], əlaqədaranı [əlaqədar şəxsləri] şiddət tətbiqinə təşviq edəcəklərindən, kimsə gizli vasitələrə müraciət etməməli və hər hangi bir cəbr və təhdid və ya iğfal [aldatma] vüqunda [baş verdikdə] dərhal: gündüzləri "25-80", gecələri də "6-23" nömrəli Polis Müfəttişi-Ümumiliyinə telefonla məlumat verməlidir. Polis Müfəttişliyi ildırım sürətilə hər kəsin ehtiyac və istimdadına [köməyinə yetişməyə] hazırdır.

*Polis müfəttişi-ümumisi Bəhaəddin*

## QİSMİ-RƏSMİ
## [RƏSMİ HİSSƏ]

**Ədliyyə Nəzarəti əmrləri**
9 təşrini-sani [noyabr]

Gəncə şəhər məhkəmə şöbəsinin istintaq hissəsi məhkəmə müdiri müavini Heydər bəy Şahtaxtinski həman şöbənin məhkəmə işləri müdirliyinə təyin edilir.

Gəncə nahiyə məhkəməsinin dava vəkili Abbasqulu bəy Ağahüseynov Gəncə qəza məhkəməsi müdirliyinə təyin edilir.

*Ədliyyə naziri: Makinski*

**Maarif Nəzarəti əmrləri**
8 təşrini-sani [noyabr]

Nömrə 99
Həmin sənənin təşrini-sanisi birindən etibarən Mirka Natovna Remez-Rabinoviç Bakıda İkinci ünas [qızlar] gimnaziyasında tarixi-təbii [təbiət tarixi] müəllimәliyinə buraxılır.

Nömrə 101
Həmin sənənin təşrini-sanisi birindən etibarən Ərəkit məktəbi müəllimi Ağaisa Əbdürrəhmanov Quba qəzası xalq məktəbləri müfəttişliyi dəftərdarlığına təsdiq edilir.

Nömrə 102
Həmin sənənin təşrini-sanisi birindən etibarən Nina Mixaylovna Kolobova Bakı Üçüncü ünas gimnaziyasında rus lisanı müəllimәliyinə buraxılır.

Nömrə 109
Həmin sənənin təşrini-sanisi birindən etibarən Mehdi ağa Əlizadə Bakı İkinci realnı məktəbinin milli - tədrisə buraxılır.

*Maarif naziri: Yusifbəyli*

## PARLAMAN SƏDRİNƏ MƏKTUB

Bu yaxınlarda Bakıda vüqu bulacaq Milli Parlaman dəvəti münasibətilə Azərbaycan Rəisi-Vükəlası [Baş Naziri] Fətəli xan Xoyski həzrətləri Parlaman Sədri Rəsulzadə Məhəmməd Əmin bəyə böylə bir məktub yazmışdır:

Möhtərəm Məhəmməd Əmin!

Azərbaycan Məclisi-Müəssisanı dəvəti qəbul edildiyi münasibətilə Azərbaycan Məclisi-Müəssisanına seçki qanun layihəsi tərtibinə şüru edilmişsə də [başlanmışsa da], üsuli-intixabın [seçki üsulunun] qarışıq və çətin olduğuna görə, seçki bir qədər təxirə uğraya biləcəkdir, fəqət dövlət nöqteyi-nəzərindən qarşımızda durmuş mühüm məsələlər həllində bütün xalqın iştirak etməsini imkandan xaric görmüş Hökumət 9 təşrini-sani [noyabr] tarixli iclasında bu ayın 16-sında Bakı-da hazırki Hökuməti intixab etmiş [seçmiş] və kəndi qətnaməsilə buraxılmış Məclisi-Millini dəvət etməyi təhti-qərara almışdır.

Bununla bərabər, Hökumət arzu edir ki, Məclisi-Milli ənqərib [yaxın] bir zamanda öz heyətini müəyyən bir üsul üzrə əqəliyyət [azlıq] təşkil edən millətlərin nümayəndələrini dəvətlə təkmil etsin [kamilləşdirsin; tamamlasın]. Bu xüsusu zatialilərinizə bildirərək, Milli Şura sədri olmağınız həsəbi [səbəbi] ilə rica edirəm ki, Məclisi-Millinin vaxtı-müəyyəndə [müəyyən edilmiş vaxtda] yığışmasına səy edəsiniz.

## TELEQRAF XƏBƏRLƏRİ

**Avstriyada**

Peştədən xəbər verirlər ki, Karolyi kabinəsi Macarıstan idarəsini öz əlinə almışdır. İtaliya ilə mütarikə müzakiratı [atəşkəs müzakirələri] davam etməkdədir. Cənub sərhədin mühafizəsi üçün tədbirlər ittixaz edilmişdir [görülmüşdür]. Hal-hazırda Peştə şəhəri bayram surətini kəsb etmişdir [almışdır]. Hamı evlər bayraqlarla təzyin edilmişdir [bəzənmişdir]. Əsgəri həbsxanalardan hamı siyasi məhbuslar azad edilmişlərdir.

* Berlindən teleqraf edirlər: Macarıstan Milli Şurası tərəfindən verilən manifestdə deyilir ki, bu yaxınlarda arvad və kişilərin ümumi seçki hüququna malik olacaqları icraya qoyulacaqdır. Bir həftədən sonra təzə seçkilər başlanacaqdır. Sosial-demokratların buraxdıqları intibahnamədə [təbliğat vərəqəsində] deyilir ki, ağalıq edən siniflərin xudpəsəndlikləri [özündənrazılıqları] məmləkəti inqilaba düçar etdi. Əsgərlər çaharşənbə [çərşənbə] günü axşam Milli Şura tərəfinə keçmişləridir. Əks-inqilab hələ də hökuməti öz əlinə almağa ümidvardır. Peştədən xəbər verilir ki, Tuna donanması da Milli Şuranı etiraf [qəbul] etmişdir.

* Vyanadan verilən xəbərlərə görə, Hökumət Şurası bugünkü iclasda qərara almışdır ki: Almaniya-Avstriyanın xüsusi ordusu yoxdur. Ordunun slav macarlardan ibarət olan çox hissəsi daha artıq müharibə etmək istəmir. Buna görə də Almaniya-Avstriyanın bundan belə təklikdə müharibə etmək halı yoxdur. Avstriyanın almanlarla məskun olan hissəsi Almaniya ilə bərabər müharibə etmək bacarmadığı halda, sadiq dost kimi indi də Almaniya tərəfində durub Almaniyanın rizası ilə sülh müzakiratı aparmaq arzusundadır. Cənubi Tirol, Avstriyanın almanlarla məskun hissəsinin ayrılmaz parçasıədd [hesab] edilməkdədir. Əhval dürüst aşkar olana qədər alman millətindən olan qulluqçuların öz qulluqlarında qalmaları qərara alınmışdır. Başqa millətdən olan qulluqçular tədriclə öz milli hökumətləri ixtiyarına veriləcəklərdir.

* Vyanadan xəbər verirlər ki, Bohemiyada olan alman məmurları başlarını itirib müqavimət göstərmədən öz vəzifələrini çexlərə vagüzar edirlər [tapşırırlar]. Slavlarla italyanlar arasında Triestdə toqquşma olmuşdur. Slavlar Triestdə ümumi bir hökumət təşkilini tələb edirlər. İtalyanlar isə buna razı deyildirlər. Buna görə də iş toqquşmaya müncər olmuşdur [çatmışdır].

* Berndən xəbər verirlər ki, Bolqariya əhvalı Serbiyaya da sirayət edib, orada da saldat və fəhlə şuraları təşkil edilmişdir. Bu şuralar ciddi surətdə öz fəaliyyətlərini genişləndirməkdədirlər. Tezliklə ümumi sülh əqd edilməsi [imzalanması] üçün bilaaram [aramsız] nümayişlər vaqe olmaqdadır. İsveçrədə yaşayan Serbiya saldatları nümayişçilərə təbrik teleqrafı göndərmişlərdir.

## SÜLH ƏTRAFINDA

Lion - Təşrini-saninin [noyabrın] 5-ində Avstriya Hökuməti Müttəfiq dövlətlər tərəfindən təklif edilən mütarikə şəraitini [atəşkəs şərtlərini] imza etmişdir.

Düşmənanə hərəkat bu gün dayandırılmışdır. Çaharşənbə günü Məclisi-Məbusanda Klemanso Avstriya ilə Müttəfiq dövlətlər arasında əqd edilən [imzalanan] mütarikə şəraitini oxumuşdur. Bu şərait üzrə quruda, suda və havada düşmənanə hərəkatın dayandırılması və ümumən əsgərlərin buraxılması, bundan əlavə Müttəfiq dövlətlərin dəmiryollarda azad bir surətdə əsgər nəql etməsilə bir para sövqülceyş nöqtələrinin [hərbi baxımdan stratejik nöqtələrin] zəbti tələb edilir. On beş gün müddətində alman əsgərləri Avstriyanı tərk etməlidirlər. Avstriyada olan Müttəfiq dövlət təbəələri və hərbi əsirlər öz vətənlərinə qaytarılmalıdırlar. Bəhriyyə [donanma] işləri şəraitində [şərtlərində] deyilir ki: Avstriya gəmilərinin dayandıqları və hərəkət edəcəkləri yerlər dürüst göstərilməlidirlər. Bundan əlavə, Avstriya donanmasından 15 sualtı qayığı, 3 dənə drednot və 3 dənə yüngül zirehli və 6 dənə Tuna nəhrindəki paraxodlar Müttəfiqlərə təslim edilib, Müttəfiqlərin kontrolu altında olan başqa paraxodların hamısı tərk-silah edilməlidirlər. Bunlarla bərabər, hava və donanma qüvvələri Müttəfiqlər tərəfindən göstəriləcək mövqeyə cəm olmalıdırlar.

Berlin - Rəsmi surətdə verilən xəbərlərə görə, mütarikə əqd edib [atəşkəs imzalayıb] sülh müzakiratı [müzakirələri] başlamaqdan ötrü alman heyəti təşrini-saninin [noyabrın] 6-sında günortadan sonra Berlindən çıxıb qərb tərəfə hərəkət etmişdir.

**Vilsonun cavabı**

Berlindən xəbər verirlər ki, Almaniya Hökumətinin axırıncı notasına simsiz teleqrafla Vilsonun cavabı alınmışdır.

**İngiltərənin sülhə razı olması**

Qəzetələrin verdikləri xəbərə görə, Amerika dairələrində elan edilmişdir ki, İngiltərə şərəfli sülh müzakiratının başlanması haqqında Amerika nümayəndələrinə öz razılığını vermişdir. Lakin müstəmləkat [müstəmləkələr] haqqında aşkar bir cavab olmadığı göstərilir.

**Müttəfiqlərin mütarikə şəraiti**

Zahirən İngiltərə Hökuməti sualtı qayıqlarının əvvəlcədən təslim olunmalarını mütarikə şəraitindən hesab etməyi lazım bilir. Şimal dənizi donanmasının tərk-silah edilməsi o qədər də lazımlı görülmür.

Bundan əlavə, Fransa Hökuməti Elzas-Lorenin qəti surətdə təmizlənməsini tələb etməkdədir. Vaşinqton, London və Paris arasında ixtilaf davam edirsə də, müşahidə olduğuna görə, ümdə maddələr haqqında saziş hüsulə gəlmişdir. Dənizlərin azad buraxılması məsələsi ixtilafa bais olmuşdur. Gəmilər və su mühasirəsinə nəzarət hüququna Amerika tərəfindən göstərilən mümaniət [maneçilik] həqiqi olmayıb, zahiri qalmaqdadır. Hərb əhvalına gəldikdə qeyd edirlər ki, düşmən tərəfindən təmizlənən yerlər təqib edənlərin işlərini artırmışdır. Müttəfiqlər təzədən dəmiryollar çəkib, bu yollarla top və mühümmat [təchizat] nəql etməkdədirlər. Təzə mövqelərdə təzə hücuma olan hazırlıqlar uzun işdir. Bununla belə, Foş bacardığı yerdə təcili və güclü hücumlar yapmaqdadır. Bununla o, düşmən ehtiyat əsgərlərinin qurtarmasına müvəffəq ola bilər.

İngiltərə və Fransa hökumətləri sülh şəraiti haqqında Vilsonla müxabiratda bulunmaqdadırlar [danışıqlar aparmaqdadırlar]. İngiltərə Hökuməti 8 milyon ton gəmi tələfatı əvəzində alman sualtı qayıqlarının tərk-silah və təslim edilmələrini tələb etməkdədir. Fransa Hökuməti Elzas-Lorenin təmizlənməsini təkid etməkdədir.

**Almaniya müstəmləkatı**

Londrada Balfur öz nitqində Britaniya müstəmləkatı miyanında [arasında] əlaqəni saxlamaq barəsində demişdir ki: Biz işbu əlaqənin heç bir düşmən tərəfindən kəsilməsinə razı ola bilmərik. Müstəmləkat Almaniyaya qaytarılırsa, onların bəhri müharibədən [dəniz müharibəsindən] ötrü mövze [baza] şəklində işlədilməyəcəyinə kim təminat verəcəkdir?

Balfur buna cavab olaraq demişdir ki, İngiltərə heç Almaniya müstəmləkatının qaytarılmasına razı olmayacaqdır.

**Elzas-Loren haqqında Vilson**

Vilson aşkar surətdə Elzas-Lorenin Fransaya qaytarılmasını izhar [ifadə] etmişdir.

* * *

"T. N." qəzetəsi mühəririnin sualına Almaniya mürəxxəsliyində [nümayəndəliyində] demişlər ki, İstanbul Almaniya qoşunlarından təmizlənib, Müttəfiqlər tərəfindən işğal edilmişdir. Müttəfiqlər Almaniya qoşunlarının bir ayadək getmələrini təmin etmişlər. Bir ayadək getməyənlər tövqif [həbs] ediləcəklər. Mürəxxəslik Dardanel barədə məlumat verməmişdir.

**Almaniyada**

Tiflisdə Almaniya mürəxxəsliyi məlumatına görə, Almaniya rahatlıqdır. Sülh müzakiratı başlanmışdır. Cəbhəyə xüsusi komisyon getmişdir. Vilsondan alınmış xəbərlərə görə, tərəfeyn [iki tərəf də] müzakirata girişə bilərmiş. Bütün Almaniya mətbuatı kayzer ilə iştiğal edir [məşğul olmaqdadır]. Hətta sollar belə deyirlər ki, kayzerin xəl'i [hakimiyyətdən salınması], işi fənalaşdıracaqdır.

**Zaqafqaziyanın əhvalı**

Tiflisdəki Almaniya mürəxxəsliyindəki [nümayəndəliyindəki] müsahibədə deyilmişdir ki, Sülh Konqresində Zaqafqaziyadakı üç hökumətin təsdiq ediləcəyi möhtəməldir [ehtimal olunandır]. İsveçrə və Danimarka Gürcüstanı təsdiq etdikdə, məlum olduğu üzrə Fransa və İngiltərənin təsvibi [razılığı] ilə etmişlərdir.

## QƏZETƏLƏRDƏN

**Almaniya-Rusiya ixtilafı**

Berlin - Şura Rusiyası nümayəndəsi xidmətçisinin əşyası Fridrixştadt vağzalında zədələnərək, alman lisanında çap edilmiş, tədhiş [terror] və inqilaba dəvətedici intibahnamələr [vərəqələr] ətrafa dağılmışdır. Bundan dolayı Almaniya Hökuməti Rusiya Hökumətindən daxili Almaniyada bir daha belə təşəbbüsatda bulunmamaq üçün təminat tələb etmişdir. Bununla bərabər, Moskvada qətl edilmiş qraf Mirbaxın da qanını Almaniya Rusiyadan tələb edir. İşbu tələbata əməl oluncaya qədər, Almaniya Hökuməti öz siyasi nümayəndələrini Rusiyadan geri çağırmaqla Rusiyaya təklif etmişdir ki, öz siyasi nümayəndələrini Rusiyaya dəvət etsin.

**Kremldən radio**

Kremldən təşrini-saninin [noyabrın] 5-i saat 21.40 dəqiqədə, 1223 və 136 nömrə təhtində [altında] verilmiş teleqram.

Bütün hərbi komissarlara, bütün ordu komandanlarına, bütün şuralara.

Almaniya Hökuməti oradakı Rusiya nümayəndəsini inqilab təbliğ-təşviqatında, Rusiya Hökumətini qraf Mirbaxın qatillərinə cəza verməməkdə müttəhim edərək 24 saatın ərzində öz rəsmi nümayəndələrini geri çağırmış və bir həftəyədək Rusiya nümayəndələrinin öz vətənlərinə qayıtmasını tələb etmişdir. Bu məsələ Almaniya tələbatına əməl edilənə kimi davam edəcəkdir. Almaniyanın üzərimizə hərb açması görülməyirsə də, yenə hər halda hazır olmalıdır. Ağqvardiyalıların üzərimizə yürüməsi ehtimalı vardır. Bundan dolayı lazım gələn bütün tədabiri ittixaz etməlidir [tədbirlər alınmalıdır].

*Xarici İşlər xalq komissarı Çiçerin, Xalq Komissarları Şurası sədri Lenin, Mərkəzi İcra Komitəsi sədri Sverdlov.*

**Bolşevizmlə mübarizə**

Berlin - "Berliner Zeytunq" qəzetəsi Şura Rusiyası əleyhinə aparılacaq müharibə planını böylə təsvir edir: Skoropadski, Krasnov, Denikin bolşeviklər üzərinə atılmaqdan ötrü ittifaq əqd etmişlər [bağlamışlar]. Təərrüz [hücum] vaxti-müəyyənədə [müəyyən edilmiş vaxtda] Finlandiya və cənub-şərqdən başlanmalıdır. Nemes burjuaziyası ağqvardiya[lı]lara fəqət ləvazimati-hərbiyyə və para ilə müavinətdə [yardımda] bulunmalıdır.

Moskva - 5 təşrini-sani [noyabr]. Qərbin burjuaziya mətbuatında inqilab dəhşətindən qorxu müşahidə edilməktədir. Şura Rusiyası əleyhində böhtan gün-gündən çoxalmaqdadır. Almaniya, İngiltərə, İsveç, Finlandiya qəzetələri[ndə] bolşevizmlə başlanacaq müharibələr üçün bir çox layihələr hazırlanır.

Stokholm - İsveç mətbuatı fəqət bolşevizmlə iştiğal edir [məşğul olur]. Mühafizəkar qəzetələr Hökumətdən gün-gündən tərəqqi edən İsveç bolşevikləri ilə mübarizəni tələb edirlər.

**Armavirin işğalı**

Könüllü ordu ərkani-hərb idarəsi [qərargahı] təşrini-əvvəlin [oktyabrın] 26-sında Armavirin Könüllü ordu tərəfindən işğal edildiyini xəbər verir.

## NƏZARƏTLƏRDƏ
## [NAZİRLİKLƏRDƏ]

**Azərbaycan Parlamanı dəvəti**

Hökumətin 9 təşrini-sani [noyabr] tarixli iclasında qərar verilmişdir ki, təşrini-saninin 16-sında Azərbaycan Müsəlman Milli Şurası dəvət edilsin. Şuraya bütün sinif və əqəliyyət [azlıq] təşkil edən millətlər nümayəndələri dəxi dəvət olunaraq, əzasının [üzvlərinin] miqdarı 120-yədək artırılacaqdır.

**Azərbaycan bayrağı**

Yenə həman iclasda Azərbaycan bayrağı layihəsi təsdiq edilmişdir. Bayraq yaşıl, qırmızı və mai [mavi] rəng olub üzərində hilal və 8 guşəli yıldız olacaqdır.

**Zaqafqaziya Konfransı**

Zaqafqaziya Konfransında Azərbaycan nümayəndəliyinə M. A. Vəkilov və Gürcüstan Hökuməti nəzdində Azərbaycan siyasi nümayəndəsi M. Y. Cəfərov cənabları təyin edilmişlərdir.

* * *

- 9 təşrini-sani [noyabr] tarixli Azərbaycan Hökuməti iclasında qərar ver[il]mişdir ki, Bakıda yaşayan əhalinin ən çox mütəzərrir olanlarına [ziyana uğrayanlarına] bilafərqi-millət [hansı millətdən olursa-olsun] müavinətdə [yardımda] bulunmaq üçün Nafiə və Səhhəti-Ümumiyyə [Sosial Təminat və Xalq Səhiyyəsi] nazirinə 150 min rublə para buraxılsın.

* * *

- Maliyyə Nəzarəti yeni bir layihə tərtib vermişdir. Məzkur [adıçəkilən] layihəyə görə, Məclisi-Müəssisan açılanadək vergilərin dürüst alınmaması xüsusundakı şikayətlərə müvəqqət olaraq Şurayi-Vüzəra [Nazirlər Kabineti] baxacaqdır.

* * *

- Maliyyə Nəzarəti ispirtolu içkilər satışı patentinin qiymətlərini artıracaqdır.

* * *

- Əmanət sandıqları [kassaları] müamilatının [əməliyyatlarının] islahı haqqında Maliyyə Nəzarəti tərəfindən Hökumətə bir layihə təqdim edilmişdir. Bu layihəyə görə əmanət sandıqları işlərinə baxan sabiq müəssisələrlə şimdikilərin münasibat və rabitələri nizama salınanadək əski tövdiatın [əmanətlərin] iadəsi [qaytarılması] dayandırılmalıdır. Bakının işğalından sonra verilən tövdiat isə bilatəhdid [məbləğindən asılı olmadan] veriləcəkdir.

## ZƏNGƏZUR XƏSARƏTİ

1917-inci sənəsi dekabr ayından 1918 sənəsi avqust ayına qədər Gəncə mahalında ermənilər tərəfindən xarab edilən kəndlər haqqında Gəncə valisi Azərbaycan Daxiliyyə Nəzarətinə məlumat göndərmişdir. Əzcümlə [o cümlədən] Zəngəzur naçalnikinin raporu göndərilmişdir. Bu raporda xarab edilən kəndlərin siyahısı və toxunan xəsarət bu qərar üzrə göstərilir:

1 - Kürdlər kəndi 1917 sənəsi dekabr ayında xarab edilib 150 min rublə zərər və xəsarət olmuşdur.
2 - İrimis kəndi dekabr ayında dağıdılıb 8 adam qətl edilməklə 180 min rublə zərər vurulmuşdur.
3 - Baharlı kəndi xarab edilib 9 nəfər qətl edilməklə yüz min rublə zərər verilmişdir.
4 - Dulus kəndi dekabr ayında dağıdılıb 90 min rublə xəsarət olmuşdur.
5 - Qarakilsə kəndi yanvar ayında xarab edilib 49 nəfər qətl edilməklə 9 milyon rublə xəsarət toxunmuşdur.
6 - Məliklər kəndi yanvar ayında qarət edilib 150 nəfər qətl edilməklə 3 yüz min rublə xəsarət toxunmuşdur.
7 - Pul kəndi xarab edilib 19 nəfər qətl edilməklə 160 min rublə xəsarət olmuşdur.
8 - Arıqlı kəndi aprel ayında xarab edilib 25 nəfər qətl edilməklə 120 min rublə zərər olmuşdur.
9 - Dəstəgird kəndi aprel ayında xarab edilib yüz min rublə xəsarət toxunmuşdur.
10 - Şükar kəndi iyun ayında xarab edilib 95 nəfər qətl edilməklə 5 yüz min rublə xəsarət olmuşdur.
11 - Zabazadur kəndi aprel ayında xarab edilib 90 min rublə zərər və ziyan toxunmuşdur.
12 - Şəki kəndi avqust ayında xarab edilib 95 nəfər qətl edilməklə 16 milyon rublə xəsarət olmuşdur.
13 - Yaqub[lu] kəndi avqust ayında xarab edilib 28 nəfər qətl edilməklə 6 milyon xəsarət toxunmuşdur.
14 - Qızılcıq kəndi avqustda xarab edilib 27 nəfər qətl edilməklə 5 milyon rublə xəsarət olmuşdur.
15 - Vağudi kəndi avqustda xarab edilib 96 nəfər öldürülmüş və 13 milyon zərər dəymişdir.
16 - Sisyan kəndi xarab edilib 60 adam ölmüş və 8 yüz min rublə zərər olmuşdur.

## TÜRKÜN DƏRDİ
## (Bu günün gənclərinə)

Fövqümdə oynayan bir qara bulut
Yurdun bağrına bin yaslar saçıyor.
Dərd qanmayan şu el, şu canlı tabut
Ölüm dünyasına yollar açıyor.

Mazi sevinc ilə daim gülümsər,
Fəqət pək hüzünlü, pək qəmlidir hal.
Müdhiş bir uçurum iştə istiqbal
Hər bir düşüncəyə zəhərlər sərpər.

Yarın pək sislidir, bir şey bilinməz,
Bilinməyən şeylər qorxulu olur.
Həyat bir aləm ki, qəmdən silinməz,
Bu aləm qayğularla dop-doludur.

İştə həyat ilə çarpışmaq için
Sarsılmaz imanlar, möhkəm qüvvətlər,
Aydın düşüncələr, nurlu hikmətlər
Lazımdır.. Bunlar həp mütləqa sənin

# «AZƏRBAYCAN» qəzetinin 1918-ci il 11 noyabr (Bazar ertəsi günü) tarixli XXXVI nömrəsinin ADA Universitetinin dəstəyi ilə transliterasiyası

Ey münəvvər gənclik kəndinə aid.
Bu gün etməz isən fikrini təcdid,
Qəlbinə soxmazsan həyat hissini
Yarın – bir əjdəha, qəhr edər səni.

*Bakı, 1 təşrini-sani 1334*
*Mütəllib oğlu Abid Alp*

## AZƏRBAYCANDA

**Gəncə qəzasında**

Novo-Saratov kənd yüzbaşısının verdiyi məlumatdan anlaşılır ki, Qazax qəzasındakı Başkənd erməniləri xətti-hüdudu keçərək Gəncə qəzasındakı dövlət meşələrinin 5-inci dairəsindən ağacları qırıb gizlicə aparırmışlar. Kənd yüzbaşısının istimdad [yardım] tələbinə görə qəza qaimməqamı Azərbaycan ordusu zabitanından Camal bəy komandası altında olaraq bir dəstə süvari ağac kəsilən yerə gəlir. Orada qırx "araba" odun ilə dolu getməyə hazırlandığını görürlər. Bunların odun qırmağa bir vəsiqələri olmadığını anladıqda, hazırlanmış odunu tövqif [həbs] etmək fikri ilə əsgərlər irəli keçirlər. Bundan bilistifadə [istifadə edərək] geridə qalmış xırsızlar kəminə [pusquya] girib müsəlmanları atəşə tuturlar. Camal bəy həman dəqiqə müdaifə vəziyyəti aldıqdan sonra xırsızlara cavab verməyə başlayır. Atışma səsindən xırsızlar tamamən qaçıb getdikdən sonra bir nəfər ölmüş düşür. Gəncə valisi tərəfindən Qazax qəzası qaimməqamına ol xüsusda lazımi binagüzarlıq etmək [sərəncam vermək] əmri verilmişdir.

* * *

Zaqatal nahiyəsindən alınmış raportlardan məlum olur ki, Zaqatalada şiddətli surətdə xırsızlıq davam edir. Hər gün kəndlərdən öküz, dana, at və başqa heyvanların oğurlanması xəbəri gəlir. Bu vaxtadək Zaqataladakı xırsızlıqların qarşısı alınmamışdır.

## MƏKTƏBLƏRİMİZ

İki məktəbin halından söyləyəcəyəm. Birisi "Səadət", digəri Qafqaziyada deyil, Rusiyada belə birinci sanılan Bakı Sənət məktəbidir. Bunların birinci[si] Qafqaziya islamları üçün lisan və milli tərbiyə cəhətindən ən vacib və lazım bir məktəbdir. Bu məktəbi təsis etdiyimiz vaxt həp müsəlman əhalisi övladını gimnaziyalardan, digər edadilərdən və rüşdilərdən ixrac edib bu məktəbə verirdilər. Bu məktəb üçün hər kəs hər şeydən keçməyə hazır idi. Bunun gələcəyinə bəslədiyimiz böyük ümidləri bunun başında duran Hüseynzadə Əli bəy kimi filosofumuz və mütəəddid [çox sayda] müəllim bir az da artırmaqda idi. O zaman laəqəl [heç olmazsa; ən azından] bu məktəbdə bir üsul, bir taqım layiqli müəllimlər olduğundan, buradan çıxan gənclərimiz heç olmazsa türk lisanını bilir və adabını [qayda-qanunlarını] anlayırdı. Lakin bugünkü "Səadət"in, istər üsuli-tədrisinə, istərsə heyəti-müəlliminin [müəllim heyətinin] ləyaqətsiz və başqa işlərinə camaat tərəfindən və Hökumət tərəfindən həlalik bir əhəmiyyət verən yoxdur.

Əcəba iş başlanarkən sərf edilmiş bu qədər əməklər, bu qədər para bəs nerəyə getdi? Bu məktəbə nə üçün layiqincə əhəmiyyət verilmir? Axır bu məktəbdən çıxan balalarımız heç bir məktəbə daxil olammadığından, səfil və sərgərdan qalır. Məktəb bitirənin bir sənətkar, yaxud bir alim olmaq arzusu bir dəfə bu zavallı türk balalarının da könlündən keçmirmi? Milli tərbiyə və milli lisana o zaman nəşvünəma vermək [onu inkişaf etdirmək] olar ki, "Səadət" kimi məktəblərimizdə təhsil görmüş çocuqlarımızın istiqbalı [gələcəyi] təmin edilsin. Bunun üçün də bu gün çalışmalıdır. Çünki hər bir şey fəqət inqilab zamanı meydana gələ bilər, eyi, yaxud kötü bir mövqe tutular, sonradan həyat adi bir qanuna təbəiyyət etdikdə [tabe olduqda], o mövqe əldən getməz. İştə Nikolayın dövri-müstəbidəsində [istibdad dövründə] "Səadət" məktəbində istədiyimiz bir proqram icrasına imkan verilmirdisə, bu gün artıq məktəbimizi islah üçün bizə bir maneə çıxaran olmayacaqdır.

Bu gün bu məktəbi islah etmək lazımdır. Əks halda bir əmri-vaqe [fakt; gerçəklik] kimi hali-ehtizarda [can verməkdə; son nəfəsini verməkdə] olan "Səadət" həyat səhnəsindən büsbütün çəkiləcəkdir. Bunun üçün bir əlac aramalıdır.

* * *

Sənət məktəbinə keçəlim. Bu məktəbin mövcudiyyəti biz azərbaycanlılar üçün ən böyük əhəmiyyəti haiz [daşıyan] bir şeydir. Bunun elektrik, neft və məadin [mədənlər] memarı [mühəndisi] kimi üç geniş proqramlı böyük şöbələri olmaqla bərabər, xırda çocuqlarımız üçün həkkak və minaçılıq şöbəsi, açarçı-yozaqçılıq (слесарный), dülgər və xərratlıqla, mexaniki və çox başqa şöbələri də vardır ki, buranı bitirmişlər həqiqətən öz sənətində sözün tam mənası ilə bir mahir olur. Bunlardan maəda [başqa] sənayeyi-nəfisədən [incəsənət növlərindən]ədd [hesab] edilən heykəltəraşlıq (istər kirəc, istər ağ daşdan yapma olsun) üçün də xüsusi şöbə açıqdır. Bu şöbədə böyük-kiçik hər kəs xahiş etsə, bu sənəti öyrənə biləcəkdir.

Gərək Bakı, gərəksə Azərbaycanda bundan böylə sənaətə [ustalıq və sənətkarlığa] ediləcək diqqət üçün və sənaətin tərəqqisi üçün Bakı Sənaye məktəbi birinci mövqe tutur. Bu gün istər elektrik, istər mexaniki, istər memari sənayedə bir çox sənətkarlarımız olmalıdır. Lakin nə dəmiryollarında, nə emalatxanalarda, nə zavodlarda müsəlmanlardan əhəmiyyətli mexanik, müdir və nazir [mühəndis; müfəttiş] yerlərini tutan yoxdur. Böylə bir məktəbimiz olduğu və Bakıda şu qədər müsəlman yaşadığı halda, sənaət müəssisələri tamamən bizim əlimizdə olmalıydı. Nədənsə xaricilər Rusiyanın ən uzaq yerlərindən gəlib, təhsil üçün Bakıya gəldikləri halda, Bakının özündə yaşayan islam balalarını bu məktəbə verməkdən imtina edirdilər. Hər halda bu məktəbə daxil olmaq irəlidə müsabiqə və imtahanla olurdusa, şimdi ali-ibtidai məktəbləri itmam etmişlər [bitirənlər] bu məktəbə imtahansız qəbul ediləcəklər. Bu xüsusda atalarımız diqqətsizlik göstərməməsiylə, cavanlarımızın buna qeyrət edəcəyinə ümid ediriz. Daxil olmaq üçün ərizə verməyə hələ imkan vardır. Bütün Bakı İslamlarını[n] mümkün olduqca Azərbaycanın bircə dənə olan sənət məktəbini mənəvi cəhətdən əlimizə almaq üçün ibrazi-hümmət etmələri [hümmət göstərmələri, səy göstərmələri] mütəmənnadır [arzuediləndir]. İşbu məktəbin, gələcək həyatımızın ən lazımlı ünsürlərini hazırlayacağı təbii bir məsələdir. Müstəqil bir millətdə sənət və ticarətin tərəqqisi lazım olduğu üçün yeganə bir sənət məktəbimizə xüsusi əhəmiyyət verməliyiz.

*M. H.*

## TƏSHİH [DÜZƏLİŞ]

Gəncə Milli Zabitan Məktəbinin təftiş mərasimi haqqında qəzetəmizin 21-inci nömrəsində verilmiş olan məlumatda məktəbin təftişə qədər üç ay yarım davam etmiş olduğu yazılmışdır. Halbuki təlimgah (məktəb) eylül [sentyabr] ayının birində açılmış olduğundan, məsaisi [fəaliyyəti] üç ay yarım deyil, ancaq bir ay yarım olduğunu qeydlə təshihi-keyfiyyət ediriz [məlumata düzəliş edirik; həqiqi vəziyyəti deyirik].

## BAKI XƏBƏRLƏRİ

* Bələdiyyə İdarəsi bir neçə növbətdən xaric iclaslar quraraq bir neçə məsələlər həll etmişdir. Birinci iclası ayın 8-ində olub su kəməri məsələsinə baxılmışdır.

Bura xidmətçilərinin hesabı azaldılmaqla bərabər, məvaciblərinin də azalmasını qət etmişdir. Xidmətçilərin əksəri əlavəli məvacib aldıqları üçün işbu məvaciblər əksildilib bərabər edilmişdir.

* Bələdiyyə İdarəsinin inşaat şöbəsi qarşısında bir çox mühüm məsələlər vardır. Məsələn məktəb imarətlərinin təmiri, xəstəxana, müalicəxanalar və mərmidən zədələnmiş qəssabxanalarını, şəhər şose və soqaqlarını təmir etmək, bundan əlavə bütün şəhər mühümmatını [təchizatını] anbarlara toplayaraq siyahı etmək lazım gəlir. Bunun üçün külli miqdarda pul və vəsaili-nəqliyyə [nəqliyyat vasitələri] lazımdır.

Binaileyh [ona görə], məzkur [adı çəkilən] şöbə Bələdiyyə İdarəsinə müraciətlə təvəqqe etmişdir ki, əvvəla inşaat şöbəsinin arabaları fəaliyyəti təcdid [bərpa] edilsin. Bunun üçün əqəllən [ən azı] üç yük avtomobili və 30 araba lazımdır. İkinci, Bələdiyyə İdarəsindən təvəqqe olunur ki, Hökumətə müraciətlə şəhər arabaları durduqları yerlərdə və soqaqlarda həcz [müsadirə] edilməmək üçün onlara və qulluqçulara vəsiqə verilməsi barəsində təşəbbüsatda bulunsun. Üçüncüsü, inşaat şöbəsi xidmətçilərinə iki fayton verilsin. Baş mühəndisə həftədə əqəllən üç dəfə səhər saat 8-dən 10-adək avtomobil verilsin. Əvvəlcə qəti surətdə bəyan etmişdir ki, işbu tələbata əməl edilməzsə, vəzifələrini hüsni-ifadan [layiqincə yerinə yetirməkdən] aciz qalacaqdır. Bu isə Bələdiyyə işlərinə zərərdir.

* Bir çox müəssisə və zəvat [şəxslər] kağızdan ötrü Maarif Nəzarəti nəzdində təşəbbüsatda bulunurlar; bunun namüsaid olduğundan naşi [ötrü] 1918 sənədə təsis edilmiş "Kağız Təqsimi [Paylanması] və Hesabı Şurası" fəaliyyətini təcdid [bərpa] etsin. İşbu Şura üç nəfər Hökumət nümayəndəsi, 4 nəfər də məhəlli [yerli] kağız anbarları sahibləri nümayəndələrindən ibarət idi.

* Bələdiyyə Məclisi maliyyə şöbəsinin 6 təşrini-sani [noyabr] tarixli iclasında Bələdiyyə qulluqçularının məvacibləri artması məsələsi müzakirə edilmişdir. Ayda 300 rubldən 399 rubləyədək alanlar 200 rublə əlavə alacaqlar. 400-dən 499 rubləyədək alanlar 250 rublə əlavə, 500-dən 599-adək alanlar 300 rublə əlavə, 500 və yuxarı alanlar 300 rublə əlavə alacaqlardır.

* Hal-hazırda neft sahibləri ilə Ticarət və Sənaət Nəzarəti miyanında [arasında] hesaba alınmış neftin qaytarılmasından ötrü müzakirat [müzakirələr] davam etməkdədir.

Müzakirə həlalik heç bir nəticə verməmişdir, fəqət bir neçə müştərək müşavirələr olacaqdır. Neftçilər miyanında dəvəran edən [dolaşan] şayiata [şayiələrə] görə, Hökumət neftin putuna dörd manatadək qiymət təyin etməyə razılıq vermişdir. Neftçilər isə puta 5 manat təklif etmişlər. Bununla bərabər, neftçilər gələn sənə hesabına 75 faiz də qərz [borc] istəyirlər. Şayiata görə Hökumət hal-hazırda neftin nisfini [yarısını] təhti-inhisara [inhisar altına] almaq istəyirmiş.

**Tələbələr ictiması [yığıncağı]**

Təşrini-saninin [noyabrın] 15-ində saat 4-də Türk Ocağı mənzilində olacaq türk tələbələri ictiması vüqu bulmasına Bakı valisi tərəfindən icazə verilmişdir. Həmin günə təyin edilmiş iclas bu ya o səbəblə baş tutmadıqda, 18 təşrini-sani saat 4-ə təxir edilə bilər.

## İRƏVAN QUBERNİYASI MÜSƏLMANLARININ HALI

İrəvan quberniyasında yaşayan dörd yüz minə yavuq müsəlman əhalisi bu gün ən pərişan, ən ümidsiz bir halda bulunur. Türk əsgərləri buraya gəlmədən əqdəm [əvvəl] köylərdə, şəhərlərdə bulunan camaatın həyatı bir tükdən asılmışdı. O vaxtlar erməni ştabının səvabdidi [təsdiqləməsi; icazəsi] və əmrilə iki yüzdən ziyadə müsəlman köyləri atəşə tutulub, iki yüz mindən artıq müsəlman kəndçisi yersiz və yurdsuz qalıb, olmazın əza və cəfalara, aclığa, müsri [yoluxucu] naxoşluqlara giriftar oldu.

Müsəlmanlar böylə bir dəhşətli dəqiqələr keçirərkən, türk qoşunları İrəvan quberniyasına daxil oldular. Bunların buraya daxil olmaları yerli əhalini ölüm çəngalından [caynağından] qurtardı. Zavallı əhali o qədər incimiş, o qədər bəlalara tutulmuşdu ki, türk əsgərləri İrəvan şəhərinin dörd verstliyində durarkən şəhərdə yüz illərcə yaşayan, evə, bağa, mülkə malik olan müsəlmanlar bir sel axını kimi dövlətli, biçiz [kasıb], qocalı, cavanlı öz xanələrini, əmlakını ataraq şəhərdən çıxdılar. İyirmi beş minlik əhalidən fəqət beş-üç ailə şəhərdə qaldı. Hər kəs üzünü bir tərəfə çevirib bir köydə, bir qəsəbçədə yerləşdilər.

Şəhər əhalisindən qabaq kəndçilər kəndi köylərindən, yuvalarından qaçaraq qorxusuz dağlarda, daşlarda məkan etdilər. Sürməli, Eçmiyədzin, Novo-Bayəzid, Aleksandropol uyezdlərindən – türk əsgərləri gəlmədən qabaq – mümkün edən köylü, kəndçi qaçdı.

Tərk olunan köylər ya yanmış, ya erməni mühacirləri tərəfindən işğal olunmuş. Hərçənd ki, əlimizdə istatistika xəbərləri yoxdur. İrəvan quberniyasında iki yüz mindən ziyadə müsəlman camaatı yerlərindən qaçmış, oynamış, pərakəndə oraya-buraya dağılmış. Türk qoşunu İrəvan quberniyasına daxil olduqdan sonra qaçmış, dağılmış olan müsəlman kəndçiləri qorxusuz və türklər tərəfindən işğal olunmuş köylərə, ölkələrə sığınmışlar. Bunu da deməliyiz ki, bu yerlərin əksəri ermənilər tərəfindən buraxılan köylərdir, ölkələrdir. Eşitdiyimizə görə, Osmanlı dövləti ilə Erməni Cümhuriyyətinin mabeynində [arasında] olan etilafa [uzlaşmaya] görə, türk əsgərləri müvəqqəti olaraq işğal etmiş yerlərdən çəkilirlər. Türk qoşununun bu yerlərdən çəklimәyi ilə İrəvan quberniyasında yerlərindən oynayan müsəlmanların həyatında yeni acıntılı, dəhşətli səhifələr açılır. Əcəba köylərini buraxmış erməni mühacirləri yaxud erməni hökuməti bu yerləri müsəlman kəndçilərinin əlində qoyacaqlarmı? Yaxud müsəlmanların köylərini, yerlərini tutmuş erməni mühacirləri ya erməni hökuməti bu köyləri sahiblərinə qaytaracaqlarmı? İştə bir məsələ ki, bunun düz-doğru həll olunması dərin fikirlər, ciddi düşüncələr doğdurur. Bizcə Azərbaycan Hökuməti bu zavallıların halına qalmalı, bunların imdadına yetməlidir. Noyabr ayının onunda Tiflisdə Qafqaz hökumətləri konfransı çağırılır. Bu konfransda ciddi məsələlər həll olunacaq. Bu məsələlər içində şu dövlətlərin hüdud məsələləri də müzakirəyə qoyulacaqdır. İştə Azərbaycan dövlətinin mürəxxəsləri [nümayəndələri] bu konfransda öz həmdini və həmmilləti olan İrəvan quberniyası müsəlmanlarının halına çarə qılmalıdır. O yerlər ki, o nahiyələr ki, orada müsəlmanlar əqəliyyəti [azlığı] təşkil edirlər, onların həyatını təmin etməli və milli-mədəni muxtariyyətə malik olmalarını tələb etməlidir. O nahiyələr ki, orada müsəlmanlar əksəriyyəti təşkil edirlər və Azərbaycan dövləti ilə həmhüduddurlar, o nahiyələri Azərbaycan torpağına yapışdırmalı. Böylə nahiyələr vardır. Sürməli, İrəvan, Şərur və Naxçıvan uyezdləri əksəriyyətcə müsəlmanlarla məskundur. Novo-Bayəzid uyezdinin bir uçastoku bilaistisna [istisnasız] müsəlman köyləridir. Hərgah Tiflis Konfransında Azərbaycan Hökuməti mürəxxəsləri yuxarıda yazdığımız nöqtələri bu tövr həll edərlərsə, İrəvan quberniyasında yaşayan müsəlmanların hallarını yüngülləşdirib, kəndi tarixi vəzifələrini ifa etmiş olarlar.

*Əlif. Sad.*

## LƏNKƏRANDAN (xüsusi müxbirimizdən)

Avetisov dəstəsi əvəzində hal-hazırda İlyaşevski kəşfiyyatçıları fəaliyyətə başlamışlar. Bunlar ətraf və əknafda [ucqarlarda] müsəlmanları Qaçaq Yunis, Əliş və Zülfüqar dəstələrinə müavinətdə [kömək göstərməkdə] ittihamla qətl və qarət edirlər.

Bunların islam qadınları üzərində yapdıqları fənalıqlar calibi-nifrət və təkdirdir [nifrətə və məzəmmətə layiqdir]. Alvadı-Ərkivan dairəsindəki Hacılı köyündən bunlar 3 islam qadını (birisi Hüseynhacılı, digər ikisi isə Alvadı-Ərkivan dairəsindən) və Balarçay nəhri kənarındakı Xarmandalı köyündən də dörd qadın aparmışlar. İkincilər Prişib mövzesi [yeri, mövqeyi], əvvəlincilər isə Nikolayevkaya aparılıb namuslarına təcavüz edilmişdir. İlyaşeviç nəzdində müsəlmanların təşəbbüsatından naşi [təşəbbüsləri səbəbindən] iki həftədən sonra qızlar qaytarılmışlardır. Qadınlardan bir nəfəri vəfat etmişdir. Mühafizə və müdafiə məsələsi silah yoxluğundan naşi müsəlmanlar üçün qeyri-mümkündür; zira müsəlmanlar silahlarını İlyaşeviçə təslim etmişlərdir. Bunların həyatı İlyaşeviç tərəfindən təmin edilmək ehtimalı bica [boş, puç] imiş. Müsəlmanlar üçün rahat yaşamaq mümkün deyildir.

**Astaradan bizə yazırlar:**

Burada üç məktəbimiz vardır ki, sənədən-sənəyə tərəqqi edərək bir çox mütəəllimlər [şagirdlər] tədrisinə səy olunurdu.

Hal-hazırda sərsəri siyasətçilər sayəsində işbu məktəblər qapanmağa məcbur olmuşdur. Məktəb yoxluğundan bizim çocuqlarımız küçələrdə dolaşmaqla altun vaxtlarını itirirlər.

Bir çox valideyn iğtişaş qorxusundan bu vaxtadək buraya qayıtmağa cürət etməyirlər. Mərkəzi Kaspi Donanması saldatlarının qanunsuzluqlarını müşahidə edən əhali dəqiqəbə-dəqiqə Azərbaycan Hökumətini bəkləyir. İşbu xoşbəxt günü nə vaxt görəcəyimizi bircə Allah bilir.

## TÜRKÜSTAN XATİRATI

Şu ünvan təhtində [başlıq altında] yazdığım lövhələr Türküstanın bəzi mühüm nöqtələrinin əhvali-ictimaiyyəsinə [ictimai vəziyyətinə] dairdir. Aşqabad şəhərindən başlayalım. Şu şəhərin əhalisini əksəri İran və Qafqaz müsəlmanları və türkmənlər təşkil edirlər. Mazidə [keçmişdə] Rusiyanın istibdad pəncəsi şu nadan [cahil], siyasəti-cahandan büsbütün bixəbər mühiti, iştə Türküstanı, daha doğrusu, islam övladını daha vəxim [qorxulu, ağır vəziyyətdə], daha möhkəm tutub, milliyyətcə çıxılmaz uçurumlara sürükləyib, islam aləmindən uzaqlaşdırırdı. Nikolay dövründə biçarə doğan türk övladı müstəbid rus diplomatlarının mənhus fikirlərinə qurban olub gedirdi. Rusiya istibdadı yıxıldıqda, buralarda həm bir cünbüş [canlanma], bir hərəkət göründü. Amma bu çırpışmalar yenə xüsusən qafqazlılar və iranlılardan idi. Biçarə türkmənlər Rusiyanın sabiq politikası bərəkətindən vətən naminə bir fəaliyyətdə bulunmaq istedadından məhrum. Bəlkə bu gün pək çox ictimai işlərə qarışmış, qarışdırılmışlar ki, bu etilaf [uzlaşma], bu qarışmaq sabiqdə ruslara və bu gün ingilislərə xidmət edir. Amma etiqad etməlidir ki, böylə bir işi məhz cəhaləti-sabiqəsilə [əvvəlki cəhalətiylə] yapır. Bir türkmənin əhvali-ruhiyyəsinə nüfuz etdikdə vətən, din və milliyyəti uğrunda varını fəda edər bir türk övladıdır. Nə yapmalı ki, biçarəni iğfal etmişlərdir [yoldan çıxarmışlar]. Türkmənin vaxt və zaman yar olduqda islamiyyətə pək çox xidmətlər edəcəyi şübhəsizdir. Bu günlərdə türkmən cavanları Hökumət nəzdində bir çox təşəbbüslərdən sonra, mollaları yeni üsula bələd və aşina etmək məqsədilə bir darülmüəllimin [pedaqoji məktəb] açmağa müvəffəq oldular. Bir dənə də "Dan yıldızı" namında həftəlik türkmən qəzetəsi nəşr olunur. Həmçinin iranlılar həftəlik "Xurşidi-xavər" məcmuəsi nəşr edirlər. Məktəblərə gəldikdə, on illərdən bəri "Müzəffəri" və "Firiduni" davam etməkdədirlər. "Firiduni" məktəbinin bu günəcən davam və bəqasına [mövcud olmasına] Salman Əsgərov cənabları səbəb olub maddi və mənəvi fədakarlıqda bulunmuşdur və keçən sentyabrdan bir "Babi-ittifaqi-iraniyan" [İranlıların birlik qapısı] məktəbi güşad olunub [açılıb], türkcə və farscayı fəqir təlim və tədris edirdim və yüz 35 nəfər çocuq təhsil edirdi və bu günlərdə Aşqabadın bir neçə verstliyində Firuzə deyilən seyfiyyədə [yaylaqda] əkrad [kürd] çocuqları üçün konsul Mirzə Cavad xan cənabları bir babi-məktəb [məktəb qapısı] açmışdır.

* * *

Türküstan, Aşqabad daxil olduğu halda, iyul ayının axırlarına qədər bolşeviklərin təhti-hakimiyyətində [hakimiyyəti altında] idi, fəqət bu çox davam etmədi. Avqust aylarında idi, dəmiryol əmələləri [fəhlələri] üsyan bayrağını qaldırıb Funtikov firqəsi ilə işləməkdə idilər. Binaileyh [ona görə] Kolesov şu üsyanı yatırmaq məqsədi ilə göndərdiyi fövqəladə komissarı zövcəsi və əvanəsi [köməkçiləri] ilə bərabər həpsini Qızıl-Arvad mövqifində [stansiyasında] qətl edib, Şahqədamdan tutmuş Bayraməliyədək təhti-idarələrinə alıb bolşeviklərdən ayrıldılar. Fəqət Kolesov yenidən göndərdiyi güçlü qüvvəyə funtikovçular tab edəmməyib məğlub ola-ola ta Qəhqəyədək geri çəkildilər. Kolesovçular Aşqabad və Qızıl-Arvad üstə sürətlə gəlməkdə idi. İştə bu anda idi, bu şəhərlərin əhalisi bolşeviklərin mücazatından [cəzasından] qorxub İrana, bilməm nerələrə fərar etmək niyyətində idilər və şu dövrdə idi ki, ruslar kəndi rizaları ilə ingilisləri köməyə dəvət etdilər. Şu müsaid fürsəti ingilislər qəbul edib bilamane [maneəsiz] Türküstanın mühüm nöqtələrinə alati-hərbiyyə [hərbi ləvazimat] gətirib və mühim nöqtələrini saldat və alati-nariyyə [odlu silah] ilə möhkəmlətdilər. Bəli, alati-hərbiyyə nə qədər icab edirsə gətirib, Qəhqədə bolşeviklərin qarşısına qoydular. İştə onlar Duşakda, bunlar Qəhqədə bir neçə günlər ancaq tədarükati-hərbiyyə [müharibə tədarükü] ilə məşğul olmaqda idilər. O günlərdə biz Bakıya gəlmək məqsədilə Aşqabad şəhərindən çıxıb Tazəşəhərə gəldik və təqribən iyirmi beş gün məhz Bakıya getmək məqsədilə burada məəttəl olub hökumətdən getmək üçün müsaidə almaq təşəbbüsündə idik. İştə, axırıncı günlərdə idi ki, ingilislərin Qəhqədən çəkildiklərini eşitdik.

Keçən qış və bahar mövsümlərində qəhtü-qəla [qıtlıq və bahalıq] Türküstanın bir çox yerlərində, xüsusən Aşqabadda pək şiddətli idi və qışın şiddətli, pək fırtınalı olduğuna görə füqəra [yoxsullar] olmazın bəlalara məruz qaldılar. Acından ölən az deyildi. Məkulatın [ərzaq məhsullarının] bir şəhərdən digər bir şəhərə nəql olunmasına hökumət müsaid [əlverişli] deyildi. Şu müsaidsizlik [əlverişsizlik] ingilislər dövründə daha da şiddət kəsb eylədi [şiddətləndi]. Hətta iyirmi girvənkə un və yaxud buğdanı qaçaq aparırdılar. Bu barədə bilet alıb Tazəşəhərə gəlmək bu mən'in [qadağanın] nə dərəcədə olduğunu bildirər.

Aşqabaddan tutmuş Tazəşəhərədək mütəəddid [çox sayda] mövqiflərdə [stansiyalarda] məkulat [ərzaq] üçün axtarışlar icra edirlər. Xüsusən Qızıl-Arvad mövqifində axtarış pək şiddətli olur. Təxminən iki saat müddətində vaqonlarda füqəra taqımı yanlarıca gətirdiklərini, hətta 10 girvənkə un və sairə məkulatı alıb mövqif kantorunun qabağında biri digərinin üstə olaraq buraxırlar. Bir çoxunun şeyləri oğurlanıb, oğrudan salim qalan qismi üçün bir çox əziyyət və para verdikdən sonra ya alırlar, ya zəbt olur. İştə bu miyanda [arada] arvad-çocuq ağlaşması həp ətrafdan eşidirsən. Həyat səhifəsində şu mənzərəyə insan baxdıqda bilaixtiyar [qeyri-iradi] lənət böylə məmurlara deyir. Hələ məzə burasındadır ki, Tazəşəhərdə vaqondan endikdə, yenə məmurlar şunun-bunun əlindən cüzi şeylərini almağa çalışırlar. Tazəşəhər Türküstanın sair nöqtələrinə nisbət məkulata möhtac olduğuna görə, füqəra buraya mümkün olduqca, heç olmasa qutilayəmut [cüzi, acından ölməyəcək qədər az azuqə] ilə keçinməkdədirlərsə, ərzaq daşımağa çalışır. Mart faciəsindən sonra türklərin Bakı müsəlmanlarının məhz hifzi-namus və can[ı] [namuslarını və canlarını qorumaq] məqsədilə Bakı üzərinə gəldiklərini və Bakı şəhərinin ətraf qəryələrində [kəndlərində] Osmanlıların al bayrağı təməvvüc etdiyini [dalğalandığını] eşidib, fəqət çarçeşm ilə [dörd gözlə] Bakının alınmaq xəbərini gözləyirdik. Yüz illərdən bəri şu ümid ilə yaşayıb, ruslar idarəsində ağlar günlər, tarix keçirən biz Qafqaz Azərbaycan müsəlmanları tövfiqi-ilahi [ilahi yardım] olaraq kəndi arzusuna nail oldu. Böylə bir milli, tarixi arzuya nail [olan] biz müsəlmanların nə dərəcə məsud olduğunu təyin edəlim. İştə şu sevincli xəbəri (türklər Bakıya varid oldular) eşidib Aşqabadda cümlə müsəlmanlar şad oldular. Binaileyh [ona görə] bir an əvvəl kəndimizi Bakıya salmaq sevdası bir çox müsəlmanları gəlmək təşəbbüsünə məcbur eylədi. Tazəşəhərə gəldik, fəqət yol yox, paraxod yox, getmək məmnu [qadağan]. İyirmi beş yolçular beş yüzü mütəcaviz oldular [beş yüzü keçdilər]. Ona binaən nəzdi-hökumətdə [hökumət nəzdində] bir çox təşəbbüslər və göz yaşı tökdükdən sonra bir barc almağa müvəffəq olduq. Barc köhnəlmiş bir çanaq idi. Bir çox əziyyətlər və qol-qabırğa əzildikdən sonra cümləmiz yerləşdik. Bəxtimizdən dəryada fırtınaya tutulduq. Böylə bir vaxtda digər boş bir barc nerədən isə nümayan oldu [ortaya çıxdı]. Təhlükə çox da uzaq deyildi. Üç dəfə barclar toqquşdular. Bizim barcın bəzi yerləri sındı. Bunlar toqquşduqda Allah sədası asumana büländ olmuşdu [göyə ucalmışdı] ki, Allahın köməyi ilə Bakıya salamat gəldik. 14 aydır ki, Bakıdan çıxmışam. Fəqir Bakıdan çıxanda idareyi-hökumət ruslar əlində idi. Ama bu gün paraxodumuz körpüyə yanaşdıqda bir rusun döşündə türkcə polis yazıldığını və bir az uzaqda hakimanə bir vəziyyətdə sevimli qiyafəli bir türk zabitini gördükdə bilməm nə qədər sevinmişəm. Şükürlər olsun o mövlaya, ruslar dövründə sayılmaz cəfalar çəkən biz müsəlmanlar Osmanlı qardaşlarımızın sayəsində hakimiyyəti-milliyyəyə [milli hakimiyyətə] nail olduq. Sən, sən, ey sitəmdidə [zülmə məruz qalmış, haqsızlıq görmüş], Azərbaycan mühitindəki qara buludlar puç oldular. Əsrlərcə səni yeyən yaralarına mərhəm sürüləcək. Səadətlər, ağ günlər qarşıda. İştə cənabi-mövlanın tövfiqi [köməyi] ilə yürüyəlim.

*Müəllim: A. Ağababazadə*


**"İttihad" məktəbi**

Bu gündən etibarən açılmış. Yeni və keçən sənədəki kəndi şagirdlərini hər gün saat 9-dan 10-dək məktəb idarəsində qeyd və qəbul edir. Dərslər isə 16 təşrini-sanidə başlanacaqdır.

*Məktəb idarəsi.*
*250 3-1*

**Diş müalicəxanası**
**S.M. İtkinin süni diş laboratoriyası**

Dişlərin ağrısız çəkilməsi. Təzə üsulla farfor və qızıl dişlər qondarılması. Dişlərini qayıtdırmaq və diş qoydurmaq xahişində olanlar səhər saat 9-dan 1-ə və 4-dən 6-ya qədər qəbul olunurlar.

Ünvan: Bolşoy Marskoy küçədə 37 nömrəli ev, telefon 06-25.

*208*

**Arvad diş həkimi Z. A. Şexter xanım**

Dişlər ağrısız çıxarılır. Qızıl qapaq, qarma və hər növ qayırma dişlər. Dişin yaxşı qayrılması təmin olunur. Kənardan gələnlər üçün iş tezliklə görülür. Qiymətlər münasibdir.

Qəbul olunur 9-dan 2-yə və axşam 4-dən 7-yə kimi. Vorontsovski küçə, 14 nömrəli evdə, paradnı qapıdan.

*215*

**Arvad diş həkimi Moiseyeva-Levin**

Olqinski caddədə ev nömrə 5, 3-üncü mərtəbə, sağda. Telefon nömrə 06-23.

Dişlərə müalicə edir, çıxarır. Kauçuk və qızıl üzərində sabiq Berlin şəhər müalicəxanasının müdiri nəzarəti altında süni dişlər qayırılır.

Qəbul edir: səhər saat 9-dan 1-ə kimi; axşam saat 5-dən 8-ə kimi.

*216*

**Diş təbibəsi Altmanın diş müalicəxanası**

Naxoşları qəbul edir saat 8-dən 1-ə kimi, 4-dən 7-yə kimi, qadınları 1-dən 3-ə kimi.

Dişlərə müalicə edir, doldurur, ağrısız çıxarır və qızıl və kauçuk üzərində süni dişlər qayırır.

Hərbilərə, məktəblilərə və çocuqlara külli faiz edilir.

Ünvan: Şamaxinski caddədə ev nömrə 20. Aptek qarşısında. Telefon 18-73.

*245*

**Doktor F. S. Şteyn**

Naxoşları qəbul edir səhər saat 9-dan 12-yədək, axşam saat 5-dən 7-yədək.

Mariinski və Tarqovı caddələrin küncündə Əşrəfovun evi, "Jorj" əksxanası. Telefon nömrə 54-44.

*232*

**Berlin Darülfünununun həkimi**
**L. Melkumyans**

Əmrazi-tənasüliyyə [cinsi xəstəliklər] və dəri naxoşlarını qəbul edir. Qan damarlarına "606" və "916" dəvalarını istemal [tətbiq] edir. Hər gün saat 2-4-ə kimi.

Ünvan Birjevoy caddədə Malakan bağçası qarşısında həkim Temirxanyanın müalicəxanasında. Telefon nömrələri 29-85 və 32-77.

*255*



**Müdirlər:**
**Ceyhun bəy Hacıbəyli**
**Şəfi bəy Rüstəmbəyli**


## TRANSLİTERASİYA İLƏ BAĞLI QEYD VƏ ŞƏRHLƏR

***Maarif Nəzarəti əmrləri***

"Nömrə 109": Qəzetdə "Nömrə 100" kimi getmişdir.

***Sülh ətrafında***

"Drednot": hərbi dəniz donanmalarında XX əsrin əvvəllərindən etibarən istifadə edilməyə başlanan, güclü artilleriya silahlarına malik zirehli gəmi (drednout).

***Almaniyada***

"Bütün Almaniya mətbuatı kayzer ilə iştiğal edir.": Söhbət Almaniya imperatoru II Vilhelmdən gedir.

***Qəzetələrdən: Almaniya-Rusiya ixtilafı***

"…Fridrixştadt vağzalında…": Fridrixştadt [Friedrichstadt] Almaniyanın şimalında, Ayder [Eider] çayı üstündə yerləşən şəhərdir. Bundan başqa, Berlin, Düsseldorf və Drezden şəhərlərinin eyniadlı rayonları var. Burada söhbət çox güman ki, regional dəmiryolu şəbəkəsinin üstündə yerləşən, Drezdenin Fridrixştadt rayonundan gedir.

***Nəzarətlərdə***

"Bakının işğalından sonra…": Bakının Qafqaz İslam Ordusu tərəfindən azad edilməsi nəzərdə tutulur.

***Türkün dərdi***

"1 təşrini-sani 1334": Burada il, rumi təqvimlə verilmişdir; miladi təqvimlə 1 noyabr 1918-ci ilə uyğundur.

"Mütəllib oğlu Abid Alp": Bu imza Əmin Abid Mütəllibzadəyə məxsusdur.

"Türkün dərdi" şeiri (səh. 184)
üçün lüğət:
fövq: üst
mazi: keçmiş
hal: indiki zaman
istiqbal: gələcək
münəvvər: ziyalı, aydın
təcdid: yeniləmə; yenilənmə

***Məktəblərimiz***

"Həkkaklıq": metal, daş və sair materiallar üzərində polad qələmlə yazı və naxışla oymaq sənəti.

"Minaçılıq": qiymətli metallardan və digər materiallardan hazırlanan əşyaların üzərində rəngli şüşəvari təbəqədən naxışlar düzəltmək sənəti.

"Yozaqçı": qıfıl düzəldən, yaxud təmir edən usta.

"M. H.": Bu imza Hənəfi Zeynallıya məxsusdur.

***Lənkərandan***

"Bunların islam qadınları üzərində yapdıqları fənalıqlar calibi-nifrət və təkdirdir.": Qəzetdə "calibi-nifrət" yerinə "calibi-diqqət" getmişdir.

"…Balarçay nəhri…": Çox güman ki, Azərbaycanın Biləsuvar rayonu ərazisindən axan və Balkarçay, Bolqarçay, Balharçay kimi adlarla tanınan çay nəzərdə tutulur.

***Türküstan xatiratı***

"Ona binaən nəzdi-hökumətdə bir çox təşəbbüslər və göz yaşı tökdükdən sonra bir barc almağa müvəffəq olduq.": Barc: barj, yaxud barja; böyük yük gəmisi.

# REGİONLAR

## Şəhidin doğum günündə ailəsinə ev hədiyyə edilmişdir



Ağdamın Çəmənli kəndində rayon icra hakimiyyəti tərəfindən Vətən müharibəsi şəhidi Emil Qurbanovun ailəsi üçün tikilmiş 2 otaqlı fərdi yaşayış evi sahiblərinə təqdim olunub.

Bununla bağlı keçirilən mərasimdə şəhidin ailə üzvləri ilə birlikdə Ağdam Rayon İcra Hakimiyyətinin başçısı Vaqif Həsənov, Yeni Azərbaycan Partiyası rayon təşkilatının sədri Mansur Quliyev, şəhid ailələri, qazilər, veteranlar, din xadimləri və ictimaiyyət nümayəndələri iştirak etmişlər.

Şəhidin ailə üzvləri onlara göstərilən diqqət və qayğıkeşliyə görə minnətdarlıqlarını bildirmişlər.

Emil Rafael oğlu Qurbanov 44 günlük Vətən müharibəsində Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olub. Ölümündən sonra "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə" və "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif edilib.

***Lazım QULİYEV, "Azərbaycan"***

◆ İlə yekun vurulur

## İş varsa, nəticə də var

**Bütün kənd rayonları kimi, Goranboyun da inkişafı əsasən aqrar sektorla bağlıdır. Odur ki, rayonda həm bitkiçiliyin, həm də heyvandarlığın vəziyyəti daim diqqət mərkəzində saxlanılır. Məhz bunun nəticəsidir ki, hər il bu sahələrdə uğurlu göstəricilərə nail olunur. Bu baxımdan 2022-ci ilin də istisna olmayacağını indidən demək mümkündür.**

Goranboy Aqrar İnkişaf Mərkəzindən aldığımız məlumata görə, bu ilin məhsulu üçün 39 min 598 hektar sahədə əkin aparılmışdır. O cümlədən 22 min 812 hektar payızlıq taxıl, 9 min 639 hektar yonca, yazlıq əkinlərdən isə 1100 hektar artıq sahədə tərəvəz, 3012 hektarda günəbaxan, 2526 hektarda pambıq, 197 hektarda yemlik və 1005 hektar isə dənlik qarğıdalı əkilmişdir. Bundan başqa, rayon ərazisində 72 hektarda üzüm bağı və 2 min 427 hektarda müxtəlif növ meyvə ağaclarından ibarət bağ mövcuddur. Cari ildə rayonun Zeyvə, Şəfəq, Qarqucaq, Qaraçinar, Yenikənd kəndlərində ümumilikdə 8 hektar sahədə tütün də becərilmiş və  12 ton qurudulmuş tütün yarpağı istehsal olunmuşdur. 2022-ci ildə həmçinin rayonun kümçülərinə barama yetişdirmək üçün 142 qutu inkubasiya olunmuş baramaqurdu paylanmışdır. Kümçülər ondan 5400 kiloqram məhsul istehsal edərək qəbul məntəqəsinə təhvil vermişlər.

Rayonda payızlıq əkin məqsədilə 19 min 571 hektarda şum aparılmış, 1165 hektarda xəsil, 1070 hektarda arpa, 49 hektarda buğda, 450 hektarda yonca əkilmişdir. Hazırda şum və səpin işləri davam edir. Heyvandarlığa gəldikdə, cari ilin 9 ayı ərzində rayon üzrə diri çəkidə 2095,2 ton ət, fiziki çəkidə 22 min 18 ton süd, 14 milyon 595 min  ədəd yumurta, 280,6 ton yun istehsal olunmuşdur ki, bu da həmin məhsullar üzrə ötən ilin müvafiq dövrü ilə müqayisədə 1,3 faiz çoxdur.







Cari il rayonda əhalinin mavi yanacaqla təminatının yaxşılaşdırılması istiqamətində çoxsaylı tədbirlər həyata keçirilmişdir. İl ərzində rayon mərkəzinin  müxtəlif ərazilərində, kənd və qəsəbələrində 16 qaztənzimləyici şəbəkə yenisi ilə əvəz edilmişdir. Muzdurlar kəndində isə şəhid mayor Əlövsət Məmmədovun ailəsinin yaşadığı yeni massivə qaz verilmişdir. Ümumiyyətlə, 28 ünvanda yaşayan şəhid ailəsi, qazi və müharibə veteranlarının müraciətləri əsasında yaşadıqları mənzillərə və yeni tikilmiş fərdi yaşayaış evlərinə qaz xətləri çəkilmişdir.

Rayon əhalisinin içməli su ilə təmin edilməsi üçün keçən il başlanan işlər cari ildə də davam etdirilmişdir. Dəliməmmədli şəhərində 6 subartezian nasosu təmir edilmiş, 2-si isə yenilənmişdir. Xınalı kəndində "Azərsu" ASC tərəfindən qazılmış subartezian quyusunun sıradan çıxmış nasosu, çirkli su təmizləmə sahəsində isə yerüstü nasos yenisi  ilə əvəz edilmişdir. Rayonun yollarında da cari və əsaslı təmir işləri aparılmışdır.

Əhalinin məşğulluğunun təmin edilməsi istiqamətində isə, ilin ötən dövrü ərzində 294 nəfər daimi işə götürülmüşdür. Onlardan bir nəfəri əlilliyi olan şəxs, 16 nəfəri məcburi köçkün, 71 nəfəri peşəsi və ixtisası olmayan şəxslər, 75 nəfəri kənd yerlərində yaşayanlar olmuşdur. 256 nəfər isə özünüməşğulluğa cəlb edilmişdir.

2022-ci ildə də şəhid ailələrinin və qazilərin sosial qayğılarının öyrənilməsi, onların problemlərinin həlli diqqət mərkəzində saxlanılmış, rayon rəhbərliyi tərəfindən tez-tez bu kateqoriyadan olan insanlara daxili imkanlar hesabına müvafiq maddi-sosial yardımlar göstərilmişdir. Həmçinin Vətən müharibəsi iştirakçılarının sosial qayğılarının öyrənilməsi üçün mütəmadi görüşlər təşkil olunmuş, görüşlərdə onların təklifləri, müraciətləri dinlənilmiş və aidiyyəti üzrə tədbirlər görülmüşdür.

***Sabir ƏLİYEV, "Azərbaycan"***

## Naftalanda ilk dəfə Adəmalması ağacının əkilməsinə başlanılmışdır

Naftalan buraya gələn minlərlə turist üçün təkcə özünün unikal tərkibə malik nefti ilə deyil, həm də quru və sağlam mikroiqlimi ilə şəfaverici xüsusiyyətə malikdir.



Naftalanın bu cür iqlimini formalaşdıran amil isə vaxtilə bu kurort şəhərində əkilmiş minlərlə şam ağacıdır. Hazırda dünya miqyasında baş verən qlobal iqlim dəyişmələri səbəbindən Naftalanda şəhər landşaftının formalaşdırılmasında, əsasən, yerli şəraitə uyğunlaşan və bol oksigen hasil edən ağacların əkilməsinə üstünlük verilir.

Bu baxımdan beynəlxalq sağlamlıq mərkəzi olan Naftalanda yaşıllıqların salınması artıq ənənə halını almışdır. Son üç ayda şəhərin Heydər Əliyev, Nəriman Nərimanov və Qələbə parklarında, eləcə də prospekt və yol kənarlarında 3200-dən artıq ağac əkilmişdir. Aksiyalarda, əsasən, kedra, zeytun, akasiya, çinar, kiparis ağaclarının əkilməsinə üstünlük verilmişdir.

Bu yaxınlarda isə şəhərdə Adəmalması ağaclarının əkilməsinə başlanılmışdır. Qeyd edək ki, Vətəni Avropa qitəsi olan Adəmalması tutkimilər fəsiləsinə aiddir. Yaşıl, yumru meyvələri və enli yarpaqları olan Adəmalması bol oksigen hasil etməsinə görə ən faydalı ağac hesab edilir.

***"Azərbaycan"***

## Xızıda tikinti zamanı qədim məzar daşları aşkarlanıb

Xızı rayonu Altıağac qəsəbəsində ev tikintisi zamanı qədim məzar daşları aşkarlanıb.

Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin Şabran Regional İdarəsindən AZƏRTAC-a verilən məlumata görə, qəsəbənin yeni sakini bir zamanlar ərazidə yaşayan malakanlara aid köhnə evi sökərkən divarlarında tikinti materialları kimi istifadə olunan məzar daşları üzə çıxıb.



Regional idarənin Xızı bölgəsi üzrə baş mütəxəssisi Tural Babayev əraziyə baxış keçirib. Üzərindəki yazılara əsasən, məzar daşlarının XIV -XVII əsrlərə aid olduğu ehtimalı edilir.

Aşkar olunan epiqrafik nümunələrin Xızı rayonunun mərkəzində yerləşən inzibati binaya daşınması təmin edilib.

## Göyçayda şəhid ailəsi üçün ev tikilir

Göyçayda Birinci Qarabağ müharibəsi şəhidi Anar Niyaz oğlu Zeynalovun ailə üzvləri üçün 150 kvadratmetr sahəsi olan 5 otaqlı ev tikilir.

Şəhidin ailəsinin evi avqustun 13-də baş verən yanğın nəticəsində yararsız vəziyyətə düşmüşdü.



Anar Niyaz oğlu Zeynalov 1972-ci ildə Göyçayda anadan olub. Orta məktəbi şəhər 3 saylı tam orta məktəbdə bitirib. Sonra Göyçayda 58 saylı Texniki Peşə Məktəbində təhsil alıb. Birinci Qarabağ müharibəsində erməni işğalçılarına qarşı döyüşüb. 1992-ci il avqustun 24-də Zəngilan rayonunun Qazançı kəndi uğrunda gedən döyüşdə qəhrəmancasına şəhid olub. Göyçaydakı Şəhidlər xiyabanında uyuyur.

Xəbəri AZƏRTAC yayıb.

◆ Qış turizmi

## Qubanın ağ... fəsli

Ölkəmizdə  turizmin  inkişaf etdiyi ərazilərdən biri də şimal bölgəsidir. Hələ keçmiş sovetlər dönəmində bu region turizm ərazisi kimi məşhur idi. Azərbaycanın şimal sərhədinin bir addımlığında məkan qurmuş Qubanın, Qusarın, Nabranın gözəlliklərindən "dadmadan" respublikamızı tərk etmək mümkün deyildi.



Müstəqilliyin bərpasından sonra da regionda yeni sanatoriylar, istirahət mərkəzləri yaradılıb. Bu o deməkdir ki, şimal bölgəsi özünün turizm brendini qoruya bilib. İndi də Azərbaycana gələn turistlər  böyük həvəslə Qubanı görməyə can atırlar. Təbiəti bir yana, həyata keçirilən tikinti-quruculuq və abadlıq işləri Qubaya gələn turistlərin sayını artırır.

Qış astanadadır. Payızın yağışını "yola salmamış" bu ərazilərə qar yağıb. Uca Şahdağın zirvəsindən əskik olmayan qar aşağı ərazilərə "köçüb". Bir az erkən olsa da, insanların əhvali-ruhiyyəsini artırıb. Havayı yerə deməyiblər ki, qar bərəkətdir.

Turizm  ərazisi kimi Qubaya dövlət tərəfindən də böyük diqqət göstərilir. Rayonda turizmə və turistlərin məmnunluğuna hesablanmış nə varsa, mülkiyyət formasından asılı olmayaraq, hamısı dövlətin birbaşa və ya dolayısı dəstəyi ilə ərsəyə gəlib. Bu hesaba Quba Olimpiya İdman Kompleksi, SPA mərkəzləri, Xınalıq kəndi, qədim xalçaçılıq sənətinin inciləri və onlarla digər ünvanlar rayonun simasına çevrilib. Bu gün Qubada 140-dan çox tarix-memarlıq, o cümlədən 70 təbii təbiət abidəsi var. Təbii fəlakətlər zamanı yaranmış bu abidələr ilin bütün fəsillərində turistlərin maraqla dolandıqları ərazilərdir. "Gəlin qayası", "Qızıl qaya", "Gülcahan daşı", "Xan bulağı", "Daş gəlinlər", "Ağacda ev", "Xaltan suyu" və başqa bu kimi  təbiət abidələrinə hər yerdə rast gəlmək mümkün deyil. Qubadakı 60-dan artıq arxeoloji abidənin böyük hissəsi IV-XVII əsrlərə aiddir. Əvvəlki illərdə onların bir çoxunun yolu yaman gündə idi. İndi həmin yollar təmir edilmişdir. Abidələrin ətrafında  isə lazım olan infrastruktur yaradılmışdır.

Qubada fəaliyyət göstərən turizm şirkətləri qış mövsümü üçün xüsusi hərəkət cədvəli hazırlayıblar. Rayona sürüşkən dağ yolları üçün nəqliyyat vasitələri gətirilib. Piyada səfərə çıxmaq istəyənlər üçün isə bələdçilər ayrılıb. Onlar əsasən rayon ərazisini yaxşı tanıyan yerlilərdir.

Artıq rayonda xüsusən şənbə və bazar günləri qış turizm həvəskarlarını görmək mümkündür. Düzdür, Bakı-Quba yolunda aparılan təmir işləri bölgəyə gəlmək istəyənlərin sayına təsir edib. Amma bütün hallarda paytaxta yaxınlığı bu yerləri qonaq-qarasız qoymur. Xüsusən Qəçrəş, Afurca, Ləzə, Xanəgah, Alıc Tüləkəran, Gültəpə kəndləri turistdən korluq çəkmir. Hətta qar yağanda həmin kəndlərdə boş ev tapmaq çətin olur. Qubada qış turizm reklam işi də pis təşkil edilməyib. Bu işlə bir neçə təşkilat və sayt məşğuldur. Onlar bukletlər, kitabçalar, tur proqramları, disklər hazırlayırlar. Reklam lövhələrindən də səmərəli istifadə olunur. Soyuq və qarlı gündə harada isti nahar və ya səhər yeməyi verildiyini həmin lövhələrdən öyrənmək mümkündür.

Qubanın yaxınlığındakı Qusar da qışda qonaq-qaralı olur. Şahdağ turizm mərkəzi xizək həvəskarlarının sevimli məkanıdır. Baxmayaraq ki, qış hələ irəlidədir, indidən mərkəzdə yer sifariş verənlərin sayı kifayət qədərdir. Bir də qarşıdan Yeni il gəlir axı.

***Akif ƏLİYEV, "Azərbaycan"***

## Ağstafada mədəniyyət abidələrinin qorunması və tədqiqi ilə əlaqədar elmi-praktik konfrans keçirilmişdir

Ağstafada Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin dəstəyi ilə "Keşikçidağ" Dövlət Tarix-Mədəniyyət Qoruğu "Tarix-mədəniyyət abidələrinin qorunması, tədqiqi və təbliğində müasir yanaşmalar" adlı elmi-praktiki konfrans keçirmişdir.

Qoruğun yaradılmasının 15 illiyinə həsr olunmuş konfrans Ümummilli Lider Heydər Əliyevin abidəsinin ziyarəti ilə başlamışdır. Sonra iştirakçılar Ulu Öndərin həyat və yaradıcılığından bəhs edən muzeyə ekskursiya etmiş, qoruğa məxsus çap məhsullarından ibarət sərgiyə baxmış, eləcə də qoruq ərazisində arxeoloji qazıntılar zamanı aşkarlanmış tapıntıların  bərpası prosesi ilə tanış olmuşlar.

Konfransı giriş sözü ilə Ağstafa Rayon İcra Hakimiyyətinin başçısı Seymur Orucov açaraq son illər ölkəmizdə tarix-mədəniyyət abidələrinin qorunması istiqamətində həyata keçirilən tədbirlərdən, eləcə də "Keşikçidağ" Dövlət Tarix-Mədəniyyət Qoruğunda görülən təmir-bərpa işlərindən danışmışdır. Sonra Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin şöbə müdiri Ruslan Ənvərli, Gəncə Regional Destinasiya Menecment Təşkilatının direktor müavini Fariz Qarayev, Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin  Gəncə Regional İdarəsinin rəisi Həsən Mirzəyev,  Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin üzvü, Bakı Dövlət Universitetinin dosenti, sənətşünaslıq üzrə elmlər doktoru İmaş Hacıyev, Bakı Dövlət Universitetinin professoru, filologiya elmləri doktoru Valeh Nəsibov,



"Ağstafa Gənclər evi" Sosial Xidmət Müəssəsinin direktoru Nicat Vəkilov, Ağstafa rayon Ə.Hüseynov adına tam orta məktəbin müəllimi İndira Səmədova, "Avey" Dövlət tarix-mədəniyyət qoruğunun direktoru, pedaqogika üzrə fəlsəfə doktoru Səadət Əliyeva, "Qədim Şəmkir şəhəri" tarix-mədəniyyət qoruğunun elmi işçisi Aləmzər Hüseynova və başqaları məruzələrlə çıxış etmiş, "Keşikçidağ" Dövlət tarix-mədəniyyət qoruğunun direktoru Musa Mursaquliyev 15 il ərzində qoruq ərazisində görülən işləri konfrans iştirakçılarının diqqətinə çatdırmışdır.

Konfrans başa çatdıqdan sonra iştirakçılar "Damcılı" mağara düşərgəsinə gedərək burada yaponiyalı və azərbaycanlı arxeoloqların birgə apardıqları qazıntılar zamanı aşkarlanmış eksponatlarla tanış olmuş, "Hərəyə bir ağac əkək!" devizi ilə keçirilən aksiyada iştirak etmişlər.

***S.ƏLİYEV, "Azərbaycan"***




**13 dekabr təqvimi**

**YARIMFİNAL**

**Argentina- Xorvatiya (23:00)**

# Lyoris tarixə düşdü

**"Tottenhem"in qapıçısı Uqo Lyoris Fransa milli komandasının tarixinə düşüb. Mundialın 1/4 finalında İngiltərə ilə keçirilən matçda meydana çıxan 36 yaşlı qolkiper yığmanın heyətində ən çox görüş keçirən futbolçuya çevrilib.**



143-cü dəfə millinin formasını geyən qapıçı Lilian Türama məxsus rekordu (142) yeniləyib. O, həmçinin Dünya çempionatlarında ən çox oyun keçirmiş Tyerri Anri ilə Fabyen Bartezi (17) də geridə qoyub - 18 matç.

Xatırladaq ki, Fransa İngiltərəyə 2:1 hesabı ilə qalib gələrək yarımfinala yüksəlib. Komanda bu mərhələdə Mərakeşlə qarşılaşacaq.

# Rişarlison məğlubiyyəti unuda bilmir



**Braziliya millisinin üzvü Rişarlison "DÇ-2022"-nin 1/4 finalında Xorvatiyaya uduzaraq (1:1, penaltilər seriyası - 2:4) turnirlə vidalaşmaları haqda fikirlərini bölüşüb.**

Bu barədə 25 yaşlı hücumçu özünün instaqram hesabında məlumat yayıb. O yazıb: "Bu mətni yazmaq həyatımdakı ən çətin şey idi. O gün hələ də mənimlədir. Mən yata bilmirəm. Lənət olsun, baş verənlər məni çox incidir. Bu yara əbədi olaraq məndə qalacaq. Çünki hamımız bu kubok üçün favorit olduğumuzu bilirdik. Kiçik bir çıxışla sizə müraciət etsəm, hər şeyi etdiyimizi, bütün qüvvəmizi hər şeyimizi verdiyimizi desəm, bu məğlubiyyətin idmanın bir hissəsi olduğunu söyləsəm, heç nə yaxşılaşmayacaq... Həqiqətən də belədir. Amma elə hiss edirik ki, sanki biz yaxın bir insanımızı itirmişik. Sanki bizdən nəsə qopub. Mən və dostlarım bununla yaşamaq məcburiyyətində qalacağıq və onlardan bəziləri, yaxud bir çoxları bu şansı bir daha əldə etməyəcəklər.

Yaralarınızı sağaltmaq, sizdən üzr istəmək və düşüncələrinizi qaydasına salmaq vaxtıdır. Mənə hər şeyi verən və dəfələrlə həyatımı xilas edən futbol mənə ən böyük zərbəni də vurdu. Dəstək üçün təşəkkür edirik".

# Daha bir jurnalist ölümü

**Qətərdə keçirilən mundialı işıqlandıran daha bir jurnalist dünyasını dəyişib. "Al Kass" televiziyasının fotomüxbiri Xalid əl-Mislam vəfat edib. Onun ölümünün səbəbləri açıqlanmayıb.**




Qeyd edək ki, bu, Qətərdə keçirilən Dünya çempionatında ilk media əməkdaşı ölümü deyil. Bundan əvvəl daha bir jurnalist, "CBS" telekanalının amerikalı əməkdaşı və "Bekhem Eksperimenti" kitabının müəllifi Qrant Uol dekabrın 10-da Niderland və Argentina arasında 1/4 final matçında dünyasını dəyişib.

# Suaresdən Neymara təskinlik



**Uruqvay millisinin hücumçusu Luis Suares Braziliya yığmasının futbolçusu Neymara dəstək olub. O, sosial şəbəkə hesabındakı paylaşımında Braziliya millisinin mundialdan kənarda qaldığına görə Neymara təskinlik verib:**

"Sənə çoxlu dözüm arzulayıram, qardaş. Dəfələrlə yıxılmışıq, lakin bu gözəl idman növündə uğur qazanmaq üçün mübarizə aparmağa, həmişə irəli getmək naminə gücümüz olub. Güclü ol, qardaş".

Qeyd edək ki, Braziliya millisi "DÇ-2022"-nin 1/4 finalında Xorvatiyaya uduzaraq mübarizəni dayandırıb. Xatırladaq ki, Neymarla Suares "Barselona"da birgə çıxış ediblər.

# "Təəssüf ki, yuxu bitdi"



**"Portuqaliya ilə dünya kubokunu qazanmaq karyeramın ən böyük və ən iddialı arzusu idi. Xoşbəxtlikdən bir çox beynəlxalq titullar qazandım. O cümlədən Portuqaliya yığması da. Lakin ölkəmizi dünyada ən yüksək səviyyəyə qaldırmaq mənim ən böyük arzum idi".**

Bu sözləri Portuqaliya millisinin kapitanı Kriştiano Ronaldu sosial şəbəkə hesabında yazıb. Portuqaliyanın "DÇ-2022"-də mübarizəni dayandırmasına münasibət bildirən 37 yaşlı hücumçu komandasının mundialın qalibi olmaq üçün çox çalışdığını qeyd edib: "Bu arzum üçün çox şey verdim. Son 16 ildə iştirak etdiyim 5 Dünya çempionatında milyonlarla portuqaliyalının dəstəyi ilə həmişə böyük oyunçuların yanında olmuşam və bütün gücümü ortaya qoymuşam. Hər şeyi meydanda buraxdım".

Ronaldu Portuqaliya millisində özünü döyüşçüyə bənzədib: "Təəssüf ki, yuxu bitdi. Mən sadəcə hər kəsin bilməsini istəyirəm ki, çox deyilib, çox yazılıb, amma mənim Portuqaliyaya olan bağlılığım bir an belə dəyişməyib. Mən həmişə növbəti döyüşçü olmuşam və heç vaxt yoldaşlarımdan və ölkəmdən üz döndərməmişəm. Hazırda daha deməyə sözüm yoxdur. Təşəkkürlər Portuqaliya. Təşəkkürlər Qətər. Yuxu davam edərkən gözəl idi. İndi fırtınanın səngiyəcəyinə ümid etmək lazımdır. Bundan sonra hər kəs öz nəticələrini çıxaracaq".

# "Məğlubiyyət hələ də çox ağrı verir"



Braziliya millisinin üzvü Neymar mundialın 1/4 finalında Xorvatiyaya uduzaraq mübarizəni dayandırmaları barədə növbəti dəfə fikirlərini bölüşüb. Qol.az xəbər verir ki, 30 yaşlı forvard bu haqda öz instaqram hesabında yazıb. O, hələ də çox məyus olduğunu deyib:

"Məğlubiyyət hələ də çox ağrı verir. Qələbəyə çox yaxın idik. Təəssüf ki, mən hələ də uduzmağı öyrənməmişəm. İtirmək məni daha güclü edir, amma bu çox ağırdır. Mən isə hələ buna öyrəşməmişəm. Biz davam etməliyik... Həyat bizi incitsə belə, irəli getməyə məcburuq. Yaraların sağalması zaman alır. Bir daha Braziliya xalqına göstərdikləri dəstəyə və məhəbbətə görə təşəkkür etmək istəyirəm. Sizin üçün mübarizə apardığımızı nəzərə alanda gücümüzün 100 faizini ortaya qoyuruq. Ağrılarımıza bir az da təsəlli veririk. Hər şey üçün Qətərə təşəkkür edirəm. Bu Dünya çempionatı gözəl idi. Kubok Braziliyaya getməli idi. Amma olmadı. İndi ailə və dostlarla vaxt keçirmək və enerji yığmaq vaxtıdır. Çünki bu məğlubiyyətlə yaşamaq çox çətin olacaq. Hələ də çox ağrıyıram".

# "Hələ işimiz bitməyib"



**"Möhtəşəm Portuqaliya komandası ilə qarşılaşdıq. Maksimum nəticə əldə etməyi hədəfləyirik. Kapitanımız zədəli idi, amma bizdə hər bir oyunçu mübarizə aparır".**

Bu sözləri Mərakeş millisinin baş məşqçisi Valid Reqraqi 1/4 finalda Portuqaliyaya 1:0 hesabı ilə qalib gəldikləri oyundan sonra deyib.

"Oyundan əvvəl futbolçulara demişdim ki, Afrikanın tarixini yazmalıyıq. Və biz bunu etdik. Biz güclü tərəflərimizə əsaslanaraq irəlilədik. Bu mərhələni nə vaxt keçəcəyimizi düşünürdük və indi uğur qazanmışıq. Amma hələ işimiz bitməyib", - deyə o bildirib.

Mütəxəssis daha sonra söyləyib: "Portuqaliya bizim üçün İspaniyadan daha çox problem yaratdı. Bu, çox texniki bacarığı olan komandadır. Mən başa düşmürəm ki, insanlar bizi necə tənqid edə bilərlər. Əlimizdən gələnin ən yaxşısını oynayırıq, əlimizdə olan silahlardan istifadə edirik".

# Hakim təyinatları açıqlandı

Mundialın yarımfinalında keçiriləcək Argentina - Xorvatiya oyunu üçün hakim təyinatları açıqlanıb. Matçı İtaliya Futbol Federasiyasından Daniele Orsato idarə edəcək. Ona həmyerliləri Çiro Karbone və Alessandro Callatini kömək göstərəcək. Dördüncü hakim funksiyasını Mohamed Mohammed yerinə yetirəcək. VAR-ın baş hakimi Massimiliano İrrati, köməkçisi isə Paolo Valeri (hər ikisi İtaliya) olacaq.

Qeyd edək ki, bu gün keçiriləcək Argentina - Xorvatiya görüşü Bakı vaxtı ilə saat 23:00-da başlayacaq.





# Mbappe çempionluğa inanır

Fransa millisinin hücumçusu Kilian Mbappe komandasının Qətərdə keçirilən Dünya çempionatının yarımfinal mərhələsinə yüksəlməsinə münasibət bildirib. Yığma 1/4 final matçında İngiltərəni 2:1 hesabı ilə məğlub edib. Mbappe sosial şəbəkə hesabında yazıb: "Biz mütləq arzumuza daha da yaxınlaşdıq".

Qeyd edək ki, Fransa son Dünya çempionudur. Yığma yarımfinalda Mərakeşlə qarşılaşacaq.

# Fernandu Santuş çox məyusdur

**"Mənim və oyunçularım üçün bu, çox böyük məyusluqdur. Komanda inamlı və şən idi, amma uğursuz olduq. Futbolçular çox çalışdılar. İlk hissədə Mərakeş müdafiəsini keçmək üçün kreativliyimiz çatışmadı".**

Bu sözləri Portuqaliya millisinin baş məşqçisi Fernandu Santuş "DÇ-2022"-nin 1/4 finalında Mərakeşə 0:1 hesabı ilə uduzduqları oyundan sonra deyib. O bildirib ki, yekunda qol buraxdıq: "Fasilədə bu haqda danışdıq, Mərakeş yaxşı müdafiə olunduğu üçün ayağa qalxmalı olduq. Oyunumuz xeyli yaxşılaşdı, xüsusilə son 20 dəqiqədə çox narahat idik. Topu tez bir zamanda cərimə meydançasına daxil etmək istəyirdik. Biz çox məyusuq".

Santuş söyləyib ki, mundialın qalibi olacaqlarına ümid edirdilər: "Bu nəsil bununla bitmir. Onların Portuqaliya futbolu üçün yaxşı işlər görmək imkanı olacaq. Çox səy göstərildi. Finala yüksələcəyimizə və qalib gələcəyimizə ümid edirdik".

Mütəxəssis komandanın kapitanı Kriştiano Ronaldunun start heyətdə olmaması ilə bağlı vurğulayıb: "Oyuna Ronaldu ilə başlamadığım üçün peşman deyiləm. Komanda İsveçrə ilə görüşdə yaxşı oyun nümayiş etdirdi. Kriştiano böyük oyunçudur və ehtiyacımız olduğu zaman onu meydana buraxdıq".



# "Argentina çempion olacaq"



Portuqaliya millisinin müdafiəçisi Pepe 1/4 finalda Mərakeşə 0:1 hesabı ilə uduzduqları matçdan sonra fikirlərini bildirib. O, görüşü idarə edən Fakundo Tellonun rəhbərlik etdiyi argentinalı hakimlər briqadasını tənqid edib:

"Mərakeş qol vurduğu üçün şanslı idi. Komanda yoldaşlarımla fəxr edirəm. Qarşılaşmada qalib gəlmək üçün çox çalışdıq. Bruno Fernandeşə qarşı kobudluğa görə penalti verə biləcəkləri anı görmədim. Bu mundialda qalib gəlmək şansımız var idi. Matçdan sonra bizdə belə bir hiss yarandı ki, hakimlər briqadası təkəbbürlüdür. Argentina çempion olacaq! Bu oyunda beş argentinalı hakim var idi! Başqa nə deyə bilərəm... Gəlin görək, nə baş verəcək".

Qeyd edək ki, sözgedən görüşdə baş hakim Fakundo Tello, onun köməkçiləri Ezequel Brailovski, Qabriel Kade və VAR hakimləri Mauro Viqliano, Dieqo Bonfa, Xuan Pablo Belatti Argentina Futbol Federasiyasından olub.

# Peledən dəstək



Dünya futbolunun canlı əfsanəsi Pele Portuqaliya millisinin kapitanı Kriştiano Ronalduya dəstək olub.

Ronaldu 1/4 finalda Mərakeşə uduzaraq mübarizəni dayandırdıqları oyundan sonra sosial şəbəkə hesabında bununla bağlı paylaşım edib. Pele isə paylaşıma "Bizi gülümsətdiyin üçün təşəkkür edirəm, dostum" şərhini yazıb.

Qeyd edək ki, "DÇ-2022" böyük ehtimalla 37 yaşlı Ronaldu üçün sonuncu mundial olacaq.

# İngilislərdən antirekord

Mundialın 1/4 finalında Fransaya uduzaraq (1:2) mübarizəni dayandıran İngiltərə millisi antirekorda imza atıb. Britaniyalılar mundiallar tarixində 7-ci dəfə bu mərhələni keçə bilməyiblər. Bu, Dünya çempionatları tarixində antirekorddur.

Qeyd edək ki, İngiltərə yığması daha əvvəl - 1954, 1962, 1970, 1986, 2002 və 2006-cı illərdə eyni aqibətlə üzləşib.



*Hazırladı: Elçin CƏFƏROV, "Azərbaycan"*

# Yeni "Poz-Qazan" oyunları - "Tap, Qazan" və "Göz muncuğu" satışa çıxarıldı

**Azərbaycanın qanuni lotereya təşkilatçısı və idman mərc oyunları operatoru "Azərlotereya" ASC şans oyunu həvəskarlarını sevindirməkdə davam edir. Şirkət "Tap, Qazan" ani lotereyasının ardınca "Göz muncuğu" lotereyasını da satışa çıxarıb.**




Uduş fondu 33 milyon manatdan çox olan "Göz muncuğu" biletində böyük uduşun məbləği 100 000 manatdır. Hər biletdə qazanmaq üçün 6 şans təqdim olunur.

Oyun qaydalarına gəlincə, lotereya biletinin üzərində "üstüörtülü" xanaları pozduqdan sonra hər hansı "oyun" sırasındakı istənilən rəqəm "uğurlu rəqəm"lə uyğun gələrsə, bilet müvafiq sıranın qarşısında qeyd olunan mükafat məbləğini qazanır. "Oyun" sırasındakı xanalardan birində "göz muncuğu" simvolu aşkarlandıqda isə bilet 50 manat qazanmış olur.

"Tap, qazan" biletində isə böyük uduşun məbləği 25 000 manat, uduşlu biletlərin sayı isə dörd milyondan çoxdur.

"Tap, Qazan" oyununda "üstüörtülü" "uduşlu rəqəm" xanasında qeyd olunan rəqəm "rəqəmləriniz" lövhəsindəki hər hansı rəqəmlə üst-üstə düşərsə, bilet qeyd olunan məbləği qazanmış olur.

Qeyd edək ki, "Azərlotereya" ASC-nin hazırda satışda olan "Poz-Qazan" biletləri - "10X", "5X", "Zümrüd", "Ani 50", "Şans Ulduzu", "Qızıl" və "Tap, Qazan"da müvafiq olaraq 200 000, 100 000, 50 000 və 25 000 manatlıq böyük uduşlar, eləcə də iri-xırdalı milyonlarla digər uduşlar şanslı qaliblərini gözləyir.

*"Azərbaycan"*





# OXUCULARIN NƏZƏRİNƏ!

## "AZƏRBAYCAN" *qəzetinə abunə yazılışı davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

**1 illik -124,80** (yüz iyirmi dörd manat səksən qəpik) **manat**
**6 aylıq - 62,40** (altmış iki manat qırx qəpik) **manat**
**3 aylıq - 31,20** (otuz bir manat iyirmi qəpik) **manat**

**Hörmətli oxucular!**

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, (012) 539-59-33 nömrəli telefona zəng vura bilərsiniz.*



## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti ASCO-nun gəmilərinə çoxfunksiyalı qurğuların satın alınması məqsədilə *müsabiqə elan edir*

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 19 dekabr 2022-ci il saat 17:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan: Bakı şəhəri, Mikayıl Useynov küçəsi, 2**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili: 1132**

***Tender komissiyası***


# "Azpetrol" şirkəti yanacaqdoldurma məntəqələrinin sayını 98-ə çatdırdı

Azərbaycanda ən böyük yanacaqdoldurma şəbəkəsinə malik olan "Azpetrol" şirkəti strateji inkişaf planına uyğun olaraq, yanacaqdoldurma məntəqələrinin sayını artırmaqda davam edir.




Qurumun Mətbuat xidmətinin verdiyi məlumata görə, dünən "Azpetrol" şirkəti sayca 98-ci və növbəti modul tipli yanacaqdoldurma məntəqəsini "Xaliq Faiqoğlu" MMC-nin avtobus bazasının ərazisində istismara verib. Yeni "Yasamal Avtopark-2" yanacaqdoldurma məntəqəsinin avtopark ərazisində quraşdırılmasında məqsəd paytaxtın sərnişindaşıma prosesində iştirak edən "Xaliq Faiqoğlu" MMC-yə məxsus avtobusların dizel yanacağına olan tələbatının ödənilməsindən ibarətdir. Yeni məntəqədə 2 yanacaq pompası quraşdırılıb və 6 yeni iş yerinin açılması təmin edilib.

"Azpetrol" şirkətinin ilk yanacaqdoldurma məntəqəsi - "Spartak" 1997-ci il iyulun 15-də Bakı şəhəri, Nəsimi rayonu, Moskva prospekti, 1013-cü məhəllə ünvanında açılıb. "Azpetrol" şirkətinin hazırda ölkəmizin əksər iqtisadi zonalarında ümumilikdə 98 yanacaqdoldurma məntəqəsi, 2 maye qazdoldurma (propan-butan) məntəqəsi, ictimai nəqliyyatda sərnişindaşımaya xidmət edən respublikada ən muasir standartlara cavab verən 1 sıxılmış təbii qaz (CNG) terminalı, yanacaq məhsullarının saxlanılması üçün 3 neftbazası, yanacaqdaşıyan maşınlar üçün avtobaza, yanacağın yanacaqdoldurma məntəqələrinə fasiləsiz daşınmasını təmin etmək üçün 100 yanacaq daşıyan avtomobili, minik maşınları üçün avtosahə mövcuddur. Fəaliyyət göstərən yanacaqdoldurma məntəqələrində 4 sıxılmış təbii qazdoldurma postu, 3 maye qazdoldurma postu və 17 elektromobillərin enerji ilə doldurulma postu, 8 motel, eyni zamanda müxtəlif xidmətlərin göstərilməsi üçün əksər məntəqələrdə iaşə obyektləri (kafe, avtoyuma, market) fəaliyyət göstərir.

# Avropa dəyərlərini erməni puluna satan deputat tutuldu

## AP-nin sədr müavini Eva Kaylinin antiazərbaycançı fəaliyyətinin səbəbi bəlli olur

Yunanıstan parlamentinin deputatı, Avropa Parlamenti Sədrinin müavini Eva Kayli hazırda Qətərdə keçirilən futbol üzrə dünya çempionatı ilə bağlı aparılan istintaq çərçivəsində həbs olunub. Əməliyyat zamanı Avropa Parlamentinin sabiq deputatı Antonio Panseri, deputatın köməkçisi Mari Arena, italiyalı cüdoçu, 1996-cı il Yay Olimpiya Oyunlarının iştirakçısı Françesko Corci və Eva Kaylinin atası Aleksandros Kaylis də daxil olmaqla, azı 6 nəfərin saxlanıldığı bildirilir.



Belçikanın Federal Prokurorluğu tərəfindən verilən məlumata görə, tutulan qrup üzvləri çirkli pulların yuyulması, korrupsiya və mütəşəkkil cinayətkar qruplaşmanın fəaliyyətində iştirakda ittiham edilirlər.

Brüssel Prokurorluğunun açıqlamasında qeyd olunduğu kimi, siyasi və strateji post tutan şəxslər barədə parlamentin fəaliyyətinə və qərarlara təsir göstərmək məqsədilə böyük miqdarda rüşvət və bahalı hədiyyələrin alınması ilə bağlı əsaslı şübhələr var. Axtarışlar zamanı 600 min avro nağd pul aşkar edilib.

Eva Kaylinin üzvü olduğu Yunanıstanın müxalif PASOK-KİNAL bloku da hadisəyə münasibət bildirib. Sosialist Hərəkatı Partiyasının bəyanatında onun fəaliyyətinə kölgə salan və xələl gətirən hərəkətlərə qarşı güzəşt edilməyəcəyi vurğulanıb. Kaylinin artıq partiya sıralarından xaric edildiyi, Avropa Parlamenti Sədrinin müavini səlahiyyətlərindən məhrum olunduğu bildirilir.

Avropa Parlamentində korrupsiya və rüşvətxorluq faktları artıq təəccüb doğurmur. Bir sıra avropalı parlamentarilər kimi, Eva Kayli də uzun müddətdir ki, qızğın ermənipərəst mövqeyi, azərbaycanlılara və türklərə açıq nifrəti ilə tanınır.

Məsələn, 2020-ci ilin oktyabrında AP-nin yunanıstanlı deputatı Eva Kayli diplomatik pasportlara malik azərbaycanlılar üçün Şengen vizasının ləğvi ilə bağlı Avropa İttifaqına sorğu təqdim edib. O zaman rüşvətxor siyasətçi parlamenti "Azərbaycanın Qarabağa "təcavüz" cəhdi və münaqişə zonasından Aİ-yə qeyri-qanuni miqrasiya axınının artması ehtimalı fonunda Aİ-nin təhlükəsizliyinin qiymətləndirilməsi"nə çağırıb və səsləndirdiyi bu cəfəngiyyatla bağlı Avropa Parlamentinə hesabat təqdim edilməsini istəyib. Bundan əlavə, Kayli Ermənistanın, guya, "Türkiyənin dəstəyi ilə hərbi hücum təhlükəsi altında" olmasına işarə edərək, İrəvana əməli dəstək verməyə çağırıb. Onun təxribat xarakterli bəyanatında iddia edilirdi ki, "Azərbaycan Dağlıq Qarabağda ermənilərə qarşı haqsız müharibə aparır, 1994-cü il atəşkəs sazişini pozur və beynəlxalq ictimaiyyətin dialoq çağırışlarına məhəl qoymur".

Kayli dəfələrlə Ermənistanın işğalçılıq siyasətini dəstəkləyib, Avropa Parlamentində Azərbaycanın əleyhinə qərar və qətnamələrin qəbulunda xüsusi fəallıq nümayiş etdirib. Bütün bunlara görə, Avropa Parlamentinin vitse-spikerinə qarşı irəli sürülən ittihamı nəzərə alsaq, Bakının tez-tez bu struktura qarşı əsaslı iddialar irəli sürməsi başadüşüləndir.

Prezident İlham Əliyev iyulun 19-da Avropa Parlamentinin Xarici Əlaqələr Komitəsinin sədri Devid MakAlisterin başçılıq etdiyi nümayəndə heyətini qəbul edərkən demişdir: "Biz Avropa Parlamentinin hərəkətlərini başa düşə bilmirik. Əslində, Avropa Parlamenti Ermənistan parlamenti ilə müqayisədə Azərbaycana qarşı daha çox aqressivdir. Bəzən elə gəlir ki, bu qətnamələri Ermənistan parlamenti qəbul edir və ya ola bilsin, bəzi erməni lobbi qruplarının onların üzərində müəyyən təsiri var. Əks halda bunu başa düşmək çox çətindir… Əfsuslar olsun ki, bir çox Avropa parlamentariləri heç bir əsas olmadan bizi hücuma məruz qoyublar".

Həmin görüşdə Prezident Avropa Parlamentinin müxtəlif vaxtlarda Azərbaycan əleyhinə qəbul etdiyi qətnamələri də xatırlatmışdı: "Bizə qarşı ittihamlar, təhqirlər səsləndirildi və yalan məlumatlar yayıldı. Mən hətta Avropa Parlamentinin müxtəlif vaxtlarda qəbul etdiyi anti-Azərbaycan qətnamələrin sayını da yaddan çıxarmışam. Ola bilsin, 10-dan artıq qətnamədən söhbət gedir. Xüsusən də Vətən müharibəsindən sonra bir qətnamə qəbul edilmişdir. Bu, ayrıca narahatlıq doğurur, çünki həmin qətnamədə Qarabağda erməni mədəni irsinin dağıdılmasına istinad edilir. Bu isə həqiqətə uyğun deyil. Həmin qətnamə bu ilin mart ayında qəbul olunub. Yəni müharibə bitəndən ilyarım sonrakı vaxta təsadüf edir".

İlham Əliyev bir daha avropalı deputatların, diplomatların, media təmsilçilərinin ikili və qərəzli münasibətlərinə toxunaraq qeyd etmişdir ki, müharibə bitəndən sonra səfirliklərin nümayəndələri, siyasətçilər, Avropanın bəzi ölkələrinin parlament sədrləri, jurnalistlər tərəfindən Qarabağa çoxsaylı səfərlər edilib. Onların hamısı Azərbaycanın mədəni irsinin tamamilə məhv edilməsinin şahidi olmuşlar. Onlar hər hansı erməni mədəni irsinin dağıdılmasını görməyiblər. Əksinə, erməni mədəni irsi həm Bakıda, həm də Qarabağda mühafizə olunur. Bununla belə, işğal zamanı 67 məsciddən 65-i Ermənistan tərəfindən dağıdılmışdır. Bu barədə heç bir söz belə deyilmir. Onlar məscidlərimizdə donuz və inək saxlayıblar, şəhərlərimizi və kəndlərimizi yerləyeksan ediblər.

İndi bəlli olur ki, bu çirkin fəaliyyətlərində Avropa Parlamentinin "demokrat" deputatlarını həvəsləndirən, ölkəmizin əleyhinə olan qətnamələrin qəbul edilməsinə rəvac verən və anti-Azərbaycan ritorikası üçün onları dilə gətirən səbəb nə imiş...

***Rizvan HİLALOĞLU,***
***"Azərbaycan"***

# ANAMA: Ötən həftə 47 partlamamış hərbi sursat zərərsizləşdirilib

Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi (ANAMA) işğaldan azad edilmiş ərazilərdə minatəmizləmə fəaliyyətinə cəlb olunmuş qurumlar tərəfindən icra olunan əməliyyatlar barədə həftəlik məlumatı açıqlayıb.




ANAMA-dan AZƏRTAC-a bildiriblər ki, dekabrın 5-dən 10-dək Tərtər, Ağdam, Laçın, Xocavənd, Şuşa, Füzuli, Qubadlı, Cəbrayıl və Zəngilan ərazilərində aparılmış minatəmizləmə əməliyyatları zamanı piyada əleyhinə 1, tank əleyhinə 3 mina və 47 partlamamış hərbi sursat aşkarlanaraq zərərsizləşdirilib.

Ötən həftə ərzində 271 hektar ərazi mina və partlamamış hərbi sursatdan təmizlənib.

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti

# ALLAH RƏHMƏT ELƏSİN!

Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatı partiyanın Veteranlar Şurasının üzvü, "91-lər"in nümayəndəsi

**VİLAYƏT HÜSEYN OĞLU ƏLİYEVİN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

---

Sumqayıtdan Zakir Fərəcov Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik Xidmətinin general-mayoru Elşən Zeynalova anası

**VALİDƏ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Milli Məclisin deputatı, İntizam komissiyasının sədri Eldar İbrahimov Bakı Ağır Cinayətlər Məhkəməsinin sədri

**MAHMUD NƏBİYEVİN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyinin rəhbərliyi və kollektivi Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik Xidmətinin general-mayoru Elşən Zeynalova anası

**VALİDƏ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


**BAŞ REDAKTOR**
**Bəxtiyar SADIQOV**

**Ünvan**



*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə*
*e-mail:*
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

**Telefonlar**

| | |
|---|---|
| Qəbul otağı | - 539-68-71, |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39, |
| Məsul katib | - 539-43-23, |
| Məsul katib müavinləri | - 539-44-91, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, |
| Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Humanitar siyasət şöbəsi | - 538-56-60 |
| İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Kompüter mərkəzi | - 538-20-87, |
| Mühasibatlıq | - 539-59-33 |

**Qeydiyyat nömrəsi 1**

**"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-də çap edilmişdir**

**Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir**

**Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır**

***Gündəlik qəzet***

**Tiraj 3600**
**Sifariş 6491**
**Qiyməti 40 qəpik**